

46
Əli Aslanoğlu
şeir vaxtı

49
Nərgiz
nəsr

54
hücrə

56
Çinarə Nüsrətli
debüt

63
9x9



76
Sona Xəyal
Vahidin gənclik şeirləri

80
Mətanət Ulu Şirvanlı
hekayə

83
142-ci teatr mövsümü

86
Zərəngiz Dəmirçi Qayalı
şeirlər

88
debüt

90
Elşad Ərşadoğlu
dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Tərənə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Sevinc Mürvətqızı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Ünvanı: Az-1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 12.11.2015
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. № 123, Tiraj: 300
Qiyməti: 2 man.

1967-ci ildən çıxır
Şəhadətnamə № 238

Nömrənin eksperti:
Nizami Cəfərov

«AZƏRMƏTBUATYAYIMI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

«EKSPRESS» MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «EKSPRESS» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
456 – 67 – 13
564 – 48 – 96

437 – 28 – 10
408 – 17 – 51

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

EKSPERT

HƏR ÇAPINDA XÜSUSİ ÇƏKİ SƏRGİLƏYƏN JURNAL

Gülşən Əliyeva - KƏNGƏRLİ
filologiya elmləri doktoru

("Ulduz"un oktyabr sayına baxış)

Müasir informasiyalar şəbəkəsində jurnal çapı işinin həm də maarifçilik fəaliyyəti olması təkzibedilməz reallıqdır. Bu proses artıq ədəbi nəslin yaradıcılıq taleyinin müəyyənləşməsində həlledici rol oynayır. Əlbəttə, jurnal çapı təkcə ədəbi xarakteri ilə diqqət çəkmir, onun bədii tərtibat və çap zərurəti poliqrafik sistemin beynəlxalq əsaslarına söykənir. Bu mənada "Ulduz" jurnalı da xaraktercə özünəməxsus xüsusiyyətləri ilə seçilir. Hər çapında xüsusi çəki sərgiləyən "Ulduz" jurnalı ədəbi prosesdə dinamik müdaxilə ilə fəal görünür. Elə 10-cu sayın timsalında jurnalın konseptual qayəsini bütövlüklə izləmək olar. Jurnal ədəbi prosesdə nəsillər arasındakı əlaqələri qoruyub saxlamağa çalışır. Yeni imzaları bir ədəbi nəsil kimi üzə çıxaran bədii keyfiyyətlər qloballaşma dövrünün estetik meyarları baxımından nizama çəkilir. Jurnalın bu nömrəsində elə materiallar verilir ki, onlar həm ədəbi gedişatın dinamikasını, həm də janr əlvanlığını əks etdirir. "Ulduz"un bu sayı ilə tanış olan oxucu çağdaş Azərbaycan ədəbi prosesində nələr baş verdiyini təsəvvür edə bilər.

Jurnalın oktyabr sayında zəruri-effektiv səciyyə qabarıqdır. Sevinc Mürvətqızının "Özüylə söhbəti və essesi"ndən başlayaq. Müəllif "özüylə söhbəti"ndə ictimai zərurətlərə öz şəxsi fonunda bir təsnifat verir. Bu söhbətdə səmimi-konkret fikirlərin kompozisiya və bədii-ictimai məğzi, psixofizioloji amillərin dinamikliyi maraqlı status kimi diqqət çəkir. Yaxud onun essesində mətnin dərki, mövzunun məntiqcə bitkin forma alması, istedadlı yazarın mətnə qarşılıqlı yanaşma təsirləri, fikir təqdim etmə dürüstlüyü və s. həyata baxışın sivil tərzləri kimi xarakterizə olunur. Lakin bu, fərdi mülahizədəki pessimistlik ovqata bir qədər əks təsir edir. Bu da, şübhəsiz, müəllifin ictimai ampluada modern çəkçevirə məruz qalmasından irəli gəlir. Və açığı, Sevinc Mürvətqızının yazılardakı xoş ovqat missiyası alqışlanasıdır.

* * *

"Variasiya" bu dəfə polşalı şair Çeslav Miloşun şeirini təqdim edir, tərcüməçilərə şans verir.

* * *

Dərginin diqqəti çəkən poeziya nümunələri Dəyanət Osmanlının "Qaydasız yazı" silsiləsi ilə təqdim edilmiş şeirləridir. Ədəbi mühitdə özünəməxsus yeri olan şairin bu silsiləsində həyati və ictimai əhəmiyyət kəsb edən zərurətlər çoxdur. Bunlar nəticə etibarilə bir kod altında sistemləşdirilib.

Zənnimizcə, həyat-tale imtahanında insan Tanrı sevgisinə ruhsal aləmdə yüksəlişə nail olur. Şübhə yoxdur ki, sadədən mürəkkəbə yol alan Dəyanət Osmanlı da zəruri xoşbəxtlik aludəçiliyindən çox, Allah yanında üzüağ olmağa üstünlük verir. Onun

bəhs olunan silsiləsi də bu fikri əyaniləşdirir. Bir-iki nümunəyə diqqət çəkək:

Sən elə bilirdin,
eşqdir ölümün çarəsi.
Amma anladın başına gəldiyində:
Eşq ölümdən də qəddar
sevimli bir canidir.

* * *

Dünyanın o başında –
qarlı bir ormanda,
qar altında can verən
bir ovçu komasıyam.

Ümumiyyətlə, 7 səhifəlik silsilədə şairin əzabın dadına baxmaq şərəfi, dərdi otuz illik həsrətdən sonra doğulan çağa kimi qucaqlayıb oxşamaq marağı və s. fəlsəfi ovqat yaradır. Müəllifi bu zərurətə sövq edən nədir? Bunu, təbii ki, onun şeirlərindəki dünya, həyat və zaman məfhumları özündə geniş ehtiva edir.

* * *

Dünyada ən etibarlı fiqur üçayaqlı sacayağıdır. Ancaq əsl sənətkarlıqla üç ayağı elə bir simmetrik nöqtədə birləşmişdir ki, üç ayağın üçü də həmin nöqtədən eyni məsafədə düşsün, bu zaman güc həmin nöqtəyə düşür və ayaqlar üstündə bərabər paylanır. Qan Tural "Üç film, bir müəllim və idealizm" yazısında "Bizim Cəbiş müəllim", "Otel otağı", "Həm ziyarət, həm ticarət" filmlərini ortaq məxrəcə gətirə bilib, əsas ağrılı nöqtələrini tapa bilib. Bu ortaq nöqtə MÜƏLLİMDİR. Yazının (eləcə də filmlərin) məğzi bundadır ki, müəllim alilikdən adiliyə enə bilməz. "Mən sabun bişirməyəcəm" (Cəbiş müəllim).

* * *

Xanım Aydının "Gün...El" nəsr yazısı da təxminən bu səpkidədir. Lakin burada həyata baxış bir qədər fərqlidir. Müəllif tale yüksəlməsində geriliyə müasir fon verir, oxucu zənnetməsini bir növ, labirintə salır, onu ərzinə çatdırmaq istədiyi fikrin mahiyyətini tapmağa sövq edir. Və sonra da bu kodeksi daha mürəkkəb əhatəyə salır, çiliklənmiş güzgüdəki əksin param-parçalığını həyat vəhşəti kimi xarakterizə edir; amma çıxış yolu üçün də ipucu saxlayır. Bu əks çevrilmədə də oxucu dərin izharlara mübtəla olur, epik təbəddülatları gerçək mənada dərk etmək şansı qazanır.

* * *

Alpay Azərin bir xatirənin yadigarı olan "Ətirli məktub" hekayəsi həyatın təzahür tiplərinə meyildir. Bu proses müəllifin özünün də həyat qayəsinə düzüm verir. Ola bilsin, o da çoxları kimi doğulandan qəlb rahatlığını axtara-axtara qalıb; hər halda, onun axtardığı qayə, düşündüyü ruha təsir edir. Bəlkə də buna görə onun hekayəsinin ümumi hissiyyatı bu amilə istinad yeridir.

Hekayə dialoq mündəricəlidir; xarakterlər, obrazlar müasir həyatın adamlarıdır. Burada oxucu qarşısına çıxarılmış ictimai-həyati nüanslar konkret ədəbi-ictimai müstəvilidir, bu ədəbi situasiyada müəllif çək-çeviri nəsrin imkanları çərçivəsində manevrlər edir.

* * *

Jurnalın "Şeir vaxtı"nın qonağı şair Əlizadə Nuridir. Hər dəfə təzətər şeirləri ilə oxucu seyretməsinə tuş gələn şair bu dəfə də zaman üzrə müəyyənləşdirdiyi poetik imkanlarını bədii şəklə salır.

...Qələm oxladığı yerdən
Şeir dammır hərdən-hərdən.
Qaçıb gizləndim şeirdən
Misraların arasında.

* * *

Göz yaşını ləl eyləyək,
Kədərə "gəl-gəl" eyləyək,
Ulduzlara əl eyləyək,
Ayrılaq.

* * *

Bir az uşaqçun yaşadım,
Bir az kədər üçün,
Özümə vaxt qalmadı...

Əlizadə Nuri şeiriyyətinin yaddaşa təsir gücü ədəbi-poetik komponentlərlə konsentrallaşır. Bu şeiriyyətin real zəminə əsaslanan hissəsi insan və gerçək münasibət meyarlarına köklənib; bir növ, həyat-qınaq və taleyə vurğunluq kəsb edir, ədəbi miqyaslara obrazlı ovqatvermə ilə diqqət çəkir. Bu şeirlərdəki dil şirinliyi, fikir oynaqlığı, klassik formaya sirayətetmə, hətta mistika ənənələrinə müraciət və s. müəllifin dərin hissiyyatlı qələm sahibi olduğunu təsdiqləyir.

Şeirlərin bəzisində müəllifin mübtəla olduğu həyati məqamlar, onun haqq-ədalət və azad düşüncə uğrunda mübarizə ruhu özünü əks etdirir. Eləcə də şeirlərdəki müəllif-vətəndaş qayəsi, sözə bəndolma və sözdən inci tökmə məharətləri də diqqət çəkən vacib cəhətlərdir. Bu şeirlərin başa düşülən dildə yazılması, müəllifin anlaşılan-eyhamlı fikirlər ifadə etməsi, diqqətlərdə mümkün duyğulu anlar yarada bilməsi də hazırkı ədəbi mühitin ideya-bədii xüsusiyyətləridir.

* * *

Tanınmış tənqidçi, ədəbiyyatımızın yorulmaz tədqiqatçısı Vaqif Yusiflinin "Deyilənlər gəldi başa" məqaləsini Xalq yazıçısı Yusif Səmədoğlunun yaradıcılığı timsalında 60-cı illər ədəbiyyatına XXI əsrdən müstəqillik dövrünə bir baxış kimi qiymətləndirmək olar. Tənqidçi yazıçının intellektini yeni kontekstdən təhlil etməyə çalışır, nəticədə Yusif Səmədoğlunun son romanı - "Deyilənlər gəldi başa" əsərində qoyulan ideyaların müasir dövrdə necə reallaşması haqqında qənaətlər meydana çıxır. Xatirə yaddaşı tərzində qələmə alınan bu kövrək yazıda Yusif Səmədoğlu şəxsiyyəti gerçək xarakterini tam mənada ortaya qoyur.

Yazı, bütövlükdə özünün tale və həyat gedişatı məğzləri ilə dərin maraq doğurur. Müəllif bəlkə də oxucu üçün zəruri olan fikri-hissiyyatları müasir tempə uyğun hadisə və proseslərin içərisində axtarır deyə, qələmə aldığı bu yazı nəticə etibarilə məzmun və mənada əhatəli xarakterizə olunur. Və əsas da odur ki, yazı həyat materialları əsasında yazılıb.

Namaz Məmmədoğlunun «Dəli» yazısında deyilir ki, o insanlar tale müxtəlifliyi ilə bir-birindən fərqlənir. Yazının mərkəz xəttində xarakterləri ilə fərqli ampluada görünən obrazlar var; bu obrazlar comərdliyi ilə diqqət çəkir. Hətta bu yazıda xarakterlərin «gərək tale ilə savaşa çıxım…» götürqoyları da aydın görünür.

* * *

Dərginin "Debüt"ünə Gülşadə İbrahimli cavabdehlik daşıyır. Şeirləri həyat-tale təcəssümüdür. Oxucularının könül dünyasını isti sığallara bükən Gülşadə zamanın, həyatın və taleyin ən çətin məqamlarına sirayət edən acıları belə, bir az duyğudan, bir az da zərurətdən doğan proses kimi qabardır:

Çırpıram başımı günahlarıma,
Divarlar əl atıb boğacaq məni...

* * *

Tərk edilmiş ata ocağı qədər yalnızam,
Qulaq batırır səssizliyim…

Təzad yəqinliyində xarakter cızan gənc yazar hadisələri poetikləşdirmək imkanlarına yiyələnmək üçün ciddi cəhddədir. Söz yox, onun yanaşmasında zəif miqyaslar da hiss olunandır. İnsan xarakterinə nüfuz edə bilmək çətin prosesdir; bu mənada Gülşadə İbrahimlinin həyata baxışı, orijinaldır.

***

"Tribuna"çılıq missiyası kəsb edən «Tanıdaq dünyaya öz kökümüzü!» yazısı tanınmış qiraət ustası Məleykə Alıqızının publisistik mülahizələrini əks etdirir. Yazı bütünlükdə xarakterlər məcmusudur. Müəllif sanki hicrandan doğan ağrılara işarət vermək məqsədi güdür. Burada baş obraz Şairdir – həsrət ağrıların könül acısına tuş yaradıcı insandır.

Ümumilikdə sosial zəminin, həyat acısının təcəssüm etdiyi bu yazıda şəxsiyyətin birbaşa keçidi var.

Yazıdakı Vətən obrazı da əhatəli verilir.

* * *

Gənc yazar Elnur Abdiyevin şeirləri də diqqətçəkicidir. "Bir ac qurdun ulartısıdır bu küləkli gecə" deyən şairin "özüm öz göz yaşımda ürəyimə hopuram" ziddiyyəti poetik duyum aləmi yaradır. Ola bilsin, o, bununla hansısa qeyri-dəqiq gerçəkdən doğan acının bitkin nigarançılıq yanğısından doğan yenilməzliyə işarə vurur, hər halda, bu tip fikir sövqetməsində eynilə də taleyə isti bir nüfuzetmə var. Müəllifin eşq-tale çək-çevirini bir vüqar əhatəsi kimi xarakterizə etməsi poetik nizamlanma üçün vacib məqamdır.

Elnur səmimi duyğuların, real ehtiramın cəm olduğu həsrətmələri nəzmə çəkir. Lakin bu vəsfin özündə də haradasa bir yanğı hüdudu var; fikirlərin çoxunda duyğusal həyat təsirləri aşkar görünür.

* * *

Şair-publisist Qəşəm Nəcəfzadənin "Qoy dağlarda qar ərisin" yazısı Kəlbəcər və Elməddin

Nicat xarakterini cızır. Dərginin "Hücrə"sinə verilən bu yazıda bir şair, bir Vətən duyğusu obraza çevrilib. Bu yazını torpaq-yurd dəhşətlərinə nikbin baxış uzadan bir zəfər nəğməsi də hesab etmək olar. Müəllif bu real səbəbə publisistik-təhlilə bir məzmun gətirməyi bacarıb.

Müəllif bu yazını sırf vətən-torpaq israrlarına hesablamasa da, ən azından vətənsizlik dərdinin hansı acılar aşıladığını əks etdirib.

Bu yazıda insana-şəxsiyyətə sevgi səmimi notlara köklənib. Yazının dəqiq çöhrəsi müəllifin son abzasda verdiyi qətiyyətlə bitir: "...Elməddin Nicat çox sevdiyim şairdir. Nə vaxt görürəm, gülümsünür. Elə bil dağlarda qar əriyir. Qoy ərisin".

* * *

Tanınmış telejurnalist, şair-publisist Telli Pənahqızının «Son məktub» nəsr yazısında maraqlı nüanslar çoxdur. Birincisi, burada sivil yanaşma bir tərz olaraq deyil, bir ənənə olaraq da deyil, bir vacib zərurət kimi diqqət çəkir. İkincisi, həkim-xəstə münasibətlərindəki soyuqqanlılıq özünün modernçilik aspektləri ilə də təzahür edir. Müəllif xalq yazı üslubuna yaradıcı meyillər verməklə, bu zəminləri mümkün reallığa çəkə bilir. Bu mənada hekayə boyu hicran yanğıları, eşq-tale acıları modern-israrçı baxışla sərgilənir.

Yazının süjet xətti təəssüratdan doğan real həyat zəminidir. Telli xanım bu prosesə real zəmin kimi yanaşıb, oxucusunun ovqatında fərqli dəyişilmələrə meydan verib.

Eləcə də "Son məktub"un sərt reallığında həm də həzin, mülayim bir təsvir var. Əslində, yazıçı bir könlün dramını qələmə alır, bu dramın qəhrəmanını dialoqa çəkir.

* * *

Jurnalın "Şeir vaxtı"nda Hicran Hüseynovanın şeirlərinə nəzər salırıq və belə qənaətə gəlirik ki, sanki hansısa qeyri-adi bir tərpənmə hazırkı ədəbi nəslə bir təlatüm verib. Xanım yazar fikirlərini poetikanın tələblərinə uyğun sıralasa da, onun fikir təqdim etməsi poeziya qaydaları ilə israrlı çəkçevirdədir; açığı, onun qənaətləri də ziddiyyətə səbəb verir – məzmuna sirayət etmir, həm də ictimai realizədə əks olunur.

Bax, bu cəhəti eksperti olduğum dərgidə yazıları yer almış qələm sahiblərinin əksərinə şamil etmək olar.

* * *

İlham Abbasovun təqdimatında vizual-israrçı fəhmi ilə diqqət çəkən "Ədəbiyyat üzrə Nobel mükafatı laureatları" silsiləsi üzrə "Ölüm imkan vermədi..." adlı çevirməsi ovqata təsir edən, bir qədər də mistik çək-çevir yaradan yazı kimi yaddaşlara hopmaq imkanı qazanır. Yazının süjet xəttində Nobel mükafatı almış polyak yazıçısı Vladislav Reymont və onun mükafatdan təxminən bir il sonrakı ölüm faktı durur. Və "Ölüm imkan vermədi..." adlı yazını bir növ giley təəssüratları kimi də xarakterizə edə bilərik.

* * *

Gənc şair Ruslan Ələkbərlinin Azərbaycan Yazıçılar Birliyinin Mingəçevir bölməsinin sədri İsmayıl İmanzadənin təqdimatı ilə sıralanmış şeirlərində də qısaca bir şərtilik hökm sürür. Düzdür, bu şeirlərdə, demək olar, hər şey müəllif nəzarətindədir, ancaq modernçi ənənə müəllifin ədəbi ovqatına sanki yükdür. Elə bil şeirdə bir az da zor gücünə fikir ifadə etmək ciddiyyəti var.

Hələ misralarım sığala möhtac,
Hələ duyğularım varaq hayında...

Ancaq onun şeirlərində elə məqamlar da var ki, sükutdan cingildəyən səda kimi parlaqlıq verir.

* * *

Yuxarıdakı fikirləri Həsən Xasıyevin şeirləri barədə də demək olar. Müəllifin öz obrazları ilə dərdləşməsi yaxşı haldır, lakin həyatla yaşam arasında cərəyan edən ciddi söhbətləri poetikaya uyğun nizamlamaq, məzmuna və mənaya dolğunluq vermək də şeirin əsas prinsipləridir.

* * *

Samirə Ağayevanın "Mənsur şeir"ində poetika ictimai zəminlərdən geridədir. Şeirdə əks olunan situasiya bir ANA varlığına sonuc verir. Buradakı təəssüf dünyasını dəyişmiş anaya bir ağıdır.

* * *

İbrahim İbrahimlinin esselərini müasir yenilikdə təzahür edən bir qədər asta yerişli ruhsallığa yaxın hesab etmək olar. Müəllifin maraq əhatəsi duyğusallıqdan çıxır, real, həm də düşündürücü səbəblərə keçir. Yəni hər iki esse özünün düşündürən ovqatı ilə bu əhatədə var-gəldədir. Sanki bu yazılar epik bir tablodur, ictimai-qabarıq nüanslara daha çox sirayət edir.

İkinci essedəki təhliləçəkmə də maraqlı təsir bağışlayır.

* * *

Nəhayət, dərginin son səhifələrində yer almış şeirlər gənc şair Günel TREUnun həyat nəğmələridir. Bu şeirlərdə də personajların təsviri önəm kəsb edir; müəllif eyhamı, ictimai təsirə əks təsir şeirlər barədə müsbət fikir ifadə etməyə əsas verir. Müəllif fikir süzgəcində sözün proyeksiyasını dinamik cızıb, hadisələrin görkəmini mənada cilalayıb, oxucuda müsbət aura doğurub.

Günelin şeirlərində bir inandırmaq gücü də var. Fikirlər səmimi, axıcı və rəvandır. Məsələn:

Baş qoyum dizin üstə,
Saçlarıma sığal çək.
Mənim kimi birisi
Ömrünə gəlməyəcək...

"Yalan danış" adlı şeirdən gətirdiyimiz bu parçada həyata baxış israrçı zəmindədir: məntiqə yekun olaraq inanca səbəb verir.

Fəqət bütün yazılarda, xüsusilə şeirlərdə yaradıcılıq üçün zəruri olan fəhm zəifdir. Bu da onların klassik sənət təcrübələrinə kifayət qədər bələd olmamasından, az-çox istedadlarının həssaslıqla cilalanan əzabından yan keçmələrindən irəli gəlir. Əsər hansı məzmunda yazılır-yazılsın, orada birinci növbədə sənətkar şəxsiyyətinin möhürü bölən dünyaya fərdi baxış görünməli, gördükləri ilə bərabər, fəhm etdikləri duyulmalı, başqa sözlə, Allah vergisi olan istedadın nurlu siması üzdə olmalıdır.

Sözardı: Təbii ki, fikir, düşüncə yaradıcı şəxsin həyat qayəsidir. Ekspert kimi təhlil etdiyim "Ulduz" jurnalının səhifələrində də qayəçi ruhu, həyat və tale məsələlərinə sirayətetmə ilə təzahürdə gördük. Jurnalın bu sayı qələm sahiblərinin yaradıcılığına önəm verən faktoloji zənginliklə də diqqətimizi çəkdi.

Bu sayımızda

3 Sadıq Elcanlı "Bütöv oxuduğum ilk jurnal"

8 Sevinc Mürvətqızı özüylə söhbəti və essesi

12 Variasiya "Ulduz" jurnalı ilə AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin birgə layihəsi

14 Dəyanət Osmanlı "Qaydasız yazı" silsiləsi

21 Qan Turalı "Üç film, bir müəllim və idealizm"

27 Xanım Aydın nəsr

30 Alpay Azər "Ətirli məktub"

42 Əlizadə Nuri şeir vaxtı

45 Dəyilənlər gəldi başa...

Namaz Məmmədoğlu nəsr 52

55 Gülsadə İbrahimli debüt

56 Məleykə Alıqızı tribuna

61 Elnur Abdiyev debüt

63 hücrə

Telli Pənahqızı "Son məktub" 66

Hicran şeirləri 79

Ədəbiyyat üzrə Nobel mükafatçısı 80

Ruslan Ələkbərli debüt 84

İbrahim İbrahimli esselər 89

Günel Treu dərgidə kitab 92

Müşfiq XAN

özüylə söhbəti...

Bu hadisə lap çoxdan olub. Üstünnən bəlkə min il keçib.

Hansı hadisəni deyirsən?

Beynimin içi alax-bulaxdı. İmkan ver, fikirlərimi toplayım, yadıma salım.

Necəsən?

Tərk edilmiş yetimxana kimiyəm. Bax burda (*iki əlini də ürəyinin başına qoyub göstərir* – M.) heç kimi hiss etmirəm – gedən gedənədi.

Niyə? Hardasan ki?

Nə bilim, özümdə deyiləm. Nə çox sual verirsən...

Alimnümalıq eləmə, XAN. Mənim yanımda rahat ola bilərsən. Danış, ürəyini boşalt. Mən nə günə varam bəs? Günlərdi nə haqqında düşünürsən belə? Bayaq hansısa hadisədən danışırdın axı...

Özümlə danışmaq istəyirəm. Amma çoxdandı görünmür...

"Səndən sənə şikayətim var" – deyirsən, yəni...

Şair onu yarçün deyib, mənimlə heç bir ilgisi yoxdu. Mən kimsəsiz adamam.

Haqsızlıq etmə, sənin eşq səhnələrində həmişə anşlaq olub, – pis-pis gülümsəyib yersiz yaranan gərginliyi yumşaltmağa çalışdım.

Yaxşı görək, sən allah, boş-boş danışma. Sənə bir sirr açmaq istəyirəm.

Hadisə dediyini?

Hə. Amma söz ver ki, sözümü kəsməyəcəksən.

Sual verməyəcəm, söz verirəm, – bu dəfə zorla qımışmaqdan gərilən üz ifadəmdən əsər-əlamət qalmadı. Sirrin sehrindən dolayı məni indidən həyəcan bürümüşdü. Yaddaşımda sürətli axtarmağa çalışdım – amma ağlıma heç nə gəlmədi. Axı bu qədər vaxtdan sonra o məndən nə gizlədə bilərdi? Tərəddüdlər burulğanına düşmək üzrəydim ki, boğazını arıtlayıb danışmağa başladığını hiss etdim. Bu dəfə təkcə suallarım yox, düşüncələrim də susurdu...

O vaxta qədər – həmin hadisəyə qədər mənə elə gəlirdi ki, dünyada hamıdan çox özümü istəyirəm. Hətta bu halda belə öz qayğıma hamıdan daha az qalırdım. Ən böyük arzum Qarabağda döyüşüb erməni öldürmək idi. Bu haqda xatirələrimi "Dayanacaq" hekayəmdə yazmışam. Həmin günə qədər mən, nənəm demiş, "Sonqulu" kimi hər işdən çıxmışdım. Dərslərimi az oxusam da, müəllimlərim heç vaxt narazılıq etməzdi. Mənim oyunlarım başqa uşaqlarınkına çox bənzəməzdi – futbol desən, bacarmazdım. Nəinki bunu, kart oynamağı, üzməyi qətiyyən bacarmırdım. Bilyardda "ki"ni tutmaq indinin özündə də mənimçün əlçatmaz bacarıqdı.

O günə qədər himayədarlarsız yaşamağı sevirdim. Əslində elə indi də belədir. Sadəcə çox sonralar anladım ki, bu uşaqlıqdan qalma axmaq vərdişdi. Amma yaxamı qıynağınnan heç cürə aralaya bilmədim.

Hələ on səkkiz yaşım olmamışdı. Mahirəylə iki ilə yaxınıydı ki, bir-birimizi sevirdik. İndi onu doğru-dürüst xatırlaya da bilmirəm. Bəlkə də daha çox xatırlamamaq istəyidi bu – tam dəqiq bilmirəm. Təkcə sınıq-salxaq velisopedimin tərkinə alıb rayon parkında gəzdirdiyim günlər yadımdadı. Və bir də məni həbs edənnən dörd il sonra yanıma gəldiyi günü xatırlayıram. Bu o gün idi ki, qurmağa çalışdığım dünyam təzədən başıma yıxılmışdı. Universitetin filologiyasının diplomunu aldığı günün səhəri gəlmişdi. Çox dayanmamışdı. Günahkar baxışlarıyla gətirdiyi məktubu verib getmişdi. Əslində ağlaya-ağlaya qaçıb aralanmışdı mənnən həmin gün...

Mahirə mənnən bircə sinif aşağı oxuyurdu. O illər planımızı çoxdan qurmuşduq. Məktəbi onnan bir il tez bitirdiyimə görə birinci il "kəsiləcəkdim". Növbəti ilsə ikimiz də sənədlərimizi eyni ali məktəbə verib Bakıya gələcəkdik. O deyirlər ha – bir adamın suçu sübuta yetirilənə qədər o adam suçsuzdu, – bu məsələdə mənim şansım gətirmədi. Uçastkovı (*sahə polisi* – M.) İbrahimov məni qamarladığı kimi də içəri atdı. Gözümü açanda hər şeyi "həll eləmişdilər". Uqalovnı rozıskın (*cinayət-axtarış şöbəsi* – M.) həngaməsinə, nəyisə araşdırmasına ehtiyac da qalmamışdı. Sağ olsun yoldaş İbrahimov – işini təmiz görmüşdü.

Baxmayın ki, çox oyunnan bixəbərəm. Elə o vaxtdan – atamın babasının qoşalüləsini əlimə aldığım günnən silahdan ötrü sino gedirəm. Hər kəsin ən azı bircə zəif tərəfi olur də, mən də uşaqlıqdan silah düşkünüydüm. Daha doğrusu, bu sevda əvvəl-əvvəl evimizdəki "Tir" tüfəngiylə başlamışdı. Sərçə, sığırçın, indi mən deyim, siz təsəvvür edin – yüngül qurğuşun seçmə nəyi havada saxladısa, onnan – allahverənnən vurub fantaziyama uyğun nəsə yemək hazırlamaqda ustaydım – qızartmasınnan, kababınnan, hətta bozbaşınnan belə. Bu qurğuşun seçmələr hərdən çöl göyərçinini də saxlayırdı. Amma gərək qanadınnan vuraydın. Elə ki havada səndələdi, deməli, qonşuların həyətinə qədər uçacaq yolu var, sonra mütləq düşməlidi. Xırda ovlarım hava məkanını pozduqca mən də Dürüş xaladan icazəsiz sərhədi pozub – neytral zonanı keçib (*qonşumuzla aramızdakı hasarı* – X.) qaçıb onu yaxalayırdım. Aradabir sağsağan saldığım da olurdu – Eva üçün (*həyətimizin iti idi* – X.) Bununçün gərək başını nişan almağı bacaraydın. Çünki sağsağan çox sayıq quşdur və xeyli də iridi. Bir dəfə qaçırtdınsa, çətin ki, təkrar yaxalaya biləsən. Həm də əti yeməli deyil. Açığı, bir dəfə qanadını qızardıb dadına baxmışdım. Yalannan deyəm ki, o biri quşların əti ilə nəsə fərqi var – yox idi, niyə sizi aldadım ki.

Məndə silaha qarşı məhəbbət nədən qaynaqlanırdı, özümçün də məchuldu. Bircə bunu bilirəm ki, həbsdə olanda da, sonrakı illərdə hərbi xidmətdə zampolit (*siyasi işlər üzrə müavin* – M.) işləyəndə də bu aludəçiliyim səngimədi. Başıma nə gəldisə də, bu vərdişim ucbatınnan gəldi. Xeyli sonralar – hərbi xidmətdə olarkən başa düşdüm ki, dünyada insanın qoşalülədən daha müdhiş icadları var. Həə, dediyim kimi, bunu çox sonralar – yanıma əsgər alıb qrup silahları ilə dövlət sərhəd nişanına qədər yeddi-səkkiz dəfə gedənnən sonra hiss eləmişdim. Buna qədər artıq başım daşdan-daşa dəymişdi. Həm də elə bircə günün içində – hadisə baş verən günüsü. Və o vaxtdan başa düşmüşdüm ki, həyatımızda baş verən heç nə təsadüfi deyil. Axan qan damarda dayanmaz, – deyirlər, – ölməlisənsə, öləcəksən, öldürməlisənsə, öldürəcəksən...

94-ün payızıydı – hardasa oktyabrın sonları (*həmin hadisəni unutmağa çalışdığımçün dəqiq günü yazmıram* – X.). Məmi kişinin saqqızını birtəhər oğurlayıb meşəyə ova aparmışdım. Yekəxanalıq kimi görünməsin deyə, balaca bir arayış verim. Məmi kişi heç – onu, yəqin, tanıyırsız, üç-dörd dəfə ayrı-ayrı vaxtlarda haqqında sizə danışmışam. Kar idi, heç eşitmirdi. Rayon camahatının da onu "Kar Məmi", – deyə çağırması bu üzdəniydi. Amma rəhmətlik sərrast atıcıydı. Mənə nişan almağın, qundaq tutmağın, nə zaman atəş açmağın çəmini də o öyrətmişdi. Atamın babasını desəz, o heç – fərsizin biriydi. Ömür boyu heç nə vurmamışdı. Daha doğrusu, özünün dediyinə görə, vururdu – amma düşmürdülər. Onun təkcə qoşalüləsi vardı. Vəssalam – yəni bu qədər ovçuydu. Həə, əslində, mən Məmi kişini yox, o məni aparmışdı ova. Həm də mənim

üçgünlük acizanə xahişlərimnən sonra. Babamın rizasını da almışdım. O gün meşəyə ikinci gedişimdi. Əlidolu qayıtmalıydım – bu barədə başqa heç nə düşünə bilmirdim. Və mən həmin gün sözümün üstündə dayandım – "əlidolu" qayıtdım. Adam vurmuşdum! Bilməyərəkdən. Sizin dediyiniz kimi – təsadüfən. Xəbərim də olmamışdı. Bunu axşamüstü kor-peşman – evə qənimətsiz qayıdanda İbrahimov muştuluqlamışdı. Meşənin sıx yerində tələsib atdığım güllə birini öldürmüşdü. Babamın yanına qayıdanda bütün qonşular haray-həşir içində didik-didik məni axtarırdılar. Silahın ballistik rəyi-filan, hər şey hazır idi. Onsuz da rayonda üç-dörd köhnə kişidənqalma qoşalülə vardı o vaxtlar. Biri də mənim atamın babasında olan qoşalüləydi. Vurduğum oğlanın qabırğalarında ilişib qalan güllə mənim, daha doğrusu, atamın babasının adına qeydiyyatda olan qoşalülədən açılmışdı. Ya zəlzələdən, ya vəlvələdən – artıq qatil idim! Rəşidi vurmuşdum – Mahirənin sinif yoldaşını. Oğlanın cəsədi gözlərimin qabağınnan getmir – al qana boyanmışdı. Başı da yarılmışdı. Amma güllə köksünə saplanmışdı. O vaxt bunun sirrini çözümləyə biləcək durumda, qafada deyildim. Hadisə günü və daha dörd il sonra mənimçün müəmmalı qalan təkcə həmin gün – biz ora ova gedəndə Mahirəni meşə yolunda görməyimiz idi. Daha doğrusu, mənim diqqətimi çəkmişdi. Məmi kişi onu tanımadığına görə heç nədən şübhələnməmişdi də. Qulaqları eşitməyən bu yaşlı ağsaqqalı qınamaq da olmazdı, çünki Mahirədən və bizdən savayı həmin gün meşə yolunun kənarınnan giləmeyvə yığmaqçün gələn və heç birini tanımadığım daha bir neçə qadın-uşaq vardı. Mahirənin həmin gün meşə yolunda olmasının səbəbini mən yalnız dörd il sonra – həbsxanaya yanıma gələrkən verdiyi məktubu oxuyanda öyrənə bildim. İş işdən keçmişdi, həbsdən çıxmağıma cəmi-cümlətani ikicə il qalırdı. Çünki Rəşidi qəsdən öldürməmişdim. Məhkəmə də bunu "nəzərə" almışdı.

Mahirənin mənə yazdığı məktubun tamamını sənə danışmayacam, amma söz verdiyim sirri açıram. Hazırsan?

Matım-mutum qurumuşdu. Əlim ağzımda qalmışdı, nə deyəcəyimi bilmirdim, təbii. XANın bildiyim hadisə haqqında bu qədər kinayə ilə danışmasından başa düşmüşdüm ki, həbsxanada günahsız yerə altı il cəza çəkib. Nə deyəcəyimi bilmədim, yalnız başımı təsdiq işarəsi bildirən şəkildə sallayıb sirrini açmasını gözlədim.

Mahirə məktubunda həmin gün – hadisə baş verən günü Rəşidi görüşmək adı ilə aldadıb meşəyə apardığını, sonra başını odunla yarıb boğduğunu yazmışdı. Yəni mənim atdığım güllə Rəşidə dəyməmişdən əvvəl o artıq ölübmüş...

Əziz oxucu, həmsöhbətimin hekayəsinin sonuna gəlsəniz də, bilirəm ki, bir sualın cavabını bilməyi çox istəyirsiz – Mahirəni meşə yolunda görəndə qəhrəmanım niyə ona yaxınlaşıb orda nə gəzdiyini soruşmadı, axı onlar bir-birini sevirdilər. Düzdü, müəllif hekayədə bu hissənin üstündən qara boşluq kimi keçdi, yəqin, siz də fərqinə vardınız. Amma mən deyim – bu da mənim sizə açdığım bir sirr olsun. Qəhrəmanım həmin vaxt Mahirə ilə çoxdan ayrılmışdı. Əslində, Rəşidin Mahirəni zorlamasından sonra hər ikisi – qəhrəmanım da, Mahirə də bir-birinin üzünə baxa bilməmişdilər. Bunu mənə Mahirə özü danışmışdı. Hər şeyə bircə saniyənin içində belə nöqtə qoyulmuşdu. Və sizə açıb danışdığım bu hadisə rayonda hələ də sirr olaraq qalır...

...və hekayəsi

VELOSİPED

İnsanları xəlvəti sevirəm. Topluma isə nifrət edirəm. Özümü əməlli-başlı inandırmışam ki, bu iki xüsusiyyət mənim qeyri-adiliyimdi. Yoxsa yaşamaqdansa, çıxıb getmək ağır olar həmişə. Bu müvazinəti saxlamaq zor bir işdi mənimçün.

İnsanlar məni dahi bilir. Əslində, dəlinin biriyəm. Yaramaz olduğumu da düşünə bilərsiz. Hərdən elə hiss edirəm ki, ümumiyyətlə, mənim heç özümə də faydam yoxdu.

Yaşım çox deyil. Bunu yəqin bilirəm. Təxmini müşahidələrimə görə, yaşca mənnən böyük dönər satanın "dayı" çağırdığının da şahidi olmuşam, toydakı ofisiantın "qaqaş" deməsinin də. Əvvəllər yaşımı tez-tez hesablayardım. Hər dəfə yaşımı soruşanlara bir yaş artıq deyərdim. Ağılsız işdi. İllərin necə keçdiyinin fərqinə varmadım. Həyatın hesabını xeyli zamandı qarışdırmışam. Yəqin, mən borclu olaram. Cəhənnəmə ki. O, borclu olsa, guya nə dəyişəcək? Onsuz da işi-gücü almaqdı. Hər kəs halidi ki, cığaldı. Daha doğrusu, fırıldaqdı. Mənim kimi fağıramı qaytaracaq borclarını?!

Artıq doğum günlərini də əvvəlki həvəslə gözləmirdim. Əslində həvəslə gözlədiyim illər olurdu, amma hamısı da həvəssiz keçirdi. Qonaqlı-qaralı, qırx-əlli nəfərlik doğum günləri, eehh, çox keçmişdə qalmışdı. Altı nəfərlik ailəmizlə keçirdiyimiz xudmani doğum günləri də dünya tarixi kitablarınnan oxuduğum lüzumsuz hadisələr qədər ancaq xatirimdədi. Sonralar ən qələbəlik doğum günlərimdə təkcə özüm olurdum. Hərdənsə bunnan da az adam. Yoxa lənət.

Olub-bitənlər haqqında yazdığım bu hekayədə hansı zamanda olduğumu da tam xatırlaya bilmirəm. Bütün bunlara baxmayaraq, üçcə şeyə şəksiz əminəm və yaxşı xatırlayıram. Birincisi, yaşım çox deyil. Elə ən çox xatırladığım da budur.

Ailəmizin səkkiz yaşımı qeyd etdiyi günü də tez-tez xatırlayıram. Dediklərinə görə, artıq "yekə kişi" olmuşdum. Kənddəki həyətimizdə sallaq söyüdün altında açılan süfrədə atamla dostlarının dedikləri orijinal sağlıqların heç biri, şübhəsiz ki, yadımda qalmayıb. Amma xatirimdədi ki, həmin məclisdə atamın təklifi ilə mən də rumka qaldırmışdım. Doğrusu, içib-içmədiyim dəqiq yadımda deyil. Deyəsən, tamsınmışdım. Zəqqum! Qoltuğuma hül verib həmin gün məni iş dalınca yolladılar. Qoyun-quzunun yemini tədarük etməkçün qonşu məhəllədən bir xaral kisə gətirməli idim. Evə zülmlə gəlib çıxdım. Atam o qədər tərifledi ki, ağrı-filan da hiss eləmədim. Toy səhəri günü başladı. Nənəm bir həftə çiynimə xəmir təpitməsi qoymalı oldu. Çətinliklə olsa da, yavaş-yavaş əməlləşirdim. Bilmirdim, bu necə baş verir, amma babam deyirdi ki, "əməlləşmisən, artıq qazəllibiri yuya bilərsən". Ötən yeddi gün müddətində sağ çiynim sallaq o qədər gəzmişdim ki, sağalannan sonra da qanadı sınmış göyərçini xatırlatdığımı deyirdilər. Sonralar başa düşdüm ki, "yekə" kişi olmur. Ümumiyyətlə, kişi "yekə" olmur. Əlqərəz, səkkiz yaşım qeyd olunan gün də heç vaxt xatirimnən çıxmayıb.

Ölənə qədər unutmayacağım üçüncü doğum günüm isə 92-ci ilə təsadüf edir. Bayaq dediyim kimi, bu yadımda qalan üçcə dənəsinnən sonuncusudur...

Həyatım boyu velosipedim olmayıb. Olmasını on beş il arzulamışam. Alınmayıb. Almayıblar. Əmim oğlu atama kömək edirdi. Onun varı idi. Velosipedi deyirəm. Atam almışdı. Mən atama daha çox kömək edirdim. Amma mənə almırdı. Kömək etmək mənim borcum idi. Atamın da

borcu idi. Ha ağzımı doldururdum istəməyə, üzüm gəlmirdi. Tərslikdən də borcunu heç kim ona xatırlatmırdı. İndi fikirləşirəm ki, bizimkilər də mənim kimi atamın zəhminnən çəkinirmişlər. Gözdən iraq yer tapan kimi əmioğlumun "şkolnik"inə baxıb köks ötürür, hərdən də ağlayıb ürəyimi boşaldırdım. Beləcə, özümü birtəhər ovutmağı öyrənmişdim. Necə ki indi də o günlər yadıma düşdükcə fikirlərimi kəsik-kəsik, rabitəsiz, zorla nəql edə bilirəm...

Bir gün mənim də velosipedim olacağı arzuları ilə dərslərimi əla oxumağa başlamışdım. Tərslikdən də heç kim söz verməmişdi ki, əlaçı olsan, sənə velosiped alacam. Öz aləmimdə siyasət işlədib atamın gözünə girməyə çalışırdım. Avaralanmırdım. Əmioğlunun velosipedini qaçırdıb sürməyə başlamışdım. Dinmirdilər. Qısa vaxtda təkəlli, bir az sonra ruldan tutmadan, arxa tərkdə oturub sürməyi öyrəndim. Dinmirdilər, – deyirəm ha, atam dinmirdi. Əmioğlum isə qəti imkan vermirdi. Son günlər "şkolnik"in spislərini qıfıllamağa başlamışdı. Xəsis! Paxıl! Vəhşi!

O ilki doğum günüm idi. Fürsət tapıb velosipedi qaçırtdım. Bu dəfə lap uzağa sürəcəkdim – rayon xəstəxanasının yanına kimi. Eşitdiyimə görə, bir kilometrlik yol idi. Hələ bir də geri qayıtmağı saysam, iki kilometr. Ləzzət! Yolüstü "Sarı qız"ın küçəsinnən də sürəcəm. Bu dəfə bir az çox gülümsəyəcək. Böyük qardaşı arxamca çaylaq daşı atsa da, bu dəfə heç bir işə yaramayacaq. Çünki velosipedi sürməyi çox yaxşı öyrənmişəm. Bəlkə də əyilib daş tapana qədər gözdən itmiş olaram. Çox getməmişdim. Təmtəraqlı xəyalların müşayiəti ilə neçə metr sürdüyüm indi qətiyyən yadımda deyil. Amma əmioğlumun əlində uşaq biləyi yoğunluqda taxta ilə qızmış düyə kimi mənə tərəf bağıra-bağıra qaçması indiyə qədər gözlərimin önündədi. Bir də öz qışqırığımın səsi o vaxtdan bəri küy kimi qulaqlarımda ilişib qalıb, getmir. Vitka məni velosipedqarışıq süpürüb torpağı görünən asfaltın kənarına tullamışdı. Qonşumuz idi. Çoxdan rəhmətə gedib. Köhnə "nolüç"ü ilə vurmuşdu məni. İndi o maşınların nəsli kəsilib. Heç yerdə görə bilməzsiz. Dediyinə görə, maşının əyləc sistemi qəfil sıradan çıxmışdı. Günah onda idi. Sürücünü deyirəm. Mənim də günahım var idi. İşlərin maddəsi isə əmioğlum idi. Hə, atamın bu işdə günahı yox idi...

Həmin doğum günü burnumnan gəldi. On günnən çox yerdə yatdım. Həyətdəki ləmnən qalxa bilmədim. Nənəm canla-başla qulluğumdaydı. Ürəyimə nehrə yağı kimi yayılırdı. İş-zad buyuran yoxdu. Ənsəmdə şiddətli ağrı hiss edirdim. Bir ay doğramacdan başqa ürəyim heç nə istəmədi. Nənəmin əllərinin şəfası bəhrəsini vermişdi. Amma yaramazlıq edib daha bir həftə özümü xəstəliyə vurdum. Sağalmaq istəmirdim, – desəm, yalan olmaz. Hamının səni əzizləməsi necə fövqəladə bir hissmiş, İlahi! Təxminən iki aya yaxın da baş-ayaq kimi gəzib-dolandım. Gözlərimin zəiflədiyini isə bir neçə il sonra hiss etməyə başladım.

İllər keçdikcə daha pis görürdüm. Gecələr hər kəsin doğru-dürüst görə bildiklərini qaraltı kimi zorla seçə bilirdim. Bu, çox sonralar idi. Zaman o zaman idi ki, artıq həkimlər atama ürək xəstəliyinə görə ömürlük özünə yoldaş edəcəyi indi adını unutduğum hansısa tabletkanı yazmışdılar. Hər gün bir dəfə qəbul etməliydi. Bir də şiddətli ağrılar olanda içməsini tapşırmışdılar. Bizə isə kişiyə göz-qulaq olmağı tövsiyə eləmişdilər.

Həmin gün gecədən xeyli keçmiş ayaqyoluna getmək üçün həyətə düşmüşdüm. Ayın üzü pərdələnmişdi. Geniş həyətdəki gündüzlər yaxşı seçdiyim nar ağaclarını, veyillənən sarı pişiyi, köhnə dəmir masanı iri qaraltı kimi çətinliklə görə bilirdim. Daş pilləkəni yuxarı qalxanda nar ağacının yaxınlığında qəribə səs eşitdim. Qaraltı olduğunu ancaq görə bilirdim. Astaca tərpənirdi. Xeyli aralıda olduğuna görə geri qayıtmadım. Yəqin pişiklərdi, – fikri ilə evə qalxıb yatdım.

Səhəri erkəndən anamın ürəkparçalayan cikkəsi ilə açıb hamımız həyətə tökülüşdük. Atam nar ağacının altında – gecə mən iri qaraltı gördüyüm yerin biraddımlığında canını tapşırmışdı. Həkimlər - həmin vaxt dərmanını verən olsaydı, heç nə olmazdı - dedilər...

Üstünnən illər keçib. Atam hər dəfə yuxuma gələndə mənə "şkolnik" alıb gətirir. Qutularını da açmadan bala-bala həyətdəki tövləmizə yığıram. Dünən bacımla köməkli saymağa çalışdıq. Sayıb qurtara bilmədik. Gərək bu gün davam edək.

Hərdən mənə elə gəlir ki, min yaşım var. Əslində, hələ heç həştad səkkiz də tamam olmayıb...

Dönüş

Pərvanə RƏHİMLİ

- Gəldin, Sadiq?! - yorğun səslə dilləndi.

- Gəldim,ana! - səsindəki yadlıqdan diksindi.

Anası ilə üzbəüz dayanmışdı. Çaşqın və heyrətli idi. Solğun çöhrəsini Ay zorla işıqlandırırdı. Cırcıramaların gecə zümzüməsi, tənbəl-tənbəl hürən kənd itlərinin səsi, yaxınlıqda su arxlarındakı qurbağaların qurultusunu eşitməsəydi, zənn edərdi ki, bu kənddə anası ilə təkcə qalıb. Kənd də qaranlıqda dağ ətəyinə səpilmiş bir ovuc işıldaböcəyinə bənzəyirdi: sarı, mavi işıqlar sayrışırdı evlərdə...

Həyətin qapısı ağzında dayanıb onu gözləyən qoca qarı çiyni titrəyə-titrəyə hıçqırırdı.Titrək səslə:

- Bilirdim ki, dönəcəksən, oğlum! - dedi.

- Mənə dedilər, sən daha ... yoxsan, ölübsən.

- Bağışla məni, bala.Yalan deməyə məcbur oldum. Gör neçə ildi getmisən. Səni yola salanda gəncdin.... - Səsi qırıldı. - Başqa əlacım yox idi. Sənin üçün öldüm-hönkürdü. - Öldüm ki, bəlkə dönəsən.Üzünü görüb, səsini eşidib sonra ölmək istədim. Bax, ora - əli ilə havanı yarıb barmağını ay işığında heybətli kölgəni andıran ağaclara uzatdı. - Yadındadır? Bağda atan sənilə əkdiyi şaftalı tingi vardı ha, o da cavan, qollu-budaqlı ağac oldu, sonra da mənim kimi quruyub qocaldı. Sən yenə dönmədin! - Qarının səsindəki gizilti və titrəyiş içinə elə sığal çəkdi ki, ayaq üstə səndələdi.

Anası danışdıqca baxışlarını yarıqaranlıq boşluğa zillədi. Pıçıltını özü belə güclə eşitdi:

- Özün bilirsən, Amerika həyatı, sonra rəssamlıq... başım elə qarışdı ki... "səni unutdum" - demək istədi. Qarşısındakı - tənhalıqdan büzüşüb balacalaşmış qadına yazığı gəldi:

- "Bağışla, sənə yalan deyirəm, ana! Axı necə deyim ki, təkcə rəssamlıq, molbert, rənglər, şöhrət məni özünə çəkmədi. Dostlarımla Venesiyada qondolada gəzmək, Maldiv adalarında gözəl qadınlarla istirahət, içki məclisləri, səyahətlər səni, bu yerlərdəki izlərimi mənə unutdurdu, yadlaşdırdı. Zamanı belə unutdum, ana!"

- Mən, - başını yellədi, - bilmirəm, nə deyim... - əsəblə əllərini ovuşdurdu-vaxt, heç cür vaxt tapa bilmirdim-kəkələməyə başlayırdı həyəcanlananda.

- Bilirəm... - anası pıçıldadı. - "Nədənsə bircə bu dünyada tək-tənha bədbəxt anan üçün heç boş vaxt tapa bilmədin", - demək istədi. Lakin qarşısındakı məşhur rəssamı incitmək istəmədi. Qəhərqarışıq gileyi boğazında düyünləndi.

- ...Bilirəm, işin çox olub, yoxsa sən elə daşqəlbli deyilsən, oğlum!

Kədərlə anasını süzdü: "Görəsən, söylədiyin bu nağıla özünü neçə il inandırıb ovutmusan, ana?! Yoxsa məni sevginlə cəzalandırırsan? Bəs gözlərin? Onlar başqa şeylər deyir. Bəlkə şərəfsizəm?! Niyə mənə "oğul" deyirsən?! Neçə il qəhərini içinə atdın? Qapında dayanmış bu arsızı qovsana! Məni oxumağa göndərdin ki, səni, gəldiyim soyu, gəzdiyim torpağı unudum?!"

Diz çöküb əfv diləmək, “bağışla” demək istədi. Bacarmadı. İçindəki boşluğa sözünü keçirə bilmədi. “Bağışla, desəm, məgər bu qarşımdakı qadının ömründən oğurladığım sevinci, illəri geri verə biləcəkdimi?! Əsla!”

Başı üstdən pırıltı ilə uçan kölgədən diksindi:

- Qorxma, - qarı dedi, - bayquşdur.

Səmaya baxdı. Ulduzlar dağılmış təsbeh dənələrinə bənzəyirdi. Ağappaq süd yolu göz işlədikcə uzanan sonsuzluqda əriyirdi. Bir parça qara bulud Aya tərəf sürünürdü. Kainat saf, cazibəli idi. Uzun illərdən sonra doğulduğu torpaqda məsum rahatlıq hiss etmişdi. Nə qədər vaxt keçib? Hesabladıqca başında küt ağrı hiss etdi...

İlk dəfə Amerikadakı tələbəlik, meqapolis həyatının həyəcanverici illəri, saysız dostlar ətrafında sərgilərdə, qalereyada, molbert arxasında saatlarla dayanmadan fırçasını kətana çırparaq keçən ömrü ona boş və mənasız bir şey kimi gəldi. Küt ağrı getdikcə şiddətlənirdi. Qulaqları uğuldadı: “Bəlkə mən, əslində, mənasız və boş işlərlə özümü aldatmışam?! Axı mən nə üçün bunu indi,elə bu an dərk etməliydim?! Niyə?!” Qazandığını itirdiyi ilə müqayisə etməkdən yoruldu.

Keçmişinə bağlı olan hər şeylə əlaqəsini kəsib unutmuşdu. İndi qarşısında büzüşmüş qarını - anasını gözlərindən və bəstə boyundan tanıyıb acıması ona ağır gəlirdi.İçində onu yeyib bitirən boşluq labirintində azıb qalmışdı.Anasının səsi onu bu boşluqdan çəkib çıxardı:

- Gəl içəri, bala, qaranlıqda dayanma. Gəl,evinə xoş gəldin!

Evinə...o ev ki onu xatırlamırdı, ya da unudub. Hər şey qoyub getdiyi kimi deyilsə? Əlbəttə, burda çox şey dəyişmişdi.Yəqin ki, nə kənd, nə doğmaları qoyub getdiyi kimi deyildi.

Qarı daha danışmırdı. Ağır yük altında əzilən adam kimi ürəyi döyünə-döyünə qapının kandarından içəri girdi. Nəzərləri keçmişində qiymətli nəsə axtaran səyyah diqqətilə ətrafa saplanmışdı. Təkcə gümüşü haşiyəli çərçivədə gülümsəyən atasının qayğılı və özünün saralmış uşaqlıq şəkillərini xatırlaya bildi... Baxışları üsyankar və inadkardı. Bayaqdan sürən sükutu təkcə nizamlı əsgər kimi addımlayan kəfkirli saatın tıqqıltısı pozurdu.

- Sənin otağını olduğu kimi, heç bir şeyə toxunmadan saxlamışam, oğlum. Həmişə sənінlə bax bu qutuyla dərdləşib, fəxr etmişəm.Tez-tez səni burda görürdüm, - gülümsəyərək televizoru sığalladı.

- Mənə aid heç nə qalmayıb burda... - pıçıldadı.

- Belə düşünürsən, oğlum? Səni xatırladan hər şeyi olduğu kimi saxlamışam, gəl, otağına bax-üzbəüz köhnə qapıya işarə etdi. - Yox, yox, qoy əvvəlcə çay gətirim. Başımı lap itirmişəm, axı uzaq yol gəlibsən, - anası tələsik mətbəx qapısına yönəldi. Gur işıq altında anasına baxdı. Necə yaşlı, yorğun, qəddi əyilmiş görünürdü.

Etiraz etmək, gələrkən yolda ən bahalı otellərdən birində yeyib-içdiyini söyləmək istədi. Susdu. İçində yenə suallar onu yeyib-tökürdü: “Anam heç dəyişməyib. Bu həmin qadındır- mərhəmətli, sadə, məsum, vicdanlı. Anam məni ana kimi qarşılayıb, hələ də ana kimi nəvazişini unutmur. Bəs mən?!...” Süstləşdi. Ürəyi anasının bayaq işarə etdiyi qapıda-hər şeyi olduğu kimi xatırladan, yaddaşında saxlayan keçmişində idi. Ehtiyatla, ağır-ağır addımladı. Qapını açanda köhnə tanış qoxunu hiss etdi.

`Hər şey olduğu kimi, keçmiş uşaqlıq qoxusunda qalıb:saralmış kitablar, molbert, qurumuş rəng palitrası, solğun çərpələng, kökdən düşmüş piano, saralmış fotolar, divarda - çarpayısının üstündə asılmış həmin o xalça: “Yuxu” xalçası... Heç bir şey onu bu qədər həyəcanlandıra, kövrəldə bilməyib. Əllərini ona uzadan keçmişi, məsumiyyəti qarşısında tab gətirə bilmir, yenicə dən düşmüş incə saqqalı göz yaşları ilə islanırdı. Əlini xalçaya uzatdı. İlmələr elə bil od olub əlini yandırdı. Bu xalça onun üçün təkcə keçmişini yox, uşaqlıq arzularını, yaradılışa inamını yadına salmışdı... “Bəlkə insan bəzən onu şirəsinə, kökünə bağlayan əşyaları hara gedir-getsin özü ilə aparsa, yaxşıdı?!. Xatırlamaq gec deyil, bəlkə”, - düşündü. -“Məzəlidir, ya faciə?! Bir zaman xatırlamaq istəmədiyin keçmiş, bu otaq, əşyalar, anam olduğunu unutduğum bu yaşlı qarı ilə toxuduğum “Yuxu”, hər şey qoxumu özündə saxlayıb, mənə özümü, sanki itmiş yaddaşımı xatırladır. Halbuki hər şeyi unutduğumu sanırdım. Demək, bu qədər ömrü özünü aldadıb ovutmaqla keçirmisən, Sadiq!”

- Yadındadırmı,“Yuxu”nu necə toxumuşduq?- anası titrəyən qollarında sanki güclə təpər tapmış kimi üstü butalı fincanda çay,mürəbbə və digər çərəzlərlə dolu əlindəki podnosu bağçaya baxan pəncərənin qarşısındakı yazı stolunun üstünə qoydu.

- Hə, - kədərlə gülümsədi - hana qurar, yundan əyrilmiş ipi ərişə dolayar, ilmə çalıb bir çin hazır edərdik. İlmələri bərkitmək üçün də arğaclayıb kirkitlərdik... Xatırlamağa çalışıram, dərindən nəfəs aldı, - bir neçə gün xəstə yatdın. Sağalıb bunu toxuduq:mələkləri, qır qazanını, cənnət xəyalını bu xalçaya çəşni etdin. Sən “Qıl körpüsü” qoymaq istədin adını. Mənsə israrla “Yuxu” olsun - dedim. Məni üzmək, incitmək istəmədin, razılaşdın. Ona çox, lap çox müştəri çıxdı. Amma heç vaxt satmadın. “Yuxumun payıdı o mənə, oğluma əmanətdi” - dedin.

Anasının bulanıq gözləri parıldayırdı:

- Deməli, xatırlayırsan, bala, - dedi.

- Ana, - kövrəldi - bir söz deməyəcəksən, bilirəm. Amma yalvarıram, bir kəlmə de. De ki, sən dünyada ən axmaq oğulsan, heç nəyə sadiq deyilsən, adına layiq ola bilmədin. Şöhrətini hər şeydən üstün tutdun,yaradıcılıq sevdana tüpürüm, - de. Mənim üçün heç bir sənət keçmişinə, kökünə dönüşdən, doğmasına sevgidən daha dəyərli ola bilməz de, ana!

Özünü, səsini, göz yaşlarını tanıya bilmirdi, sanki içində başqa biri doğulmuş, ruhuna yadlaşmış doğma biri girmişdi.

- Oğlum, tale çox amansız... Sevib öyrəşdiyimiz hər şeyi yavaş-yavaş bizdən alıb aparır. Səni də məndən belə alıb gizlətdi çər dəymiş fələk- anasının qurumuş, titrək barmaqları dən düşmüş islaq saqqalını sığalladı. - Sən gedəndən heç otağının işığını da söndürmədim. Gecə-gündüz, işıqda da, qaranlıqda da yansın, dedim. Burdaymışsan kimi... Səndən heç incimədim. Axı canımdan yoğrulan parçama necə kin saxlaya, küsə bilərəm?! Gəldin, artıq rahat ölə bilərəm. Qalx, dincəl. Gecdi, yorulmusan, yəqin.

Gecə uzun-uzadı düşündü. Pəncərəsi ağzındakı yazı stolunda oturub laptopu qarşısına qoydu. Bir müddət gözlərini ekrana zillədi. Sonra klaviaturanın düymələrini tıqqıldatmağa başladı:

“*Əzizim, Liza! Yazacaqlarımı duyğu davranışları nağılı, cəfəngiyyat güman edə bilərsən. Amma... düşündüm və geciksə də, ikimiz üçün çoxdan verilməli olan bir qərar verdim. Anamın ölüm xəbərini almasaydım, bəlkə bir daha geri dönməyəcəkdim. O, illərlə yolumu gözləyib. Anamın qırışlarında itmiş gənc qadını gördüm. Bilirsən, mənim üçün doğulduğum torpağa, keçmişimə, itirdiyim yaddaşıma dönmək elə də asan olmadı. Kaş ki, bu qədər gecikməyəydim... Burda olmaq, huzurumu duymaq məni necə xoşbəxt etdi, bilsəydin. Anamın mərhəməti, sevgisi qarşısında özümü uşaq hiss etdim, əridim, yenidən doğuldum. İçimdə sanki ölmüş sandığım o adam bu illər ərzində sadəcə susub, donub. Bu əşyaların qoxusu, qarşımdakı tənha qadının əclaf oğluna sonsuz mərhəməti, təmənnasız sevgisi içimdə susan o adamın buzunu əritdi, özümə qovuşdurdu məni! Mən nə qədər axmaq və əclafam, Liza! Həmişə sənə də soyuq davrandım. Bunu bildiyin halda, heç vaxt mənə bir söz söyləmədin, axmaqlığımı, soyuqluğumu üzümə vurmadın. Heç bir zaman kimliyimi xatırlatmadın mənə! Bu illər ərzində mənə dözdün. Sənin üçün də çətin olacaq, bilirəm. İnanmayacaqsan bu hərəkətimə. Amma sən güclü qadınsan, bilirəm! Artıq məni Nyu-Yorkda saxlayacaq heç nə yoxdur. Hər şeyi, emalatxanamı belə sənə bağışlayıram. Hüquqi prosedurun başlanması üçün sənədləri vəkilimə göndərəcəm. Yerdə qalan işləri həll edəcəyinə inanıram. Bağışla, əziz Liza!*”

Sadiq

Məktubu elektron poçtla göndərib laptopu sərt hərəkətlə çarpayının üstünə atdı. Siqar yandırıb dərin qullab aldı. Gözünü pəncərədən çölə - qaranlığa zillədi. Nəfəs alarkən burnundan incə tüstü cığırı burulub havada əriyirdi.

Qəfil ildırım çaxdı. Diksindi. Hardasa it hürdü, yenə bayquş uladı. Yağış damlaları pəncərəsi ağzındakı navalçanı döyəcləməyə başladı. Yüngül hərəkətlə yatağına uzanıb işığı söndürdü: “Səhər açılan kimi anama hər şeyi etiraf edəcəm. Burda, onun yanında qalacağımı mütləq söyləməliyəm.” Yorğun, gərgin düşüncələr içində göz qapaqları yuxuya təslim olurdu.

Yan otaqdakı çarpayıda uzanmış qarının çöhrəsi ağappaq ağarmış, kədərdən arınmış gözləri genişlənmiş, gülümsəyən dodaqları səyriyirdi. Yağışsa dayanmadan yağır, getdikcə güclənirdi.

Nazilə GÜLTAC

***

Yazığım gəlir tənha ağaca,
yağış gölməçəsində
öz əksini görəndə.
Yazığım gəlir tənha adama,
göz yaşında ürəyini görəndə.

***

Ümidlərim
başına
çələng qoyub,
arzularım
yaxasına
çiçək taxıb
səni gözləyir,
xoşbəxtliyim.

***

Qəlbim səni unutdu,
özünü tapmaq üçün.
Ayrılığın kölgəsi
günlərimi qaraltdı,
könlüm bulud- buluddu.
Qarışıb göz yaşıma,
ürəyimdə dolaşma.
Azarsan qaranlıqda.

SARI YARPAQLAR

Son bahar
sarı yarpaqları
bağrına basıb
qucaqlar.
Əsən meh
yanaqlarını
sığallar.
Qulağına
vida pıçıldar.
Sarı yarpaqlar
titrəyər xəfifcə.
Utancaq- utancaq
boylanar bitdiyi budağa.
Uçuşar küləklərin arxasınca
əhdə vəfasızlar kimi.

BİLMİRƏM

Hələ də gözlərim axtarır səni,
Adını çəkəndə gülə bilmirəm,
Demə ki, unutdum, unutdum səni,
Neyləyim, sənincün ölə bilmirəm.

Zaman ötür, axır gedir su kimi,
Kimləri aparır, gətirir kimi.
Sən mənim qəlbimə gəldiyin kimi,
Neyləyim, yanına gələ bilmirəm.

Sənsiz ömrüm – günüm cəfayla dolu,
Yol salıb yollardan, keçir bu yolu,
Qubardı, möhnətdi hey sağı , solu,
Neyləyim, bu dərdi bölə bilmirəm.

Gültac neynəsin, bu baharı, yazı?
Ömrün çoxu gedib, qalıbdır azı,
Olmuşam özgənin alnında yazı,
Neyləyim, yazını silə bilmirəm.

ÇARƏSİZ

Çox dərdlərə mən dərmanlar aradım,
Dəvasızdı olan dərdlər çarəsiz,
Bağlı qapılara açar tapmadım,
Açılmayan o qıfıllar çarəsiz.

Əllərim uzalı göylərə sarı,
Yaralı könlümü çiçəklə sarı,
Qaranlıq gecədə Ay da sapsarı,
Gün çıxanda gecə olur çarəsiz.

İlahi, blmirəm kimə yalvarım?
Məni ağladana niyə yalvarım?
Neçə yerdən çat veribdi divarım,
Axan yağışlara baxır, çarəsiz.

Gültacın inadı heç vaxt qocalmaz,
Kəsək qalansa da dağ tək ucalmaz,
Sel yuyan yarğanın önündən qaçmaz,
Yollar məəttəldi, cığır çarəsiz.

3 HEKAYƏ

Sadıq ELCANLI

YOVŞANLI YAMACIN QÜRUB ÇAĞINDA

Qadın səsi idi, yenə nəfəsi qarala-qarala huy vurur, inadla, inamla huylayırdı:

- Alış huuyy!..

Üçüncü gecə idi ki, sübhün astanasında, qaranlığın gözlərində işıq pöhrələri baş qaldıranda onu çağırırdı. Ən qəribəsi də bu idi ki, onu uşaq vaxtlarında, gənc yaşlarında kənddə olduğu kimi Alış deyə huylayırdı. Kəndin həmin qanlı qəziyyəsindən sonra onu heç kim, heç vaxt, heç yerdə bu adla çağırmamışdı.

Doxsan doqquz yaşlı Alpan qoca çarpayısında büzüşüb o səsin yollarına boylanırdı. Pəncərədən bir parçası görünən gecənin qaranlığına nurlu, narın yağışlar yağır, sübhün şəfəqə hamilə gözləri gizli-gizli gülümsəyirdi. Nurlu, narın yağışların istisindən, gizli-gizli gülümsəyən gözlərin işığından qocanın qubarlı qəlbinə, ruhunun qəm karxanasına nagahan qapılar açılır, nə müddətdi itkin düşən xoşluğun, xoşbəxtliyin addım səsləri gəlirdi.

Qoca başını qaldırıb neçə illərdi qara qəbir daşları kimi ruhunu sıxan zalım, zülmkar tavana baxa-baxa Allahına üz tutdu: – Şükür kərəminə, Xudaya, şükür o biçarə itkinin qayıdan yollarına. Üç gecədir məni haylayan, huylayan bu nə səsdir; nakam Əsmərim neçə on illərin sükutundan sonra niyə belə inadla, inamla çağırır məni, Allah…

Sinəsinin sönən ocaq yerində, kor küllüyündə nəsə qəfləti parladı, açıq-aşkar şölələnib alışdı; uzaq bir yolun üfüqləri, ilğımları boy göstərdi, onu qəfil gələn qara sel kimi qamarladı, çəkib apardı…

* * *

Kəndin yollarında, cığırlarında, bağ-bostanlarında, hətta evlərində, həyətlərində sarı-sarı ilanlar qaynaşırdı. Yayın ortaları, yerin-göyün təndir kimi yanan vaxtlarıydı. Günün günorta çağı göz görə-görə qarşı quzey dağlardan sürü-sürü enib gələn sarı-sarı ilanlar bir neçə saatın içində kəndi bürüyüb basmışdı. İlanlar o qədər çox, elə vahiməli, bədheybət idi ki, dərman səpməklə, daş-qalaq etməklə, öldürməklə axırına çıxmaq olmazdı. Bunu başa düşən camaat həmin gün çar-naçar kəndi tərk etdi, güney yamaclara çəkildi. Axşamtərəfi atlı bolşevik dəstəsinin gəlişi, on-on beş ilanı öldürməsiylə vəziyyət daha da qəlizləşdi. İlanlar kəndin yollarında qıvrılıb baş qaldırır, səs-səsə verib elə mələşir, ətrafa sapsarı zəhər fışqıra-fışqıra elə qaynaşırdılar ki, köməyə gələnlər də geri çəkildi, əl qaldırıb təslim oldular, qayıdıb getdilər. Beləcə, adına İlanlı deyilən kənd boşaldı, hər ailə bir tərəfə çəkilib özünə çarə axtardı, yeni gün-güzəran qayğısına qaldı…

Alpan üç gün idi ki, evlənmiş, ala gözlü Əsməri gəlin gətirmişdi.

Əsmərin əsl adı Züleyxa idi. Alpanla göz-gözə gəldiyi, könül alıb könül verdiyi, butaları qovuşub bütövləşdiyi gün qəribə bir xahiş etmişdi:

- Mənə bundan sonra Züleyxa demə.

Alpan xeyli təəccüblənmişdi:

- Niyə? Bəs nə deyim?..

- Mələk sifətli Yusifə məşuq olub ərinə xəyanət edən, sonunda Tanrı təqdiri qazansa da, yenidən cavanlaşıb Yusifə qovuşmaq təltifinə layiq görülsə də… Züleyxa olmaq istəmirəm, mənə Əsmərim de…

Alpan baxışlarıyla razılığını bildirmişdi, haradansa Əsmərin üstünə tökülən yeddi sarı yarpağa fikir vermədən onu bağrına basmışdı, odlu öpüşlərə qərq etmişdi…

Sevgiləri nağıla, dastana dönüb dillərdə gəzən bu gənclərin – Alpanla Əsmərin üçcə günlük xoşbəxtliyi o qəfil ilanlar basqınında faciəylə tamamlandı.

Ot biçinindən qayıtmışdı. Çox yorulmuşdu, atın üstündə yuxulayırdı. Gözəllər gözəli Əsmər gözlərində sevda dənizləri coşa-coşa, dodaqlarında sevgi qığılcımları odlana-odlana darvaza-qapını taybatay açdı, əlini üzəngiyə uzadıb ərini qarşıladı.

Alpan atdan düşüb, aşırma xurcunu götürdü. Sonra atın yalını-belini sığallaya-sığallaya yəhər-yüyənini açdı. Əsmərin tərpəşən xurcuna heyrətlə baxdığını görüb güldü:

- Bala ceyrandı, lap südəmərdi, sarıca tülkülər qova-qova bizim biçənəyə gətirmişdi. Yazıq gəlib ayaqlarıma qısıldı, külək alan təzə nanə yarpağı kimi tir-tir əsirdi. Güllə atıb yeddi tülkünü qovdum. – Xurcundan çıxardığı südəmər ceyran balasını Əsmərin qucağına verdi: - “burax çəpişlərin arasına, qışı bizdə qalıb əmələ gələr, yazağzı aparıb bura-xaram Ceyran düzünə, öz taleyini yaşayar, ya qismət, bəlkə lap anasına da qovuşar…”

Üç günün gəlini, al-yaşıl geyinən, gözəlliyi göz güldürən, təzə-tər yasəmən buta çiçəklərinə bənzəyən Əsmər ceyran balasını bağrına basdı, öpüb oxşadı, sonra bağçaya, südəmər çəpişlərin arasına buraxdı. Ərinə tərəf dönüb dünyanın ən şirin, ən dadlı təbəssümüylə ətir saçdı:

- Köynəyini soyun, təzə bulaq suyu gətirmişəm, səni bulaq suyu ilə yuyunduracam. – İşvə ilə ərinin çılpaq sinəsinə, qala təki qorxusuz qoynuna sığınaraq pıçıldadı:

- Ot biçinin necə keçdi?

- Otu biçib qurtardım, srağagün biçdiklərimi də lökürtlədim. Allah bərəkət versin...

Əsmər qurşağadək soyunan Alpanı təzə, sərin bulaq suyuyla yuyundurdu, sirli-sehrli ballı baxışlarılya öpüb oxşadı. Sonra həyətdə, üzüm çardağının kölgəsində xalça sərdi, süfrə açdı, kasıbın olanından süfrəyə düzüb tükənməz könül var-dövlətiylə ərinə qulluq etdi. Və qəfildən həyətə doluşan sarı-sarı ilan sürüsü, bütün kəndi başına götürən qışqırıq, fəryad, vay-şivən səsləri hər şeyi alt-üst etdi, həyatın bütün nizamını dəyişdi, dünyanı sapsarı zəhər rənginə boyadı.

Bədheybət bir ilan üç-dörd metrlik məsafədən atılaraq gözəllər gözəli Əsmərin durna boynuna dolanmışdı, qıvrılıb sıxdıqca üç günlük gəlinin bulaq təki dumduru, qaynar ala gözləri bərəlib hədəqəsindən çıxırdı…

Alpan bir göz qırpımında baş verənlərdən süfrə başındaca quruyub qalmışdı, heykəl kimi donub mat-mat baxırdı. Bütün varlığıyla sevdiyi Əsmərin bərəlib hədəqəsindən çıxan ala gözlərindəki ağrını görüb sanki yuxudan oyandı, dik atıldı, ildırımtək alovlanıb irəli şığıdı, halalının boynunda qıvrılan ilanın başından tutub var gücüylə dartdı, havada qıvrılan sarı bədheybəti yalın əlləriylə parça-parça elədi. Bu vaxt neçə-neçə ilan gözəllik möcüzəsi Əsmərin üstünə atıldı, biri durna boynuna, biri al yanağına, biri cənnət sinəsinə, biri dik döşlərinə, biri qızılgül göbəyinə, biri şümşad buduna, biri ağ göyərçin topuğuna diş atdı; ilanlar yerbəyerdən onu çalır, gözəlliyini sümürürdülər…

Nə qədər qəribə olsa da, o faciəli, qara-qanlı gündə neçə-neçə ilan öldürməsinə baxmayaraq, Alpana zərər yetirən olmadı. Alpan dünyalar qədər sevdiyi gözəl Əsmərin al qana, sapsarı zəhərə bürünən nəşini qucağına alıb dünya tufanı kimi çalxalanan göz yaşları içində boğula-boğula kəndin güney yamacına çəkildi. Dünyanı söküb sarsıdan, yeri-göyü ağladan göz yaşları girdabında

çırpına-çırpına onu torpağa tapşırdı. Və həmin qara gündən sonra bu bəlalı kəndin heç bir sakini onu bir daha görmədi. Dörd bir tərəfə dağılan, yaxın-uzaq kəndlərdə, şəhərlərdə məskunlaşan İlanlı sakinləri xeyirdə-şərdə bir yerə yığışanda ondan söhbət saldılar, onu soraqladılar, amma Alpanı gördüm, bildim deyən olmadı. Sanki qeybə çəkildi, yerlərin, göylərin dərinliyində, gizlinində yoxa çıxdı Alpan.

Bircə özü, bir də Allahı bilirdi ki, on illər boyu uzaq Sibir meşələrində, taxta-şalban sexlərində işlədi, tək-tənha yaşadı, günlərin bir günü oradakı evini satıb, əməlli pul-parayla vətənə döndü, nəyi vardısa hamısını Bakıdakı Qocalar evinin hesabına keçirib, özü də orada sığınacaq tapdı.

* * *

Qoca hıçqıra-hıçqıra, bütün varlığı sökülə-sökülə, ruhu, bədəni titrəşə-titrəşə ağlayırdı. Nə müddətdi suya həsrət gözləri dolub-daşır, Əsmərin qəfil-qanlı ölümündən sonra xaraba qalan qəlbində, bayquşlar ulaşan duyğularında dərd daşqınları ilan təki baş qaldırır, diş atıb ruhunu çalır, paramparça edirdi. Qonşu otaqlardakı ahıllar, ağbirçəklər, qocalar evinin məsul işçiləri nə illah edirdilərsə, onu ovundura, sakitləşdirə bilmirdilər…

Bir müddət sonra coşub-daşan bulanlıq sellər öz məcrasına çəkildi, qəfildən qiyam qaldıran dərdli duyğular sakitləşdi, yağıb boşalan qapqara göylərdə ağ buludlar gün işığında sayrışdı, ala gözlər işıq-işıq çiçəklədi. Qoca Alpan uçuqlarında bayquşlar ulaşan xaraba qəlbindən başını qaldırıb ətrafına yığışanlara mat-mat baxdı, min bir sual verən tanışlara, qocalara, qarılara heç nə demədən ayağa qalxdı, qapıya tərəf addımladı:

- Mən gedirəm…

Yerbəyerdən soruşdular:

- Hara? Niyə? Nə vaxt?..

- Çağıran var… gedirəm…

Və qoca doxsan doqquz yaşının ağırlığı altında sıxıla-sıxıla, əyilə-əyilə on səkkiz yaşında tərk etdiyi doğma kəndinə üz tutdu...

* * *

Yerlə yeksan olan, təkəmseyrək qaralan uçuq-sökük evlərində bayquşlar ulaşan, böyürtkən, şilgir kollarının, sarı güllü qaratikanların bürüyüb basdığı keçilməz yollarında kədər körüklənən, qəm-qüssə qovrulan İlanlı kəndi dili kəsilən, gözləri oyulan kar, kor, köməksiz küskünə bənzəyirdi. Alpan qoca hıçqıra-hıçqıra, ruhu ağlaşma səslərində boğula-boğula kəndin içindəki kolluqdan, qaratikanlıqdan, vəhşi cəngəllikdən keçir, güney yamacda qazdığı tənha qəbirə tərəf tələsirdi. Qəlbinin xarabalıqlarında ruhu aram tutmur, dil deyib dağlanırdı:

- Gəlirəm, Əsmərim, gəlirəm, ruhumun göyləri. Niyə belə gec çağırdın, nədən belə inadla çağırdın?.. O qara qiyamət günündən, bu kəndi tərk edib getdiyim gündən səksən bir il keçib; bu illərdə heç vaxt yuxuma gəlmədin, heç vaxt məni çağırmadın; səndən sonra nə ailə qurdum, nə bir qıza, qadına baxdım, illərlə bircə yuxunun həsrətini çəkdim, onu da mənə rəva görmədin; indi bəs nə oldu, Əsmərim, niyə çağırdın məni, üç gecə inadla, hikkəylə niyə hayladın, huyladın məni?..

Qəlbinin xarabasında, gözlərinin qan çanağında tələtümə gələn girdablar çəkib aparır, varlığı uçuna-uçuna yamacdakı tənha qəbirin hüzuruna tələsirdi.

Qəbirə çatıb fatihə verdi, salam söylədi. Üstünü yovşanlar bürüyən, yastılanıb torpaqla bir olan qəbirin çat verdiyini qəfildən görüb əyildi; diz çökü b bir dəri, bir sümük olan titrək əllərilə çatı yoxladı; qəbirin üstünü, sinəsini elə bil qılıncla çalmışdılar; üç-dörd barmaq enində, bir metr uzunluğunda dərin, təzə çat idi…

Kölgələr kəndin quzey yamaclarında ilan kimi sürünür, anbaan yuxarı qalxır, dünya qürub çağının toranlığına qərq olurdu. Qəlbinin xarabasında, duyğularının uçuq-söküyündə bayquşlar ulaşan Alpan qoca dünyanı ən ağır söyüşlərlə söyür, lənətləyir, kimin qisasını kimdən almaq istədiyini düz-əməlli bilmədən üstündə dayandığı yeri, altında durduğu göyü təpikləyir, töhmətləyirdi. Dərdin dəlisinə, divanəsinə dönmüşdü, eləcə dəlicəsinə, divanə havasında söyüb söylənirdi…

Qəfil möcüzə gözlərində heyrət dənizinə, duyğularında ildırım çaxışına döndü, ruhu bədənindən dik atılıb baş qaldırdı. Gözəllər gözəli alagöz Əsmərin qəbri üstündəki təzə çat göz görə-görə böyüdü, genişləndi, qara bir quyu, yol-yolam kimi dərinləşdi…

Qoca qışqırmaq istədi, səsi çıxmadı, eləcə qışqırmaq istəyə-istəyə, əlləri əsə-əsə salavat çevirdi, qürub günəşi gözlərinin girdabında boğula-boğula yenidən diz çökdü, əyilib qapı kimi açılan oyuqdan qəbirin içinə baxdı. Üç günün gəlini alagöz Əsmər son günündə geyindiyi al-yaşıl paltarda idi, südəmər ceyran balasını sinəsinə sıxıb məsum bir təbəssüm işığında mışıl-mışıl yatırdı…

Dili tutulmuşdu, heyrət girdabları çalxalanan gözlərinə ilğım təki görünən Əsmərinə baxdı, səssiz-sözsüz ürəyində səslədi:

- Əsmər… Əsmərim…

Və qara-qıvrım saçlı, durna boğazlı, təzə çiçəkləyən yasəmən əndamlı, sinəsindən cənnət ətri gələn alagöz Əsmər dünyanın ən şirin, tanrısal təbəssümüylə gözlərini açıb, sevgi odunda sayrışan sehrli baxışlarıyla, titrəyişindən qığılcım qopan yanar dodaqlarıyla pıçıldadı:

- Gəldinmi, Alış?..

- Gəldim, Əsmərim…

- Ot biçinin necə keçdi?

- Yaxşı oldu, biçib qurtardım.

- Şükür allaha, Alpanım…

- Şükür içində olasan, Əsmərim…

- Köynəyini soyun, təzə bulaq suyunda yuyunduracam səni…

Və şəhərdən qalın sırıqlı-gödəkçədə gələn qoca əl atıb üstündəki tək köynəyini soyundu, gəncliyinin dəmir kimi əllərinə, əzələləri şişib ilan təki qıvrılan bədəninə baxa-baxa:

- Gəl, – dedi, – dur gedək, Əsmərim…

Əsmər yüngülcə gərnəşdi, sinəsinə sığınan südəmər ceyranın gözündən öpdü. Dumduru təbəssüm işığında ayağa qalxıb, al-yaşıl paltarına, çiyinlərinə dağılan qara-qonur saçlarına sığal çəkdi, sonra sol əliylə südəmər ceyranı ürəyinə sıxıb sağ əlini Alpana uzatdı, gəlin otağından çıxırmış kimi yüngül yerişlə bayıra çıxdı, ərinin geniş sinəsinə, dəmir kimi möhkəm əzələli bədəninə sığınaraq pıçıldadı:

- Gedək evimizə… – Gözünün ucuyla kəndə, düz evlərinə tərəf baxdı.

- Süfrəmiz gözləyir bizi… Gedək, Əsmərim…

Və yaddaşı yuxulu kənd yollarından, qürub çağının yovşanlı yamaclarından cənnət ətri gəlirdi…

SUSQUN SƏSİN SOYUĞU

Bu qəmli əhvalatı mənə ucqar bir dağ kəndində, qəfildən quruyan cavan şabalıd ağacının yanında danışdılar. Və mən onu ibrət olsun deyə ədəbiyyatın yaddaşına yazmağı özümə borc bildim. Daha doğrusu, günlərlə məni çağıran bu hekayəni yazmaya bilmədim.

Müəllif

Tumurcuqlar ehtiraslı qız döşləri kimi şişib qabarır, köynəyini deşir, dünya yaşıl möcüzənin tilsiminə düşürdü. Yaz qarşısıalınmaz fateh hökmüylə gəlir, gözləri yaşıl gülüşlərə, duyğuları qəfil qəhqəhələrə qərq edə-edə ürəklərdə fatehliyin qələbə köşklərini qürur, zəfər tağlarını ucaldırdı. Yer üzü hələ belə qüdrətli fateh görməmişdi…

Qızın yanaqları duyğularında yanan ocağın alovundan allanmışdı. Dərkolunmaz bir yanğı sinəsində körüklənir, alovlanaraq bütün bədənini bürüyür, ruhunun göylərində şahlıq edirdi.

Cavan şabalıd ağacına söykənmişdi; ağacın təzəcə açan xumar baxışlı yarpaqları ruhunun göylərində ağalıq edən sirri-xuda alovun işığında sayrışır, ana sinəsinə sığınan körpə uşaq əlləri kimi sevinirdi.

Üç addımlıqda başqa, daha böyük şabalıd ağacı da vardı. Cavan ağacı babası əkmişdi, demişdi ki, şabalıd ağacı təklik sevmir, cüt əkilməlidir. Qız niyəsini soruşmuşdu. Babası cavab vermişdi ki, tək, tənha şabalıd ağacı sonsuz olar, ömür boyu qısır qalar, bar-bəhər verməz…

Onda qız hələ uşaq idi, bu cavabın nə olduğunu, nəyə işarə etdiyini düz-doğru anlamamışdı. Qəfildən xatırladığı o cavab sinəsində yanan ocağı daha da alovlandırdı. Kürəyini söykədiyi cavan ağacdan bir addım aralanıb, heyrətlə onun şümal gövdəsinə, sanki kimisə qucaqlamağa açılan budaqlarına, qəribə işıqda gülməkdən qəşş eləyən təzə-tər xumar yarpaqlarına baxdı. Və ona elə gəldi ki, cavan ağac heyrətli baxışlarına sirli bir titrəyişlə cavab verdi.

Qızın duyğularında nagahan nurlu yağışlar yağdı, qəlbinin göylərində əfsunlu qövsü-qüzeh yarandı: Məni duyursanmı, əzizim? Qəlbimin

səsini, ruhumun çırpıntılarını eşidirsənmi? Mənim gözəl şabalıd ağacım, bəyim, şahım, şah palıdım! Sənin yanında qəlbim qızılquş kimi qanadlanır, qanım coşqun dağ çayları kimi qaynayır, gözlərimdə günəş doğur, ulduzlar sayrışır. Sən səhəri gözləyən duyğularımın dan ulduzusan, qəlbimin yurd yeri, ruhumun xaqanısan. Sən… Sən… – Sözlərin qəlbində, ruhunda qaynaşan işıqlı təlatümü tam ifadə edə bilmədiyini, aciz olduğunu görüb susdu, sevgiylə, heyrətlə dolub-daşan bulaq baxışlarıyla bircə bunu təkrar edə bildi: – Mənim gözəl şabalıd ağacım, mənim şahım, şah palıdım…

Kimsə arxadan gözlərini qapadı. Qız qəfildən tutulan ağ göyərçin kimi çırpındı, dəlicəsinə çırpınışla onu tutanın əllərindən sıyrılıb çıxaraq geri qanrıldı, xaricdən gələn oğlanı görüb rahatlandı, amma narazılığını da bildirdi:

- Bir də məni belə qəfildən tutma!

- İstədim ki, məni tanımayacağını… tanıyacağını…

Qız hələ də tələş içində idi, onun sözünü yarıda kəsdi:

- Səni tanımadım… – Əlini cavan şabalıd ağacına uzatdı, – bu ağacı tanıyıram, – qabaq-qarşı silsilə dağları göstərdi, – o dağları da, o dumanı da tanıyıram, səni isə tanımıram!

- Yaxşı, incimə, bu, sadəcə bir zarafat idi, qəlbinə dəydimsə, üzr istəyirəm.

Oğlanın üzrxahlığı qızın xoşuna gəldi, hətta yüngülcə gülümsədi, dodağı qaçdı; dodaqlarında səhərin al qızılgülləri kimi şövqlü şəfəqlər sayrışdı.

Oğlan ürəkləndi:

- Deməli, barışdıq…

- Küsməmişdik ki…

- Sən bu bahar, bu təbiət, bu dağlar kimi gözəlsən, əfsunlusan, sən…

Oğlan bir an susmadan danışır, gözəl-gözəl sözlər deyir, şıdırğı bahar yağışları kimi yağa-yağa qızın qəlbini dilləndirir, ruhunu oyandırır, hələ sevgiylə məskunlaşmayan, xam torpağa bənzər duyğu çöllərini möcüzəli gülüstana döndərirdi…

Yeddi gün əvvəl elə burada, kənddən bir qədər aralıda, meşənin kiçik talasındakı bu iki şabalıd ağacının yanında görüşmüşdülər. Oğlan qonşu kənddən idi, onu görmək üçün məxsusi gəlmişdi bu tərəflərə. İlk görüşdəcə qızın qəlbində sirli bir səda havalanmışdı, haradasa qaranlıq bir hücrədə ilk qığılcımlar qopub, ilk şəfəqlər körüklənmişdi; on yeddi yaşı təzəcə tamam olan qız qarşısıalınmaz, nagahan bir selin ağuşuna düşmüşdü; dalğalarında günəş çırpınan odlu bir sel, dəli bir daşqın idi, ağılın, olar-olmazın bütün bəndini-bərəsini, yolunu-körpüsünü uçurur, qəlbin-qanın axışını, ahəngini dəyişir, ruhu öz məcrasından çıxarıb dəniz-dərya kimi coşdurur, daşdırırdı…

Yeddi il əvvəl evləri gecə yarısı torpaq uçqununun altında qalmış, ata-anası, qardaşları faciəli şəkildə həlak olmuş, özü həmin gün babasıgilə getdiyi üçün sağ qalmışdı…

Həmin gün babası ağ at belində qonşu kənddən qayıdırdı. Evlərinin yanından keçəndə oğlunu hayladı. Səsə gəlini ilə nəvəsi çıxdı. Gəlin yaxınlaşıb salamlaşdı, atın yüyənindən tutub qaynatasını evə dəvət etdi:

- Yəqin yol yorub sizi. Buyurun evə, samovar qaynadım, bir tikə çörək yeyin, dincəlin, sonra gedərsiniz, – dedi.

- Yox, tələsirəm, bunu, – xurcuna qoyduğu şabalıd küçüyünü göstərdi, – əkməliyəm, yoxsa küsər, qayıdar.

On yaşlı nəvəsi maraqlandı:

- Hanı bəs küçük? Hara qayıdacaq?

- Budu ha, – babası xurcundakı köklü ağac küçüyünü çıxarıb göstərdi, – budur küçük, gözümün nuru. – Qoca bu nəvəsini hamısından çox istəyir, ona həmişə belə müraciət edirdi.

- Baba, bu, küçük deyil.

- Bəs nədir, gözümün nuru?

- Bilmirsən? Bu, ağac balasıdır. Südəmər ağac balası…

- Həə, sən lap düzünü dedin. - Gəlinə tərəf baxdı. - Qızım, mənə bir az su ver, ürəyim yanır.

Gəlin yüngül yerişlə evə tələsdi.

Qız lap yaxına gəlib əlini babasına uzatdı.

- Baba, məni də özünlə apar, nənəm üçün darıxmışam. – Ümidsizcəsinə soruşdu. – Apararsan? Bu balaca ağac balasını birlikdə əkərik, sulayarıq, qoymarıq qayıdıb getməyə, cücələrə də dəymərəm, sizi də incitmərəm. Apararsan?

- Niyə aparmıram, sən mənim ən istəkli, gözümün nuru nəvəmsən, – əlini uzatdı, qızın biləyindən tutub qaldırdı, - gəl, otur babanın qucağında, nənən də yaman sevinəcək, elə cücələr də sənin üçün darıxıb.

Gəlin su dolu gümüş qabı gətirib qaynatasına verdi, uşağa qucağını açdı:

- Düş daha, baban yol üstdədir, yorma kişini.

Babası suyu içib qabı qaytardı:

- Dəymə ona, bizə getmək istədi, mən də söz verdim… Həm də bu ağacı əkəndə mənə köməkçi lazım olacaq, gözümün nurundan yaxşı köməkçi haradan tapa bilərəm…

Gəlin daha heç nə demədi, yaxşı yol arzuladı. – Babanı, nənəni incitmə, - dedi, - cücələrlə də işin olmasın.

Və gecə yarısı baş verən həmin faciədən sonra qızcığaz həmişəlik babasıgildə qaldı…

- Nə yaman fikrə getdin? – Kürəncə oğlan baxışlarıyla qızı öpüb oxşaya-oxşaya soruşdu.

- Yeddi il əvvəlin o qara gününü xatırladım, dünən sənə danışmışdım.

- Həə, - oğlan tutuldu, bilmədi nə desin. – Yəqin Allah səni mənim üçün xilas edib. Parisdəki o… – Əliylə ağzını qapadı, pörtdü.

Qız onu eşitmirdi, öz dünyasında idi.

- O hadisədən bir az sonra nənəm vərəmləyib öldü, dözmədi dərindən dərin dərdə. – Gözləri yol çəkdi, baxışları üşüdü. – Həmişə at belində olan igidlər igidi babam elə qocalıb ki…

Oğlan ağır söhbətin yönünü dəyişmək ümidiylə soruşdu:

- Bəs o şabalıd ağacı küçüyü, – göz vurdu, – südəmər ağac balası nə oldu? Onu əkə bildinizmi?

Qız qollu-budaqlı böyük şabalıd ağacının iki-üç addımlığındakı nisbətən cavan ağacı göstərdi:

- Əlbəttə əkdik, elə həmin gün, axşamtərəfi gətirib əkdik.

- Hanı bəs?

- Budur, əməlli-başlı böyüyüb. - Yaxınlaşıb cavan ağacın şümal gövdəsini sığalladı.

- Yəqin ki, bu ağac olmasaydı, indi mən də olmazdım. Bu ağac mənim xilaskarımdır.

- İndi məlum oldu ki, səni niyə həmişə bu iki ağacın yanında tapıram.

- Bu iki şabalıd ağacı mənim tale dostlarımdır, nə dərd-sərim, sirrim, sevincim olsa, onlarla bölüşürəm. Hər ikisi bəhərə düşüb, elə dadlı, ağcamaya şabalıdları olur ki…

Qızın gözəlliyi göz güldürürdü. Aypara qaşları, odlu şabalıdı gözləri, topuğuna qədər uzanan qara-qonur saçları qəlb ovçuşuydu. Təzəcə yarpaqlayan şabalıd ağaclarına elə sevgiylə, elə ümidlə baxırdı ki…

Oğlan tutuldu, qeyri-ixtiyarı dilləndi:

- Gedək mənimlə.

- Hara?

- Fransaya, Parisə…

- Dəli olmusan? Mən qoca babamı, kəndimi, - qoşa şabalıd ağacını göstərdi, - bunları qoyub heç yerə getmərəm, gedə bilmərəm.

- Sənə danışmışam, bilirsən ki, mən Parisdə, universitetdə, sonuncu kursda oxuyuram… Həmişəlik getmirik ki, beş-on günlüyə Fransanı, Parisi sənə göstərmək istəyirəm. Sonra qayıdarıq, burda, lap sizin kənddə toyumuzu edərik. Hə, nə deyirsən, gedəkmi? Sənin aypara qaşların, sehrkar şabalıdı gözlərin, qəlbimi ovlayan şahanə hörüklərin bütün Fransa gözəllərini mat qoyar. Gedəkmi?..

Qızın bahar buludu baxışlarında seyrək çən-çisək göründü.

- Sən mənim razılığımı nə vaxt aldın ki, toydan danışırsan?

- Gözlərin ilk görüşümüzdə "hə" dedi. Sözün ən düzünü gözlər deyər.

- Bəzən gözlərim özümü də aldadır…

- Gözlər qəlbin qapısıdır, mən o qapıdan keçmişəm…

- Özünə çox da güvənmə, – qız şaqqanaq çəkib güldü, – sən hələ mənim ağ atlı babamı tanımırsan, – dedi və hürkək ceyran kimi qaçıb bir anda yaşıllıqlar arasında gözdən itdi.

Oğlan onu saxlamaq üçün bircə söz deməyə macal tapmadı. Gözlərində gizli bir buz parçası vardı. Qız sevgi işığında, məhəbbət odunda baxdığı üçün o sirli buzu görə bilmirdi. Doğrudan da, məhəbbətin gözü kor olurmuş…

O, yalan demirdi, həqiqətən Fransada, Parisdə ali təhsil alırdı, məşhur universitetin sonuncu kurs tələbəsiydi. Onunla birlikdə təhsil alan milyarder qızı ağır xəstəliyə mübtəla olmuşdu, son günlərini yaşayırdı və çox nüfuzlu həkimlər dəfələrlə müayinə edərək bu qərara gəlmişdilər ki…

Oğlan gerisini düşünə bilmədi, qəhərləndi, gözləri yaşda boğuldu. Eləcə düşüncələrinin qəfil qabaran girdabında boğula-boğula şabalıd ağaclarına baxdı.

Şabalıd ağaclarının bir qədər əvvəlki təzə-tər şuxluğundan əsər-əlamət qalmamışdı. Min ilin dərd heykəlinə oxşayırdı ağaclar…

İçində kimsə qəfildən qışqırdı, – sən alçaqsan, – dedi, – sən alçaqların ən böyüyüsən! Dünyanın ən böyük universitetlərini bitirsən də, ən nüfuzlu diplomlarını alsan da, sən adam olan deyilsən! Bu bədbəxt qızı hansı gedərgəlməz yollara çəkirsən, niyə, nəyin naminə?! Pul, var-dövlət, karyera! Tfu sənin!..

* * *

Hündür daş hasarların dövrələdiyi geniş yaşıllıqlar qoynunda ucalan dəbdəbəli bir malikanə idi. Tələbə yoldaşları xəstə qıza baş çəkməyə gəlmişdilər. Xəstəni çox yormaq olmazdı.

Milyarder qızı Marianna budağından qophaqopda olan payız yarpağı kimi solğun, üzgün idi. Üç aydır ki, dərsə gəlmirdi, müalicə olunurdu. Bu üç ayda büsbütün dəyişmiş, iri, ala gözləri işığını itirə-itirə qara çuxura düşmüş, gülüşə həsrət üzündə, həyat ağacı quruyan bütün varlığında dərd yuva qurmuşdu, ölüm pusquda dayanmışdı…

Tələbə yoldaşları sağollaşıb getdilər. Bircə Mariannanın xahişi ilə Qafqazdan olan oğlan qaldı. Milyarder qızı ilk görüşdən bu kürən, sarıgöz, hündürboylu əcnəbi oğlana vurulmuşdu, atasının qəti etirazına, cangüdənlərinin ciddi səylərinə baxmayaraq, onunla görüşür, vaxt keçirirdi. Beləcə tələbəlik illəri bir göz qırpımında ötüb keçdi, son kursa gəlib çatdılar. Və amansız xəstəlik qaranlıq tufanlı gecənin ac yalquzağı kimi Mariannanın qəsdinə durdu…

On dəqiqəlik görüş xəstə qızı tamam yormuşdu. Həkimlərin, tibb bacılarının köməyi ilə yatağa uzandı. Və uzun-uzadı sevdiyi qafqazlı oğlanın gözlərinə baxdı. Atası aylar, illər qədər uzun sürən bu biçarə baxışlara tab gətirə bilməyib oğlanın qoluna girdi, onu otaqdan bayıra çıxararaq, bağa dəvət etdi. Yaşıl ağacların arasındakı mərmər yolda gəzə-gəzə dedi ki, qızım xəstədir, ölüm ayağındadır. Dedi ki, həkimlər onun ürəyinin, qara ciyərinin, böyrəklərinin, qanının, hətta iliklərinin dəyişdirilməsini, uyğun donor tapılmasını, yalnız bu yolla yaşaya biləcəyini bildirirlər. Dedi ki, buna görə on yeddi-on səkkiz yaşlı, büsbütün dağ meşələriylə əhatələnən kənddə doğulub böyüyən sağlam bədənli, saf ruhlu, bakirə bir qız lazımdır… Donor…

Oğlan düşünüb-daşınmadan sözgəlişi dilləndi:

- Bizdə belə meşəli dağ kəndləri çoxdur, belə qızlar da…

Milyarder ayaq saxladı, siqarına dərin qullab vuraraq kürən oğlanın sarı-sarımsağı gözlərinə baxdı:

- Əgər elə bir qız tapıb bura, Parisə gətirə bilsən, əgər yeganə övladımın, xəstə qızımın xilaskarı ola bilsən, toyunuzu burda, bu malikanədə özüm edərəm, qızımla birlikdə milyardlarıma sahib, mənə varis olarsan…

Oğlanın damarlarından odlu axınlar keçdi, xırda, sarı-sarımsağı gözlərində iblisanə qəhqəhələr tumurcuqladı, balaca şeytanlar imənlədi.

Milyarder siqarın burum-burum tüstüsünü əliylə qovaraq oğlanın gözlərindəki sarı səhralara baxdı, qəfləti alışan şeytan parıltısına, iblis alovlarına fikir verdi və qəlbinin dərinliklərində əmin oldu ki, bu iş baş tutacaq.

- Sizin tərəflər planetin ən saf, sağlam yerlərindəndir. Havası da, ağacları da, adamları da… - Milyarder çox uzatmağa lüzum görməyib mətləb üstünə gəldi. - Bütün xərclər mənim boynuma, istəsən, əgər lazım olsa, bir yaxşı cangüdən də qoşaram sənə, - qoltuq cibindən açılmamış təzə beş yüzlük avro dürgəsi çıxararaq oğlana uzatdı, - bu, yalnız yol, başqa xırda-para məsrəflərin xərcidir, tapacağın qızın özünü, ailəsini pulla, bahalı hədiyyələrlə ələ ala bilərsən, ehtiyac olsa, zəng edərsən, yenə göndərərəm; qayıt Vətəninə, nə yolla olursa-olsun, beş-on günə elə bir qızı tapıb gətir bura… Sən mənim varisim, dünyanın ən varlı, ən xoşbəxt kürəkəni olarsan…

Və kürənçə sarıgöz şeytani qəhqəhələrin deyilməz-bilinməz sarıca girdabında təzə avro dürgəsini alı pencəyinin qoltuq cibinə, ürəyinin başına qoydu…

* * *

İlk dəfə Vətənə qəlbindəki qara alver havasının zülmətində, sarı-sarımsağı gözlərinin iblisanə seylabında qayıtdı. Və tale elə gətirdi ki, Qafqaz dağlarının Xəzərə baxan cənub yamaclarında, ucu-bucağı görünməyən meşələrin yaşıl dünyasına sığınan ucqar bir kənddə - qonşu yurdda axtardığını tapdı. Şeytan qılığıyla tapdığının qəlbinə, ruhuna hakim kəsildi, hətta onun dünya görmüş qoca babasını da on günlük Fransa səfərinə razı sala bildi… Bundan sonra sənədlər düzəltmək bəhanəsiylə təzə diaqnostika mərkəzində qızı tam müayinədən keçirtdirib tibbi məlumatları Parisə göndərərək müsbət cavab aldı…

Sənədlər lazımi qaydada düzəldilmiş, biletlər alınmışdı. Səhər yola duşəçəkdilər.

Qız qocalıb əldən düşən, ayaq üstə güclə dayanan babasının nigaran, dərd daşqını gözlərinə baxıb üşürgələndi, bir dəri, bir sümük əllərini öpüb oxşadı.

- Hər şey yaxşı olacaq, onca günə qayıdırıq, gözlə məni, baba, gözlə.

- Gözləyəcəyəm səni, gözümün nuru, tez gəl, sənsiz yüz Əzrayıl gələ, heç yerə gedən deyiləm… Sənin xoşbəxtliyin yeganə istəyim, arzumdur, gözümün nuru.

- Çayı təzə dəmləmişəm, sən çayını içincə şabalıd ağacına dəyib gəlirəm. – Qız babasına çay süzərək belə pıçıldadı və bir göz qırpımında qaçıb getdi.

Sonra meşənin kiçik talasındakı qoşa şabalıd ağaclarının yaşıl dünyasında isti yağışlar yağdı. Qız cavan şabalıd ağacına dedi ki, eşit və agah ol, səni sevirəm, mənim bəyim, şahım, şah palıdım; mənə sabahkı səfərimdən bir söz de, bir işarət göstər; əgər uğurlu səfərdirsə, ən uca şah budağından bir yarpaq yetir, əgər uğursuz səfərdirsə, ən aşağı budağından bir yarpaq düşür; sən hər şeyi görürsən, bilirsən, taleyimin bu qəfil yolayrıcında xoş bir xəbər ver, müjdə ver, mənim şabalıdım, bəyim, şahım, şah palıdım…

Hava qəfildən bozardı, cavan şabalıd ağacı göz görəsi titrədi, elə bil meşənin balaca talasındakı otlar, çiçəklər də körpə uşaqlar kimi ağlaşdı, ağlaşma səslərindən dünyanın qulağı tutuldu. Və həmin an cavan şabalıd ağacının ən aşağı budağından bir yarpaq qanlı göyərçin qanadı kimi yerə düşdü. Qız heyrət heykəlinə dönə-dönə, qan çanağı gözləriylə qanlı yaşıl yarpağa baxa-baxa diz çökdü, ağ bulud əllərriylə üzünü qapadı. Həmin anda özünü yetirən oğlan qızın çiyinlərindən tutub ayağı qaldırdı, onu bağrına basaraq isti öpüşlərə qərq etdi… İblisanə mehr-məhəbbətlə bir an əvvəl olanları unutdurdu. Qanlı göyərçin qanadını ayağıyla əzib yox etdi.

Səhərisi gün qız, ömründə ilk dəfə rayondan Bakıya gəldi, Bakıdan Parisə getdi…

İlk günlər Parisin ən görməli, gəzməli yerlərində oldular, ən bahalı restoranlarında çörək yedilər. Arada qız müxtəlif bəhanələrlə davamlı müayinə, bütöv analiz testlərindən keçirildi…

Üç gün sonra gizli klinikada amansız əməliyyata hazırlanan qızın bərəlib hədəqəsindən çıxan qara-qonur, şabalıdı gözlərində yerlərin daşı-torpağı da hönkürdü, göylərin mələkləri də zülüm-zülüm ağladı…

* * *

Marianna üç ayın tamamında fiziki cəhətdən tam bərpa olundu. Kürən, sarıgöz, ucaboy oğlanla ailə həyatı qurmağa, dəbdəbəli toy etməyə hazırlaşdılar. Və toya üç gün qalmış oğlan təzəcə aldığı bahalı avtomobildə qəfil qəzaya düşərək dünyasını dəyişdi.

Milyarderin qızı bir neçə gün ağladı, atasını acı-acı qınadı ki, sevgilimi, mənim xilaskarımı sən öldürdün, bizi xoşbəxt olmağa qoymadın. Günlər, həftələr keçdikcə sakitləşdi, amma qanındakı anlaşılmaz göynəmdən, ruhundakı sarsıdıcı üşüntüdən xilas ola bilmədi. Ona elə gəlirdi ki, nə vaxtsa, haradasa gördüyü yamyaşıl, cavan bir ağac çağırır onu. Gözümün nuru deyə-deyə gözlərinin nurunu itirən tənha, düşkün, bədbəxt qocaya ürəyinin dərinliklərində kömək etmək istəyir, lakin heç nə edə bilmirdi. Bu qəribə, sirli duyğular əzab verir, onu əvvəlki deyən-gülən, bəxtəvər Marianna olmağa qoymurdu. Hərdən hündür daş hasarların dövrələdiyi geniş yaşıllığı gəzir, növbənöv ağaclara diqqətlə baxırdı. Lakin onu çağıran həmin cavan, yamyaşıl ağac burada yox idi. Marianna bilmirdi ki, Qafqaz dağlarının Xəzərə baxan cənub yamaclarında, zümrüd meşənin kiçik çəmənlik - talasında dərddən çərləyən, ayaq üstə quruyan, ölən həmin cavan şabalıd ağacı bir də heç vaxt yaşıl-yaşıl gülməyəcək. Və tək-tənha qalan qollu-budaqlı o biri şabalıd ağacı bir də heç vaxt bar-bəhər verməyəcək. Bir də qəlbin-qanın görünməz göylərində yaralı durna qatarı kimi çırpınan, əzəli yurd yerinə can atan sirri-xuda susqun səsin soyuğu vardı: Mənim sevgim, şabalıdım, bəyim, şahım, şah palıdım…

QUZEY QARININ QARISI

Allah sənə rəhmət eləsin,
Mirzə Cəlil!
Müəllif

Bulud qara mürəkkəb kimi göyün üzünə dağılmışdı və göylərdən gələn işığın qabağını elə kəsmişdi ki, baxanlar ilk anda günəşin sındığını zənn edib heyrətlənirdilər. Həm sınıqlığı görünən günəş parlayır, həm şıdırğı yağışlar yağırdı. Adətən belə hallarda səmada qövsi-qüzeh yaranır, amma Londonun göylərində qövsi-qüzeh yox idi…

Şəhərin ucqar mühacirlər məhəlləsində yağış döydükcə dümağ saçları bulud kimi dağılan qərib qarı göyə baxıb yerə tüpürürdü, deyinə-deyinə avtobus gözləyirdi: Göyləri də özlərinə oxşayır; hanı bunun nənə qurşağı, ruh oynadan qövsi-qüzehi? Bu günəş Qalada çıxaydı, bu nurlu yağış o dağlarda yağaydı, qövsi-qüzehin min bir möcüzəsi bütün bağlı qapıları açardı…

Yastıburun uzun avtobus yaxınlaşıb dayandı. Dayanacaqda yeddi-səkkiz adam cərgə ilə sıralanmışdı, hamısı ilk gələn qəribə qarının avtobusa minməsini gözləyirdi. Qarı yaxınlaşıb qapıdan başını içəri uzatdı, qırıq-sökük ingiliscə soruşdu:

- Bu avtobus Qalaya gedir?

- No, nayn, net! – Sürücü şişman qarnını qaşıya-qaşıya əsəbi şəkildə qışqırdı.

Neçə müddətdir ki, bu qarı bu dayanacaqda növbə tutub avtobus gözləyir, eyni sualı sürücülərə verirdi. Artıq bütün sürücülər bu düşkün, xəstə qarını tanıyırdı; bəziləri onun halına acıyır, bəziləri «No, no!» qışqıraraq söyür, ruhi xəstəni küçəyə, yola buraxan oğul-uşağı, bütün mühacirləri qınayır, töhmətləndirirdilər.

Avtobusdan bir neçə adam düşdü, yerdəkilər hərə öz növbəsini gözləyərək sakitcə mindilər. Maşın tərpənərək uzaqlaşdı.

Ala-bula şalvar, qısaqol göy gödəkçə geyinmiş gənc çox diqqətlə baxdığı qəzetdən bir anlığa başını qaldırıb qarını gördü və təəccübləndi:

- Burda nə gəzirsən, ay arvad?

- Qalaya gedən avtobusu gözləyirəm, dərdin alım. – Yağış döydükcə dümağ saçları bulud kimi dağılan qəmli qarı qara giləsi pozulan ağappaq quzey qarı gözləriylə soyuq-soyuq baxdı, üstəlik hələ bir gülümsədi də.

- Ordan necə çıxmısan, bədbəxt?

Qarı eləcə soyuq-soyuq baxa-baxa, ağappaq qüzey qarı gözlərindəki təbəssümə sığına-sığına çiyinlərini çəkdi.

Ala-bula şalvarlı, qolsuz gödəkçəli gənc bir qarıya baxdı, bir əlindəki qəzetə baxdı, - bunu da bayaqdan tapıb bitirə bilmirəm, - deyə mızıldandı, əlini yelləyərək uzaqda görünən tanışını hayladı:

- Ey-hey!.. Sirri-xuda, bir ayaq saxla görüm.

Həmin adam ayaq saxladı:

- Hə, de görək, yenə nə axtarırsan?

- Sən allahın, kömək elə, Londonun mərkəzindən düz buracan avtobusda nə qədər fikirləşmişəm, baş sındırmışam, tapa bilməmişəm…

- Nədir, nəmənə şeydir o axtardığın?

- Bilirsən də, mənim azarım krossvord həll eləməkdir. Mənə nahaq yerə Krossvord Kərəm demirlər ki…

- Onu bilməyən var? Sözüvü de, tələsirəm.

- Dörd hərfli ş ilə başlayan şəhər adı. Əlli şəhər adı fikirləşib tapmışam, heç biri düz gəlmir.

- Ağayi… - Adını yadına sala bilməyib ayamasını dedi. - Ağayi Krossvord, yəqin ki, axtardığın şəhri Şəbüstərdir.

- Sən nə danışırsan, Sirri-xuda, - o da həmsöhbətinin ayamasını təkrar dilə gətirdi, - mənə dörd hərfli şəhər adı lazımdır.

- Məgər sən bilmirsən ki, ərəbcədə sait səslər yazılmaz? Bil və agah ol ki, ərəblər ancaq samit hərfləri yazarlar.

- Yaxşı, elə olsun, Şəbüstərdə beş samit var axı, özü də ərəb şəhəri deyil.

- Dəxi mən onda heç zad bilmirəm, get özün axtar, sənə elə yerində Krossvord deyirlər. Məcmueyi-«Vətən»də yaxşı krossvordlar çap etmişik, birini bir ilə həll eləyə bilməzsən.

- Sənə də çox haqqına Sirri-xuda deyirlər, ey Əliqulu Vəliquluzadə. – Açıq-aydın rişxəndlə dedi və lomba ilə yerə tüpürərək əlindəki qəzeti yellədə-yellədə uzaqlaşdı. – Anası küçələrdə qalan dəyyus kopoyoğlu…

Qəliz danışdığı, yerli-yersiz ərəb-fars tərkiblərini bəlağətlə dediyi üçün bütün məhlə mühacirləri arasında Sirri-xuda ayamasıyla tanınan Məşədi Əliqulu Məşədi Vəliqulu oğlu Vəliquluzadə Krossvord Kərəmin son sözlərini tamam eşitmədi, onun dalınca kinli-kinli baxıb başını bulaya-bulaya pis bir söyüş söydü, dönüb getmək istəyəndə tək-tənha, doğma qarını görüb əməllicə çaşdı, qeyri-ixtiyarı bir-iki addım yaxınlaşıb soruşdu:

- Bura niyə gəlmisən, ay arvad?

Qarı quzey qarı kimi ağaran buz gözləriylə mat-mat baxdı, soyuq-soyuq, sirli-sirli gülümsədi.

- Qalaya gedən avtobusu gözləyirəm… Dedilər, indicə gələcək, dedilər… - Quzey qarı baxışlarında gözqamaşdırıcı bir parıltı oynaşdı.

Əliqulu ruhi xəstə olan anasının onu tanımadığına inanaraq bir qədər rahatlandı, hətta sevindi də, cibindən mobil telefonunu çıxararaq qardaşı Vəliqulunun nömrəsini yığdı və əsəbi şəkildə səsini qaldırdı:

- Sən nə vaxt adam olacaqsan, Vəliqulu?! Bu ay bu arvada baxmaq sənin növbən deyilmi, sən bu bədbəxtin oğlu deyilsənmi?! Madəri-müqəddəsə beləmi baxarlar, ey bədheybəti-bəradər?!

- Axı ne oluyor, Sirri-xuda? Şimdi şunu söyle deyelim…

- Ağayi Vəliqulu Vəliqulusoy, məlumi-şərifiniz olsun ki, dəlixanadan qaçan madəri-müqəddəsiniz indi bu saət avtobus dayanacağında Qalaya gedən avtobusu gözləyir.

Vəliqulu Vəliqulusoyun boğazı qurudu, səsi xırıldadı.

- Efendiciyim, o deli qarı senin de annendi! Ben «Benim annem annelerin annesi» adlı poema yazıyorum. Ben… Sen… Şimdi şunu söyle deyelim… - Bu sözləri tez-tez dediyi üçün ona Şeşeşe Vəliqulu deyirdilər, yəni ayaması «Şimdi şunu söylə» idi.

Əliqulu bomba kimi partladı və yəqin ki, telefonlara qulaq asan gizli idarənin gizli əməkdaşları gizli-gizli diksindilər:

- Ağayi Şeşeşe… Tfü! Yenə sənin-mənim salma! Növbə, növbə deyirəm, ey bəradərim, ey məluni-bişərəf, növbə sənindir! Zəhmət çəkib öz oğulluq növbəni yerinə yetir, qarıdan göz-qulaq ol! Bizi rüsvayi-cahan və zəlili-zəman eləmə! O ki qaldı poemana, mən də «Madəri-müqəddəs» romanımı bitirmişəm, bunun məsələyə nə dəxli-dəlaləti var?!

- Abi, pek iyi…

- Mən pək-mək, iyi-miyi bilmənəm, bu saət otur taksiyə, gəl bura və bu bədbəxti aparıb təhvil ver o xaraba qalmış təcridxanaya. Mənim çox vacib görüşüm, məcmueyi-«Vətən»lə bağlı biznes işim var, mən getdim. – Məşədi Əliqulu Məşədi Vəliqulu oğlu Vəliquluzadə belə deyib telefonunun qırmızı düyməsini basdı, yaxından keçən taksini əl edib saxlatdıraraq, maşının qapısını açıb içəri atılmağıyla qışqırmağı bir oldu. – Sür, mərkəzə, Londonun Fitscerald mehmanxanasının qabağına sür! Mən «Vətən» məcmuəsinin müharriri-müqəddəmi, naşiri-möhtərəmi ağayi Əliqulu Vəliquluzadəyəm!

Şeşeşe Vəliqulu neçə aydır arxasınca süründüyü sarışın bir gözəli, nəhayət ki, görüşə razı salmışdı, Londonun mərkəzində, dəbdəbəli Fitscerald mehmanxanasının çox bahalı lüks nömrəsində həmin xristian xanımla kef məclisi qurmuşdu, yeyib-içir, əylənirdi. Sarışın xanımı öpüb oxşaya-oxşaya başa saldı ki, narahat olmağa dəyməz, o, «Vətən» dərgisinin sahibi, baş yazarıdır, bu məxfi danışıq da biznes söhbətidir, o biri otaqda telefonla danışıb, məsələni qaydaya qoyub bir-iki dəqiqəyə qayıdacaq. Xristian xanım xoşbəxtcəsinə güləgülə onun pələ bığlarını tumarladı və razılığını bildirdi. - Get biznesini qaydaya sal, Velikuşa…

Vəliqulu Vəliqulusoy cəld o biri otağa keçib kiçik qardaşı Pirqulu Vəliquliyevin telefon nömrəsini yığdı, birnəfəsə üyüdüb tökdü:

- Prikaz abiciyim, - Pirqulunun ayaması həmişə amiranə, hökmlə danışdığı üçün Prikaz idi, - şimdi şunu şöyle deyelim, indi ben bir pek iyi biznes toplantısı yapıyorum. Anneciyimiz ordan, dəlixanadan qaçıb, məhəllədəki avtobus dayanacağındadır, tez onu aparıb öz yerinə təhvil ver, sonra hesablaşarıq, ya qonaqlıq, ya pul, nə desən razıyam. - Son sözlərini Osmanlı ləhcəsiylə demədiyi üçün bir qədər təəssüflənən Şeşeşe Vəliqulu susub intizarla Prikaz Pirqulunun nə deyəcəyini gözlədi və nəhayət, kiçik qardaşının amiranə səsini eşitdi:

- Nu, tvoy…

- Yaxşı, söyüş söymə, xahiş edirəm, Prikazcığım, abiciyim, yavrucuğum, kömək elə.

- Prekratite cığım-cuğum, brat, qovori, brat! - Sonra da əlavə etdi. - Zakon yest zakon, seqodnya tvoy smen! Da, ya Prikaz Pirkuli Velikuliyev Velikuliyeviç! Qlavnıy redaktor jurnala «Veten» - «Rodina»!

- Gəl bircə dəfə öz anamızın dilində danışaq, qardaş, görürsən, mən də Osmanlıca danışmıram. - Vəliqulu Vəliqulusoy Prikaz Pirqulu Vəliquluyevi yola gətirmək üçün hər cür fədakarlığa hazır idi, eləcə fədakarlıqla davam etdi, - qoca, dəli anamız orda Qala avtobusunun gəlişini gözləyir, mən burda vacib toplantı yapıyorum, - tez səhfini düzəltdi, təki bu alçağı yola gətirə bilsin, - mən burda vacib toplantı keçirirəm, «Vətən» dərgisi ilə bağlı, qardaş, kömək elə…

- Net, ne moqu, - deyəsən, Prikaz Pirqulu da fədakarlıq etmək istədi, - yox, bacarmaram, mümkün deyil, Allax hakkı…

- Axı niyə?

- Çünki mən bu saat çox uzaqdayam, Londondan azı iki yüz kilometrlik məsafədə, burdakı rus icmasına humanitar yardım kampaniyası keçiririk; bu dəqiqə «Pravda» və «İzvestiya» qəzetlərinə intervyü, - tez də fədakarlıq edərək səhvini düzəltdi, - müsahibə verirəm, həm də «Vətən» jurnalı üçün – baş redaktor olaraq…

Vəliqulu qəzəblə bağırdı:

- Sənin başına dəysin humanitar yardımın, müsahibən, onlar iki yüz ildir, bizim qanımızı içirlər… Deyirəm, dəli anan dəlixanadan qaçıb, deyirəm, mənim vacib toplantım var, deyirəm!..

Prikaz Pirqulu da coşdu:

- Tfu, tvoy mat!.. – Telefonunun qırmızı düyməsini basdı.

Vəliqulu bir müddət key-key ovcunda sıxdığı qızıl çərçivəli, brilyant qaşlı mobil telefona baxdı, qonşu otaqda, yataqda onu gözləyən sarışın afəti düşündü və qəfildən Krossvord Kərəmi xatırladı, ildırım sürətiylə onun telefon nömrəsini yığdı.

- Alo, Krossuşacığım, sənsən?

- Hə, mənəm. Sən kimsən?

- Mənəm də, Vəliqulu.

- Hansı Vəliqulu?

- Vəliqulu Vəliqulu oğlu Vəliqulusoy… - Tanımadığını görüb ayamasını xatırlatdı. - Mənəm də, Şimdi Şunu Şöyle – Şeşeşe Vəliqulu.

- Hə, tanıdım, bəs bu nə danışıqdır. – Heyrətini bildirməyə bilmədi. - Sən ki adam balası kimi söz danışırsan! De görüm, ş ilə başlayan dörd hərfli şəhər, düz yeddi saatdır axtarıram, lap başımı itirmişəm.

- Krossvord, indi o söhbətlərin yeri deyil, görürsən ki, heç mən özüm də özüm kimi danışa bilmirəm. Qeyrət vaxtıdır, qardaş! Bilirsən də «Cənnət anaların ayaqları altındadır»; indi ana müqəddəsliyi xristian ayaqları altında can verir.

- Axı nə olub? O xaraba anamızın anasından təzə xəbərmi var?

- Heç bir xəbər-zad yoxdur!

- Onda bəs?.. Sən allah bir dörd hərfli şəhər adı de, yeddi saatdır baş sındırıram, tapa bilmirəm ki, bilmirəm.

- Krossvord Kərəm, dedim axı, bu söhbətlərin vaxtı deyil, çətin bir işə düşmüşəm, köməyinə ehtiyacım var.

- Çatdatma adamı, de görək, amma əvvəlcə bir dörd hərfli şəhər adı de, bu zibili başa çatdırım, yoxsa dəli olacağam.

- Vay sənin zatuva lənət!.. - Başqa çıxış yolu olmadığını görüb nağd elədi. - Yarımca saata yüz funtsterlinq qazanmaq istəyirsən?

- Əlbəttə, - telefonun o başında qəzetin şappıltıyla stola çırpılmağının səsini açıq-aydın eşitdi, - cəhənnəm olsun bu qəzet də, bu krossvord da, o dörd hərfli şəhər də, sözüvü de! Yüz funtsterlinq üçün neyləməliyəm? Nə vaxt eləməliyəm? Necə eləməliyəm?

- Ay sağ ol, bu, başqa məsələ. Anam dəlixanadan qaçıb, indi bu saat məhəllədəki avtobus dayanacağında Qala avtobusunu gözləyir.

- Hə, beş-on dəqiqə əvvəl mən də onu gördüm, zavallı qarı…

- Krossvord, anamı aparıb o xarabaya təhvil ver, yüz funtsterlinqin məndə, nə vaxt istəsən gəl apar.

Krossvord Kərəm təəccübləndi:

- Axı Sirri-xuda Əliqulu da gördü onu, nə əcəb o özü… Bir də ki, məbləği yüz də artır, bu işdən kriminal iyi gəlir, yoxsa…

Vəliqulu Vəliqulusoy əsəbiliklə onun sözünü kəsdi:

- Bu gün o bədbəxtə baxmaq mənim növbəmdir… İki yüzə də razıyam… - Qeyzləndi. - Sənə nə var, kimin növbəsidir, işini gör, pulunu al! O xarabanı tanıyırsan? Mərkəzi psixi dispanserin təcridxanasını deyirəm…

- Hə, əlbəttə, tanıyıram. Bura bax, əgər məni aldatsan, o pulu verməsən, dünyanı dağıdaram, səni, sən Şeşeşe Vəliqulunu topa qoyub ataram! O yevi də, soyu da, zadəni də – üçünüzü də…

- Yaxşı da, Krossvord, arxayın ol, məni tanımırsan? İndi vacib, çox vacib biznes toplantısındayam, sahibi və baş yazarı olduğum «Vətən» dərgisiylə bağlı, yoxsa mən özüm öz anamı öz əllərimlə… Təzə poemamın adı bilirsən, nədir – «Mənim anam anaların anası»…

- Yaxşı, yaxşı, uzatma, yarımca saata arvadı dəlixanaya təhvil verib gəlirəm Fitscerald mehmanxanasının qabağına. Gözlə məni! Gözlə haa!

- Gəl, gözləyirəm səni, gəl, qardaş…

Və yarım saat sonra Krossvord Kərəmin də mindiyi ağappaq dəlixana maşını düz qəmli, nigaran qarının yanında dayandı. Maşından düşən ağxalatlı sarışın oğlanlar bütün varlığı tir-tir titrəyən qəribə qərib qarını zorla çəkib maşının arxa, dəmir çərçivəli kabinəsinə saldılar. Qarı Krossvord Kərəmi sevinc içində maşından düşəndə gördü, qara gilələri pozulan, ağappaq ağaran quzey qarı gözlərini ona zilləyib zarıdı:

- Kərəm… Kalba Kamının nəvəsi Kərəm, eşit, bil, hamıya de ki, mən dəli deyiləm… Məni ora aparmasınlar, mən Qala avtobusunu gözləyirəm… Vallah mən dəli deyiləm; «Vətən» toplusunun işığına yığışıb bir yola gələ bilməyən üç oğul anası mənim taleyim itkindirmi, didərgindirmi, dəlidirmi? Mən öz yurduma getmək istəyirəm… İtkin ruhlar qullanılar, azan çaylar bulanar, balam. Azan çaylar öz yatağına, itkin, didərgin ruhlar öz bədənlərinə qayıtmalıdır, Kalba Kamının nəvəsi Kərəm… Mən Qalaya qayıtmaq istəyirəm!

Ağappaq dəlixana maşını son payız yarpağı kimi saralıb tir-tir titrəyən qərib, qəmli qarının zarıyan səsini də, quzey qarı baxışlarını da götürüb apardı.

Ala-bula şalvarlı Krossvord Kərəm qolsuz, göy gödəkçəsinin qoltuq cibindən çıxartdığı qəzetin krossvord səhifəsini açaraq dərin fikrə daldı və Londonun mərkəzindəki Fitscerald mehmanxanası tərəfə gedəcək avtobusu gözləməyə başladı.

Qara mürəkkəb kimi göyün üzünə dağılan qapqara bulud göylərdən gələn işığın qabağını elə kəsmişdi ki, baxanlar ilk anda günəşin sındığını düşünüb heyrətlənirdilər. Həm sınıqlığı görünən günəş parlayır, həm də şıdırğı, ağ yağışlar yağırdı. Və sınan günəşdən də, şıdırğı ağ yağışlardan da sapsarı son payız yarpağının tir-tir titrəyən, heç kimin eşitmədiyi göynəmli, zarıncı səsi gəlirdi:

- Mən dəli deyiləm, mən öz avtobusumu gözləyirəm… Hərə bir söz deyir, bəs mənim Qala avtobusum nə vaxt gələcək, ay adamlar?..

Və quzey qarının qarısı ümidinin qalasına çəkilib yenə qapını içəridən qıfıllamışdı, avtobus dayanacağına getməkliyinin təzə planlarını fikirləşirdi. İnanırdı ki, bu dəfə Qala avtobusu mütləq gələcək…

Tatyana UVAROVA

(Tatyana İosifovna Uvarova)

Rusiya Yazıçılar İttifaqının üzvü, Yaroslav Smelyakov adına ədəbi mükafatın laureatı (2005), Robert Rojdestvenski adına ədəbi mükafatın diplomantı (2006), Rusiya Dilçilik Akademiyasının üzvü, "Uqreşa" Ədəbi Birliyinin sədridir.

Tatyana İosifovna Qroznıda, zabit ailəsində dünyaya göz açıb. Əvvəlcə valideynləri, sonra isə zabit həyat yoldaşı ilə keçmiş SSRİ-nin müxtəlif yerlərində və Almaniyada yaşayıb. Orta məktəbi Xarkovda (1964), universitetin filologiya fakültəsinin jurnalistika şöbəsini isə Rostovda (1971) bitirib. Təhsilini başa vurandan sonra müxtəlif qəzet və jurnallarda işləyib, orta məktəblərdə dil-ədəbiyyatdan, liseylərdə jurnalistikadan dərs deməklə yanaşı qəzet və radio üçün materiallar hazırlayaraq onlarla əməkdaşlıq edib. 1994-cü ildə Moskva vilayətinin Dzerjinsk şəhərinə köçüb və o vaxtdan ədəbi taleyini burada fəaliyyət göstərən, 2000-ci ildən isə özünün rəhbərlik etdiyi "Uqreşa" Ədəbi Birliyi ilə bağlayıb.

2008-ci ildə Rusiya Yazıçılar İttifaqının Moskva vilayət təşkilatı Tatyana İosifovnanı "Qızıl Yesenin" medalı ilə, Moskva Vilayəti üzrə İctimai Mükafatlar Komitəsi isə 2-ci dərəcəli "Dahi Yekatrina" ordeni ilə təltif edib.

Tatyana Uvarovanın indiyə kimi "Gecəyarısının akkordları"(1990), "Rusiya üçün dualar"(1996), "Payız yarpaqları"(1998), "Qış ərəfəsi"(2004) və "Sevgiyə son söz"(2008) adlı beş şeir kitabı nəşr edilib.

Где мои годы?
Мне снова шестнадцать!

Где мои годы? Мне снова шестнадцать!
Или ты, зеркало, врёшь?
Кто там богиней посмел отражаться,
Сдерживать юную дрожь?

Чья это Муза влетела в оконце,
Шалая, как сорванец?
За день такая испишет до донца
Ручку - и делу конец.

Носиком римским уткнётся в подушку
Плакать о чем-то пустом.
Будет гулить, как дитя с погремушкой.
Сладко мурлыкать котом.

Звонко в серванте прозванивать рюмки,
В трубы на кухне дудеть.
Станет внушать мне греховные думки,
Песни любовные петь.

И не хочу я противиться чуду,
Радужный сон прерывать.
Вновь мне шестнадцать, зачем же я буду
Музу свою предавать!

YENƏ ON ALTI YAŞDAYAM

On altı yaşımmı qayıdıb geri,
Ya məni aynalar aldadır belə?...
Yoxsa bu aynadan mələk misallı
Dəcəl gəncliyimdir boylanır belə?...

Qonub pəncərəmə gəl-gəl eyləyən
İlham pərisidi kimin, görəsən?
Bu təbə qələmmi çatdırmaq olar?-
Bir günə bir qəlbi sümürər, desən…

Gah "fındıq" burnunu balınca sürtüb,
Durduğu yerdəcə ağlayır, baxır...
Gah körpə uşaqdı – oyuncaq güdür,
Gah da pişik kimi oyundan çıxır.

Servantda badələr şaqqıldaşır – şakk…
Mətbəxin borusu uğuldayır hey…
Günah eləməyə hazırlaşıram,-
Bir sevgi nəğməsi… Və bitdi hər şey.

İnanmağım gəlir möcüzələrə,-
Göy qurşağı doğur yuxumda hərdən.
…On altı yaşında ilham pərimə
Niyə də xəyanət etməliyəm mən?!

Иду уже дорогою обратной...

Иду уже дорогою обратной,
Но так и не доделаны дела.
И ближний всё по-прежнему мне брат, но
Восторженность любовная прошла.

А ярмарка ликует за спиною:
И музыка, и клоуны, и торг.
Всё тише, глуше, будто за стеною
Остался вожделенный сладкий торт.

Погашен лес из именинных свечек.
И месяц режет сумрак на куски.
Медлительных немолодых овечек
Не любят волки, полные тоски.

Не густо в сумке крупных ассигнаций,
Хоть славой медной бредит кошелёк.
Чего я жду?! Людьми забыт Гораций,
Который горы мудрости изрёк!

TA GERİ GEDƏN ÇAĞIMDI…

Ta geri gedən çağımdır,
Öndə yarımçıq işlər.
Son pənahım doğmalardı,
Bitdi havalı eşqlər.

Sərgilənir xəyalımda
Ərköyün ad günlərim…
Dünyam sükuta qərq olur,
Dinməyə yox təhərim.

Ad günümdü… Tort bənzəyir
Od vurulmuş meşəyə.
Sönür şamlar, qaranlığı
Ay keçirir tişəyə.

Nə ruhumda o təravət,
Nə cismimdə o can var.
Əldən düşmüş şikarları
Xoşlamır canavarlar.

Al-qumaşlar olan yerdə
Kimdi baxan bezinə?
Çox da ki hərdən öyülür
Üstü zərli xəzinə.

Daha nədi gözlədiyim
Əfsanəvi çağlardan?!
Nağıl bitdi… enim daha
Güvəndiyim dağlardan.

Сотни женщин в тебя влюблены...

Сотни женщин в тебя влюблены.
Ты устал от своей красоты.
Из серебряных нитей луны
Ткёшь свое одиночество ты.

Мне соперниц своих не унять.
Я устала в доспехах ходить.
Эту наглую пёструю рать
Никогда мне одной не разбить.

Ускользает последняя ночь.
Серебристая тянется нить.
Нам друг другу уже не помочь.
Нам друг друга уже не забыть.

На рассвете уйду навсегда.
Улечу от тебя далеко.
Слава Богу, еще молода.
Заживу и светло, и легко.

…Укатились года с вышины.
И печали своей не тая,
Из серебряных нитей луны
Тку своё одиночество я.

YÜZLƏRLƏ QIZ-QADIN VURULDU SƏNƏ…

Yüzlərlə qız-qadın vuruldu sənə,
Axır gözəlliyin özünü yordu.
Gecələrdə Ayın saçaqlarından
Özünə yalqızlıq yuvası qurdun.

Hər gün savaşdayam bu "günü"lərlə,
Zirehli köynəkdə keçir günlərim.
Bu irsiz, bəzəkli qoşunu, neynim,
Qırıb-çatmağa da yetmir hünərim.

Bu da son gecəmiz… Sübhə az qalır,
Üfüqdən boylanır artıq dan üzü.
Biz nə bir-birinə qovuşa billik,
Nə unuda billik bir-birimizi.

Səhər açılınca, dostum, ömürlük
Səndən uzaqlara uçub gedəcəm.
Rahat yaşayacam, şən yaşayacam,
Şükür Yaradana, hələ ki gəncəm.

…Yıxıldı zirvədən ömrün illəri,-
Qəm, kədər qoynunda özümü yordum.
Gecələrdə Ayın saçaqlarından
Özümə yalqızlıq yuvası qurdum.

Страстный сад

Как черт от ладана бежит,
Бегу я от любви.
Душа от ужаса дрожит.
Нет, друг мой, не зови.

В тот сад, где яблоки растут
Роскошные, как грудь.
Все женщины греховны тут
В зрачках их изумруд

Пылает страстью. И пожар
Сжигает все мосты.
И раскаленный солнца шар
Ложится на персты.

Не удержать. Не унести,
А только падать ниц.
И душ погибших не спасти –
Сожженных мертвых птиц.

Я в том саду уже была.
Кусала локоток.
Я в том саду уже пила
Любовный кипяток.

Там крылья я свои сожгла.
Заучен злой урок.
И еле душу унесла.
Спасибо, Бог помог

EHTİRAS BAĞI

Cin sancaqdan qaçan kimi
Qaçıram mən sevgidən.
Dəhşətdən bağrım yarılır,
Dostum, məni səsləmə.

Qız qoynunda nar kimidi
O bağdakı almalar.
Zümrüdbəbək bir suçludu
Orda nə ki qadın var.

Orda körpülər kül olur
Ehtiras alovunda.
Göydə günəş qəlpələnir,
Yerə səpilir sonda.

Saxladı yox, apardı yox -
Çarə təslimçilikdi.
Yandırılmış quş misallı
Qəlblər çilik-çilikdi.

Mən o bağda olub, qəfil
Barmağımı dişlədim.
Mən o bağda yana-yana
Eşqin şərbətin içdim.

Orda yandı qanadlarım,-
Və öz dərsimi aldım.
Yenə Allah kömək oldu,
Ruhu salamat qaldım.

Тебя носит судьба по морям по волнам...

Тебя носит судьба по морям по волнам.
Не забыла тебя, но не встретиться нам.
Губ твоих абрикос кто целует взасос
И касается грудью душистых волос?
Мне твоя красота, как награда была.
А моя красота – в твоё сердце стрела.
Семя нашей любви расцветает вдали.
Нас враждебные ветры навек развели.

Тебя любит вода, а меня мой эфир.
Мне бы звёзд невода, а тебе транспортир.
Чертишь путь корабля, ну а я – наобум.
Мы встречались не зря, но развёл гордый ум.
А теперь по над морем туман голубой,
И в мой берег забытый стучится прибой.
Нет, не будем друг другу сквозь время кричать,
Что возможно начать, всё сначала начать.

Ты не ищешь дороги: меня не сыскать.
У меня на пороге тебе не стоять.
Я другому взбиваю подушку ко сну,
А потом почему-то никак не усну.
Ты другой изменяешь с другими, как встарь.
Я бросаю в огонь старый наш календарь.
И горит он, сияет, как дивный цветок.
И уносится пепел на Дальний Восток.

SƏNİ AĞUŞUNA ALIB TALEYİN…

Səni ağuşuna alıb taleyin,
Dənizdən-dənizə üzdürür indi.
Mən səni unuda bilmirəm, ancaq
Bir də görüşmərik – bu da yəqindi.
İndi hansı xanım bal dodağından
Əmib xumarlanır, xəbərim yoxdur.
Sənin gözəlliyin mənə mükafat,
Mənim gözəlliyim qəlbinə oxdur.
Bizdən uzaqlarda cücərməkdədir
Bizim məhəbbətin toxumu indi.
Ayrılıq yelləri əsdi haradan?-
Bizim sevdamıza qənim kəsildi.

Dənizlər, dalğalar sevdilər səni,
Mənə də vuruldu sonsuz fəzalar.
Mənim ulduzlardı indi həmdəmim,
Sənin bucaqölçən, karandaş, pərgar.
Dəryada gəminə yol arayırsan,
Dolaşır yörəndə çaşqın xəyalım.
Özü görüşdürdü bizi yaradan,
Bizi qururumuz ayırdı, zalım.
Sənin dənizinə duman çökəli
Mənim sahillərim tətatümdədir.
İçimi bir haray didib-dağıdır -
Hər şeyi yenidən başlayaq, nədir?!

Nə sən çalışırsan məni tapmağa,
Nə mənim astanam səni gözləyir.
Əlim sığallayır yad balıncını,
Amma gözlərimdə yuxu nə gəzir?!
Məni dəyişirsən bilirəm yenə
Özgə qadınlara, yad xanımlara.
Sən elə əvvəl də belə edərdin,
Vaxt gələr bu növbə çatar onlara.
Köhnə təqvimləri atıram oda,
Alışır sehirli çiçəklər kimi.
Həmin çiçəklərin külüdü, zalım,
Enir Uzaq Şərqə gümüş zər kimi.

Rus dilindən tərcümə edən:
İbrahim İLYASLI

Əbülfət MƏDƏTOĞLU

* * *

öncə yüksəklik
sonra
bu yüksəklik qədər
eniş –
haldan-hala
saldı məni...
özündən
uzaqlaşma
və zorən
özünə dönüş
bir əliylə
bağışlayıb
bir əliylə
aldı məni –
qan təzyiqinin
əlindən...
və onda
anladım ki,
insan
həmişə
bir
iynə ucu
məsafədə
dayanır
ölümdən!

* * *

Ən ağır daş, ağır yük
Həmişə mənə düşüb.
Uzaq, yaxın yollarım
Dumana, çənə düşüb.

Əsən küləklər belə
Sığal çəkməyib telə.
Ömrü vermişəm yelə -
Ürəyim sənə düşüb...

Aradakı sədd – divar
Hər istəyin səddi var!
Dərdimin də qəddi var –
Üz tutmaq mənə düşüb!

* * *

Dan üzünün adamıyam,
Açım səhərin qapısın!
Silib kirpiyimin şehin –
Çırpım qəhərin qapısın!

Ulduzlar köçün çəkməmiş
Soyunum gecə dəstimi...
Ayın gözlərindən öpüm –
Duymadan kimsə qəsdimi...

Ləpələrin qırışından
Misralayıb fikir biçim!
Dan üzünün adamıyam –
Süz ver, bir az işıq içim!

* * *

Qəlbimi sevib alan
Bir də qaytarmaz geri...
Mən kiməsə yazmaram –
Sənə yazdığım şeiri...

Bir qəribə təzaddı,
Artırdı, gah azaltdı...
Biri mənə naz satdı,
Biri durduğu yeri...

İlk öpüşün balını,
O günümün halını,
Canlandır xəyalımı –
Düşünmədən alveri...

* * *

Bir qarışqa yerişiylə
Gedirəm özümə tərəf...
Bir işıq qırılıb düşüb –
Görürəm sözümə tərəf!

O qız özünü unudub,
Bilməyib, tüstümü udub!
İndi də əllərin tutub –
İsidir, gözümə tərəf!

Umduğum düşməz - almadı
Selbə də onu salmadı...
Sel yuyub – körpü qalmadı –
Keçməyə dözümə tərəf!

* * *

Başını qaldırıb bax
O divardakı şəklə...
O şəklin gözlərindən –
Bəlkə kədər çəkilə!

Bir xatirə quş kimi
Uçub gələ uzaqdan...
Qurtara bu şəkli də –
Təbəssümün sazaqdan!

Unudaraq özünü
Sarılasan bu şəklə...
Divar üçün bax belə -
Bir şəkil də çəkilə!..

* * *

Hər sözündə yüz tikan,
Ürək xəlbir kimidi.
Əyri tikan, düz tikan –
Vallah, əlbir kimidi!

Xoş ovqata tərs şillə
Sus! – deməyin sim-simi...
Sənin əlində güllə -
Çaxdın, dəldi içimi!

Həyatın bir anın da
İndi dərstək oxudum...
Onu müəllim keçəndə -
Mən sinifdə yox idim!

QUŞLARIN DİLİ

Elmar Vüqarlının təqdimatında

Rene GENON -
Əbdül Vahid Yəhya

Müxtəlif mədəniyyətlərdə tez-tez «quşların dili» adlandırılan sirli dildən danışılır. Şübhəsiz ki, dil bilgisi ilə əlaqəli simvolik olan bu ifadə hərfi yozumda müstəsna qabiliyyətin göstəricisi kimi mənalandırılır. Misal üçün, «Quran»da deyilir: (XXVII,15)", ""Biz Davuda və Süleymana elm – insanlar arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxarmaq, quşların dilini *(`ullimnā mantiq at-tayr)* bilmək və i. a. verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!"" Bir başqa yerdə, daha dəqiq söyləsək, skandinav əfsanəsində qəhrəman Siqfridin quşların dilini bildiyini və bu qabiliyyətinə görə də əjdahaya qalib gəldiyini oxuyuruq. Sualımızı cavablandıracaq simvolizmin mahiyyəti buradan asanlıqla zahir ola bilər. Əjdahanın üzərində qələbənin bilavasitə nəticəsi kimi qəhrəman əbədiyyəti fəth etmiş olur. Burada əbədiyyət üzərində qələbənin çətinliyi hansısa bir obyektlə verilir və həmin obyekt – əjdaha onun, yəni ölməzliyin əlçatanlığını qadağan edir. Mahiyyət etibarı ilə, əbədiyyətin fəthi varlığın ali məqamı ilə kommunikasiyanın əsası qoyulan nöqtədə – ən mərkəzdə bəşəri məqamla yenidən qovuşmanı nəzərdə tutur. Bu əlaqə quşların dilini anlamaqla təmsil olunur və faktiki olaraq da quşlar tez-tez ali varlıqlar olan mələkləri simvolizə edir. Əhəmiyyətli dərəcədə maraqlıdır, belə ki, İncilin «Xardal toxumunun dəni» ibrətli hekayəsində «səma quşlarının» səmadan varlığın hər bir vəziyyət (*vəziyyət* – sözü ilə müəllif mistizmdə başa düşülən məqam, hal sözlərini nəzərdə tutmuşdur - tər. E.V.) mərkəzindən keçib bütün vəziyyətləri bir-biri ilə birləşdirən oxu (2) təmsil edən ağacın (1) budaqlarında yuva qurmağa gəldiklərindən danışılır.

Quran mətnində verilmiş ***əs-səffət*** termini hərfi mənada quşları bildirsə də, simvolik yozumda mələklərə aid edilir və beləliklə, ilk növbədə ilahi və mənəvi ierarxiyaların konstitusiyasını, quruluşunu göstərir (3). İkinci növbədə isə mələklərin iblislərlə mübarizəsini işarələyir. Bu, ali və aşağı məqamlar arasında ilahi qüvvələrin daxili birisinə qarşı dualistik ziddiyyətinin göstəricisidir (4). Hind ənənlərində bu, Devaların Asurasa qarşı savaşından ibarətdir. Həmçinin bizim mövzunun simvolizminə yaxın olan Qarudanın Naqaya qarşı mübarizəsi də bu qəbildəndir, lakin burada yuxarıdakı kimi ilana və ya əjdahaya rast gəlinmir. Qaruda ruhani məqamı qaraleylək, hacıleylək, vağ (Hernon) (5) və s. kimi quşlar, yırtıcı sürünənlər, bir sözlə, düşmənləri tərəfindən zəbt edilmiş qartaldır. Nəhayət, üçüncü anlamda ***əs-səffət*** mələklərin ifadəli və təmtəraqla oxuduqları Quranın deklamasiyası olan ***zikr*** mənasındadır. Ümumiyyətlə, Quranın bəşəri dillə ifadə edildiyini söyləmək lüzumsuzdur, ona görə ki, onun əbədi prototipi Universal Varlığın bütün dərəcələrini başdan-başa özündə ehtiva edib cənnətdən yerə qədər uzanan Yakovun (Yəqubun) Pilləkəni (6) kimi əl-Löhv əl-Məhfuzda yazılmışdır. Hind mədəniyyətində buna oxşar şəkildə deyilir ki, Devalar Asurasa qarşı mübarizələrində özlərini ritm mənası verən çandaları – Veda himnlərini təmtəraqlı şəkildə oxuyaraq qoruyurdular (akandayan). İslam ezoterizmində eyni ideya ***zikr*** sözündə saxlanılır və bu söz hind ***dualarına*** tamamilə uyğun gələn ritmik formula anlamında istifadə edilir. Bu formulanın anbaan avazla təkrarı (zikr) varlığın müxtəlif elementlərini harmoniyalaşdırmaq və vibrasiyanın köməkliyi ilə məqamların və ya vəziyyətlərin bütün ierarxiyası boyu onların ali məqamlarla əlaqə imkanlarını yaratmaq niyyəti daşıyır. Ümumiyyətlə desək, bu bütün ənənələrin esensial və ən qədim məqsədidir.

Esensial və qədim məqsəd bizi birbaşa geriyə, başlanğıcda haqqında söhbət açdığımız, həmçinin «mələklərin dili» adlandırıla bilən «quşların dili»nə qaytarır. Demək, belə çıxır ki, «quşların dili» insan dünyasında ritmik dillə simvollaşdırılır. Ritm elminə əsasən, harmoniya və ritmin müxtəlif tətbiq və istifadə yolları vardır. Lakin faktiki olaraq burada əsas məqsəd bütün mənaların təməlini varlığın ali məqamları ilə əlaqəyə qoşub hərəkətə gətirməkdir. İslam ənənəsində Adəmin dünyəvi cənnətdə olarkən şeirlə, yəni ritmik dillə danışması təsadüfi deyilmir. Müqəddəs kitabların ritmik dillə yazılmasının səbəbi məhz buna görədir. Nəzərdən qaçırılmamalıdır ki, Müqəddəs kitabların özünəməxsus ritmik dili özündə poeziya idi və bugünkü «tənqidçilər»in qeyri-ənənəvi, zərərli rəylərinin əksinə olaraq dünyəvi hisslərlə yazılmış «şeirlər»dən bütövlükdə mahiyyətcə fərqlənir. "Tənqidçilər" yaddan çıxarmamalıdılar ki, indi insan nəslinin mənəviyyatca aşağı səviyyəsinə şahidlik edən və onun ayrılmaz bir parçası olan içiboş ədəbiyyat və ya sənət mənəvi degeneratlığın və ya təhrifin nəticəsində meydana çıxmışdır (7). Bunun əksinə isə Səmavi kitablar əsl müqəddəs, dəyişməz, ali və toxunulmaz xarakterə malikdirlər. Oxşar nümunələri uzaq keçmişin klassik-antik qərb poeziyasında da tapmaq olar. Belə ki, qərbin antik poeziyası «Tanrıların dili» adlanır. Bu ifadədə keçən «Tanrılar» sözü bizim yuxarıda mələkləri və ya ali varlıqları təmsil etmək anlamında işlətdiyimiz Devalara (8) uyğun gəlir. Latın dilində şeirlər ***karmina*** adlanır və bu ad ritualların yerinə yetirilməsi ilə əlaqədar işlədilir. Latıncadakı ***karmina*** sözü sanskritcədəki «ritual əməlləri yerinə yetirmək» (9) xüsusunda işlədilən ***karma*** sözü ilə tamamilə eyni mənanı daşıyır. Vaxtilə bu ənənələrdə şairin özü «müqəddəs dil»in tərcümanı, İlahi Sözün üzərindən məna örtüyünü ustalıqla, başa düşülən şəkildə götürən hesab olunurdu. İlahi Söz və ya Kəlam peğəmbərlərə məxsus ilhamın müəyyən dərəcəsini ifadə edirdi. Lakin sonralar təhrif üzündən kəlamlar adi «ilahi»lərdən (10) o tərəfə gedə bilmədi; karminlər isə «ovsun»a çevrilib primitiv magiya səviyyəsinə endirildi. Biz magiya ilə bağlı faktın daha başqa bir illüstrasiyasına diqqəti çəkə bilərik. Hətta deyərdik ki, ənənələr yox olarkən onların geriyə yadigar kimi qoyduqları axırıncı şey cadugərlik olur.

Sonda göstərdiyimiz bir neçə əlamət bu gün «quşların dili»ndən danışan hekayətləri yararsız hesab etməklə ələ saldığını göstərməyə kifayət edir. Nəyisə başa düşməyənlər üçün həmin şeyin adını «mövhumatlar» qoymaq olduqca sadə və asandır. Lakin unudulmamalıdır ki, qədim dövrün sakinləri simvolik dildən istifadə edərkən nəyi nəzərdə tutduqlarını çox yaxşı bilirdilər. Əsl mövhumatın ciddi etimoloji mənasını onun nəyi özündə yaşatmasında axtarmaq lazımdır. O, əlbəttə, «köhnəlmiş və ya ölü qanun»dur. Köhnəliyinə, yaxud da lüzumsuzluğuna rəğmən, belə qanunlar ölümsüz və öz-özlərini mühafizə edəndir.

Günümüzdə onlar az diqqətçəkici olsalar da, heç də ciddi şəkildə əhəmiyyətsiz görünmürlər. Əbədi Ruh naminə yalnız onların özü təhrif edilmiş simvollara, ənənələrə hər zaman təzə həyat nəfəsi verərək özlərinin itirilmiş mənalarını bərpa edə bilərlər.

---

1. Bax: Vedantaya görə İnsan və Onun Yaranması, s. 41, qeyd 1.

2. Orta əsrlərin cənnət simvolikası, birisi ağacın budaqlarında quşları, koğuşunda isə əjdahanı görür (bax: Xristian Simvolizmi, fəsil. IX). «Cənnət quşları» simvolikasının tədqiqatında Charbonneau-Lassay yalnız başı və qanadları göstərilən quş heykəli əsərinin illüstrasiyasını reproduksiya etmişdir. O həmin quşu mələk obrazında təsvir etmişdir.

3. «Sıra», «dərəcə» mənası verən ***əs-səff*** sözü əksər hallarda sufi və təsəvvüf (sufizm) sözlərinin mənşəyi kimi də təklif edilir. Linqvistik nöqteyi-nəzərdən bu söz kökü qəbul olunan olmasa da, bir çox başqa söz köklərinin oxşarı kimi əsl kökün etimoloji izahında yalana bənzəmir. Ümumiyyətlə, bu söz özündə iki məhfumu birləşdirən bir ideyanı daşıyır: «mənəvi ierarxiyalar» ilə varlığın dərəcələri əsasən eynidir.

4. Belə dualistik ziddiyyət varlığın bütün formalarında var. Onlardan biri ali, digəri isə aşağı dərəcələri təmsil edir. Hind mədəniyyətində ali dərəcə satva, aşağı dərəcə tamez adlanır. Məzdəkçilikdə işıq və qaranlığın timsalında simvollaşdırılan belə antoqonizm Hörmüzd ilə Əhrimən obrazlarında təqdim edilir.

5. Bu xüsusda bax: Charbonneau-Lassayın xristianlıqda heyvan simvollarından bəhs edən təqdirəlayiq əsərinə (*Le Bestiaire du Christ)*. Quş ilə ilan arasındakı simvolik ziddiyyətin mənasını ilanın zərərli, quşun isə zərərsiz olmasında axtarmaq lazımdır. Bəzi hallarda ilanın faydalı aspektinin quşla birləşdirildiyinə qədim amerikan mədəniyyətində - Ketzalkohatl fiqurunda rast gəlinir. Meksika miflərində qartal ilə ilanın döyüşündən danışılır. Bu xüsusda İncil mətnində də qeyd var: «Buna görə siz ilan kimi ağıllı, göyərçinlər kimi zərərsiz olun» (St. Matthew (M. Matvey), X, 16).

6. Mətndə verilmiş simvolizmə gəlincə, o, birbaşa "Xristian Simvolizmi" kitabı ilə əlaqədardır. fəs. XIV.

7. Elm və incəsənətin dünyəviləşməsi onu ənənəvi xarakterindən və ali mənalarından məhrum etmişdir. Bu mövzu ətraflı *L'Esotérisme de Dante,* fəs. II, *The Crisis of the Modern World (Müasir Dünyanın Böhranları),* fəs. IV və *The Reign of Quantity and the Signs of the Times (Kəmiyyətin Hakimiyyəti və Dövrün Əlamətləri),* fəs. VIII. əsərlərində müzakirə edilmişdir.

8. Sanskritcədəki «Deva» ilə latıncadakı «Deus» eyni mənalı sözlərdir.

9. «Poeziya» sözü yunan sözu olan ***poiein*** sözündəndir və bu sözün sanskrit kökü ***kri***-ilə eyni kökdəndir, hansı ki, karma sözü də bu kökdəndir. Latın dilində ***kriare (creare)*** sözü də buradan gəlir.

10. ***«Diviner»*** (ilahiyyatçı və s.) sözünün mənşəyi müxtəlif mənalara yozulur. Etimoloji baxımdan ***divinus*** «Tanrıların dilmancı» mənasını verir. Burada «quşların dili» hərfi mənada «Tanrıların dili» kimi başa düşülməlidir. Quşlar Tanrılar ilə insanlar arasında, əslində, elçi rolunu oynayır və mələklərin analoqlarıdır.

Source: ***Studies in Comparative Religion*, Vol. 3, No. 2. (Spring, 1969)**

Qaynaq: ***Müqayisəli Dini Tədqiqatlar*, Cild 3, № 2. (Yaz, 1969)**

YERƏ DÜŞMƏYƏN GÖZ YAŞIM...

Leyla CAMAL

Çox gəzib dolaşıram. Atılan hər bir addımın son ünvanı olur. Fikirlərimsə bu gün pərakəndə idi. Başımı götürüb bir az dolaşmağa çıxdım. Soyuq qış günündə haranı dolaşacağımı yəqin etməmişdim. Daha doğrusu, edə bilməmişdim. Canlı heykəl kimi idim. Heç nə düşünmürdüm. Bu gün sadəcə havadakı çiskinə bulaşmağa çıxmışdım. Ünvansız gəzintimin ortasında möhkəm üşüyüb yarı yolda dayandım. Ətrafıma nəzər saldım. Nə gedəcək bir yer tapdım, nə də geri qayıtmaq istədim. Özümə sual verdim: bəs mən hara gedim?.. Gözlərimi yorulmuş ayaqlarıma dikdim. Gedəcək bir yer tapdım. Bu yer həm mənə bir nəfəs qədər yaxın, həm də dünyanın sonu qədər uzaq olan "mən" dünyam idi. Yol aldım öz "mən" dünyama. Öz dünyama yol almaq üçün nə yeridim, nə qaçdım. Olduğum yerdə dayanıb getməyə başladım. Öz dünyamın qapısında məni bir damla göz yaşı qarşıladı. Bir tək sol gözümdən gələn bir damla yaş məni çox təəccübləndirdi. Yuvasından hiddətlə çıxıb çuxurunda dayandı. Axı mən ağlamıram!.. Əlimi atdım ki, onu silim, çuxurundan sürüşüb yanağımda dayandı. Bu bir damla lap həyatla mübarizə edən insanlara bənzəyirdi. Hava soyuq, damla soyuq, mən soyuq. Üçümüz birlikdə bir nöqtədə dayanıb cansız canlı yaratmışdıq. Bir nöqtə üzərində saatlarla dayansam da, yenə də heç nə düşünmürdüm. Amma səbəb olmadığından deyil. Beynimin yüzlərlə küncü var və düşünmək üçün hər küncdən bir səbəb boylanır. Məhz bu səbəbdəndir ki, düşünə bildiyim yalnız bir şey var indi. İndi mən nəyi düşünüm, beynimdən gələn hansı suala cavab verim? Bir də yanağımda dayanmış bu kövrək damlanı silim, ya silməyim? Yox, silməyim! Onsuz da bu yazığın bir qarış ömrü var. Ömrü bitəndə o saf damla yerə düşəcək və onu neçə-neçə adam ayaqlayacaq, bunu bilmirəm?!. Yox! Mən öz qəlbimin simasını ayaqlar altında tapdanmağa qoymaram. Bəs mən nə edim? Xeyli vaxt keçib. Mən hələ də bir nöqtə ilə savaşa-savaşa dayanmışam. Dərindən nəfəsimi çəkib başımı göyə qaldırdım. Baxanda gördüm ki, buludlar gedir. Mən də buludlara qoşuldum. Onlarla bərabər yol aldım. Buludlar məni yerimdən tərpətdi, mən də yanağımda dayanmış bir damla yaşı. "Bəs mən nə edim?" sualını bir damla özü cavablandırdı. Necə?.. Yanağımdan sürüşüb dodaqlarıma, dodaqlarımdansa qayıdıb gəldiyi yerə, ürəyimə düşdü. Beləcə qaş qaraldı... Mən evə qayıtdım.

SİRLİ XƏSTƏLİK

İnsan xəstəliyidir. İnsanlar formalaşmağa başlayarkən mövcudluğunu bərpa etmişdir. Bir çox insan bu xəstəliyin qurbanı olmuşdur. Çox nadir hallarda, nadir insanlar yoluxmurlar. Buna səbəb bu nadirlərin ürəKsiz olmalarıdır. Yoluxma mənbəyi gözlərdir. Yoluxma zamanı sevgi virusları gözlərdən ürəyə daxil olur və bütün vücudu sarır. Viruslar ürəyin normal fəaliyyətini sıradan çıxarır. Yaş fərqi və qurtuluş yoxdur, lakin, daha qanlı-qadalı dövrünə gənclərdə rast gəlinir. Diaqnozu düşüncələrlə qoyulur. Xəstəliyin əsas şərtləri bunlardır.

İştahsızlıq, halsızlıq, kəskin ürək döyünmələri, depressiya, göz kanalının qeyri-ixtiyari yaş ifrazı, yuxusuzluq, ürək çatışmazlığı v.s... Bu xəstəliyə yoluxma zamanı insan xəstəliyə tab gətirmək üçün ikinci bir ürəyə ehtiyac duyur. Ehtiyac duyduğu ürəyin, yoluxduğu insanın ürəyi olması böyük şərtdir

Ümumilikdə bu xəstəliyin müalicəsini heç bir insan tapa bilməyib, hətta sirrini düşünərkən havalananlar da olub. Xəstəlikdən qaçmaq qeyri-mümkündür, o, insan həyatının tərkib hissəsidir. Onu da qeyd etmək lazımdır ki, virusların insanı harada yaxalayacağını bilmək olmur. Sirli olduğu qədər də məxfi gəlir insan ürəyinə - lakin insanlar əksər hallarda virusa kimdən və necə insanlardan yoluxa biləcəklərini əvvəlcədən yəqin edə bilirlər. Əksər xəstələrdə bəzi dəyişikliklər də olur. Kimisi şair olur, kimisi yazar olur, kimisi də dəhşətli ürək ağrılarına dözməyib şok vəziyyətinə düşərək ağlını itirir v.s. Ən qəribəsi də odur ki, bu qədər ağrılı-acılı olmasına baxmayaraq, bu xəstəlik insan ürəyinin tələbidir. Bu səbəbdən insanlar xəstəlik dövrünün gəlişini səbirsizliklə gözləyirlər. Müalicəsinin bircə üsulu var. Bu bircə üsulun içində edilməsi gərək olan bir neçə şərt var: yoluxduğun mənbəyin yanında olmaq, yoluxduğun bir gündən aramsız olaraq sevgi qəbul etmək, sevmək, sevilmək, mövcud olmuş sevginin haqqında düşünmək, xəyallar kimi ucu-bucağı olmayan dənizə dalmaq. Əks halda sonluq intihar və ruhun ölümü ilə nəticələnə bilər. Xəstəliyin həkimi insan özüdür. Bəzən bəzi sevgi həkimləri xəstəlikdə yanma dövrünün olub, sönmə dövrünün olmadığını iddia edirlər. Mən isə dayanmadan bu xəstəliyin fəlsəfəsini düşünən bir həkim kimi hesab edirəm ki, sönmə dövrü də mövcuddur. İki üsul da sönmə dövründə var.

1. Ürəyin qürurla çarpışıb sınması.

Uzun zaman.

Unutma dövrü isə qətiyyətlə olmur. İnsan bu xəstəlikdən müvəqqəti olaraq yalnız dünyasını dəyişdikdə qurtuluş tapır. Öz düşüncə laboratoriyamda bu xəstəliyi uzun-uzadı və dəfələrlə analiz etdikdən sonra belə nəticəyə gəlmişəm ki, o, heç cür məhv olmur. Çünki bu xəstəlik ruhun xəstəliyidir. Dövr edir, etməkdədir, edəcək...

Bob MARLEY

XX əsrin məşhur Amerika musiqiçisi. Onun aforizmləri dəfələrlə kitab halında çap olunub və böyük uğur qazanıb.

1. Love the life you live and live the life you love. Yaşadığın həyatı sev və sevdiyin həyatı yaşa.

2. Better to die fighting for freedom than be a prisoner all the days of your life. Azadlıq uğrunda vuruşaraq ölmək, həyatının bütün gününü məhbus kimi yaşamaqdan daha yaxşıdır.

3. I don't know how to live good. I only know how to suffer. Mən necə yaxşı yaşamağı bilmirəm, mən ancaq necə əziyyət çəkməyi bilirəm.

4. Truth is everybody is going to hurt you: you just gotta find the ones worth suffering for. Həqiqət odur ki, hər kəs səni üzəcək. Əsas olan üzülməyə dəyər birini tapa bilməkdir.

5. Open your eyes, look within. Are you satisfied with the life you're living? Gözlərinizi açın və ətrafınıza baxın. Yaşadığınız həyatdan razısınızmı?

6. Every man gotta right to decide his own destiny. Hər kəsin öz taleyini müəyyən etmək hüququnun olması gərəkdir.

7. I no have education but I have inspiration. If I was educated, I would be a damn fool. Mənim təhsilim yoxdur, ancaq mənim ilham təbim var. Əgər mən təhsilli olsaydım, lənətlənmiş bir axmaq olacaqdım.

8. I don't stand for the black man's side, I don' t stand for the white man's side. I stand for God's side. Mən nə qara dərililərin, nə də ağ dərililərin tərəfində deyiləm, mən Allahın tərəfindəyəm.

9. Life is one big road with lots of signs. So when you riding through the ruts, don't complicate your mind. Flee from hate, mischief and jealousy. Don't bury your thoughts, put your vision to reality. Wake Up and Live! Həyat çoxlu əlamətləri olan böyük bir yoldur. Bu cığırla gedərkən fikirlərinizi qəlizləşdirməyin. Nifrət, fitnə və qısqanclıqdan qaçın. Düşüncələrinizi basdırmayın, görmə qabiliyyətinizi reallığa yönəldin. Oyanın və yaşayın.

10. Don't gain the world and lose your soul; wisdom is better than silver or gold. Dünyanı qazanıb ruhunuzu itirməyin. Ağıl qızıl və gümüşdən daha yaxşıdır.

11. None but ourselves can free our minds. Özümüzdən başqa heç kim ağlımızı azad edə bilməz.

12. Get up, stand up, Stand up for your rights. Get up, stand up, Don't give up the fight. Qalx ayağa, qalx. Hüquqların üçün ayağa qalx. Qalx ayağa, qalx. Mübarizəni dayandırma.

13. This bright future you can't forget your past. Bu parlaq gələcəkdə siz öz keçmişinizi unuda bilməzsiniz.

14. Emancipate yourselves from mental slavery, none but ourselves can free our minds! Əqli köləliyimizdən özümüzü özümüzdən başqa keç kəs azad edə bilməz.

15. As a man sow, shall he reap and I know that talk is cheap. But the heat of the battle is as sweet as the victory. "İnsan əkdiyini biçər" deyiminin ucuz olduğunu bilirəm. Ancaq döyüşün istiliyi qələbənin şirinliyi kimidir.

16. One good thing about music, when it hits you, you feel no pain. Musiqi haqqında yaxşı bir şey onun sizə toxunan zaman sizin heç bir ağrı hiss etməməyinizdir.

17 . The greatness of a man is not in how much wealth he acquires, but in his integrity and his ability to affect those around him positively. İnsanın böyüklüyü onun nə qədər sərvətə malik olmasında deyil, ətrafındakılara nə dərəcədə müsbət şəkildə təsir etmək bacarığı və düzlüyündədir.

18 . God sent me on earth. He send me to do something, and nobody can stop me. If God want to stop me, then I stop. Man never can. Allah məni yer üzünə nələrsə etmək üçün göndərdi və heç kim məni dayandıra bilməz. Əgər Allah özü məni dayandırmaq istəsə, mən dayanaram. Başqa heç kim bacarmaz.



19. If something can corrupt you, you're corrupted already. Əgər nəsə sizi yolunuzdan çıxara bilirsə, demək, siz artıq yolunuzdan çıxmısınız.

20. When you smoke the herb, it reveals you to yourself. Siz bitki çəkəndə o, sizi özünüzə tanıdır.

21. Everything is political. I will never be a politician or even think political. Me just deal with life and nature. That is the greatest thing to me. Hər şey siyasidir. Mən heç vaxt siyasətçi olub siyasi düşünməyəcəyəm. Mən yalnız həyatdan və təbiətdən bəhs edirəm. Bu, mənim üçün ən böyük şeydir.

22. If you get down and quarrel everyday, you're saying prayers to the devil, I say. Əgər siz hər gün bir az daha geri düşüb mübahisə edirsinizsə, deyərdim ki, siz şeytana dua edirsiz.

23. I am a common sense man. That mean when I explain things, I explain it in a very simple way; that mean if I explain it to a baby, the baby will understand too, you know. Mən sağlam düşüncəli bir insanam. Bu o deməkdir ki, mən nələrisə izah edərkən onlara çox sadə bir şəkildə izah bildirirəm. Bu isə o deməkdir ki, əgər mən bunu uşağa da izah etsəm, o da sizin kimi başa düşəcək.

24. Tell the children the truth. Uşaqlara həqiqəti deyin.

25. I only have one ambition, y'know. I only have one thing I really like to see happen. I like to see mankind live together - black, white, Chinese, everyone - that's all. Bildiyiniz kimi, mənim yalnız bir məqsədim var. Mənim həqiqətən baş verməsini görmək istədiyim bir şey var. Mən bəşəriyyətin birlikdə yaşamağını görmək istəyirəm. Qaralar, ağlar, çinlilər və hər kəs-hamısı.

26. What important is man should live in righteousness, in natural love for mankind. Vacib olan insanın cəmiyyət üçün ədalətli və təbii sevgi ilə yaşamasıdır.

27. Man is a universe within himself. İnsan öz içində bir dünyadır.

28. Money can't buy life. Pul həyatı ala bilməz.

29. You have to be someone. Sən kimsə olmaq məcburiyyətindəsən.

30. My music fights against the system that teaches to live and die. Mənim musiqim yaşamaq və ölmək sisteminə qarşı mübarizə aparır.

My future is righteousness. Mənim gələcəyim dürüstlükdür.

32. Some people feel the rain. Others just get wet. Bəzi insanlar yağışı hiss edir, başqaları isə sadəcə islanır.

33. The biggest coward of a man is to awaken the love of a woman without the intention of loving her. Bir kişinin ən böyük qorxaqlığı bir qadını sevmək niyyəti olmadan onda sevgi oyatmağıdır.

34. You can fool some people some times but you cant fool all the people all the time. Sən bəzi insanları bir neçə dəfə aldada bilərsən, amma bütün insanları həmişə aldada bilməzsən.

35. You can't find the right roads when the streets are paved. Küçələr döşənmiş olduğu zaman sən doğru yolu tapa bilməzsən.

36. The day you stop racing, is the day you win the race. Yarışı dayandırdığın gün yarışı udduğun gündür.

37. Free speech carries with it some freedom to listen. Sərbəst nitq dinlənilmək üçün özlüyündə bir az sərbəstlik daşıyır.

38. The most beautiful curve on a woman's body is her smile. Qadın vücudundakı ən gözəl şey onun gülüşüdür.

39. Hungry mob is an angry mob. Ac izdiham qəzəbli izdiham deməkdir.

40. Until the end of the world,all whys will be answered,but now,you can only ask! Dünyanın sonuna qədər bütün "Nə üçün" lərə cavab veriləcək, ancaq indi sən yalnız soruşa bilərsən.

41. Only a foolish dog barks at a flying bird. Yalnız axmaq it uçan quşa hürər.

42. Look like barbie, Smoke like Marley. Barbi kimi görün, Marley kimi çək.

43. Things will be OK in the end. If it's not OK, it's not the end. Sonda hər şey yaxşı olacaq. Əgər indi yaxşı deyilsə, demək son deyil.

44. The good times of today, are the sad thoughts of tomorrow. Bugünün yaxşı anları sabahın qəmgin düşüncələridir.

45. Herb is the healing of a nation, alcohol is the destruction. Bitki millətin şəfası, alkoqol isə onun məhvidir.

46. Who are you to judge the life I live? I am not perfect and I don't have to be! before you start pointing fingers, make sure your hands are clean. Sən kimsən ki, mənim yaşadığım həyatı mühakimə edirsən! Mən mükəmməl deyiləm və olmaq məcburiyyətində də deyiləm. Barmağın ilə məni işarə etmədən əvvəl, əllərinin təmiz olduğundan əmin ol!

47. The abundance of water a fool is thirsty. Suyun bolluğunda axmaq yenə susuzdur.

48. It is better to live on the roof of the house than to live in a house full of confusion. Qarışıqlıq dolu bir evdə yaşamaqdansa həmin evin damında yaşamaq daha yaxşıdır.

49. Live for yourself and you will live in vain. Live for others and you will live again. Özün üçün yaşa və sən əbəs yerə yaşamış olacaqsan. Başqaları üçün yaşa və sən yenidən yaşamış olacaqsan.

50. Don't trust people whose feelings change with time. Trust people whose feelings remain the same, even when the time changes. Zamanla hissləri dəyişən insanlara inanmayın, zaman dəyişşə belə, hissləri eyni qalan insanlara inanın.

51. You say you love rain, but you use an umbrella to walk under it. You say you love sun, but you seek shade when it is shining. You say you love wind, but when it comes you close your window. So that's why I'm scared when you say you love me. Yağışı sevdiyini deyirsən, amma yağışın altda gəzmək üçün çətir işlədirsən. Günəşi sevdiyini deyirsən, o parlayanda kölgə axtarırsan. Küləyi sevdiyini deyirsən, külək əsincə pəncərəni bağlayırsan. Buna görə də məni sevdiyini deməyindən qorxuram.

Stephen FRU

Böyük Britaniyanın məşhur yazıçısı və komediya aktyoru. "Uayld" filmində yaratdığı Oskar Uayld obrazı aktyora dünya şöhrəti gətirib.

1. Old Professors never die, they just lose their faculties. Yaşlı professorlar heç vaxt ölmürlər, onlar sadəcə öz bacarıqlarını itirirlər.

2. Generally, we admire the thing we are not. Ümumiyyətlə, biz ola bilmədiyimiz şeylərə heyranıq.

3. An original idea. That can't be too hard. The library must be full of them. Orijinal ideya. Bu həddindən artıq çətin ola bilməz. Kitabxana onlarla dolu olmalıdır.

4. If you go looking for loonies and religious fanatics I dare say you'll find it. Əgər siz dəlilər və dini fanatiklər axtarmağa gedirsinizsə, mən cəsarətlə deyirəm ki, siz onları tapacaqsınız.

5. My life, at least, is divided between writing and performing and mixtures of the two. Həyatım yaxşı yazmaq və nümayiş etdirmək, həmçinin onların ikisinin sintezi arasında bölünür.

6. Having a great intellect is no path to being happy. Böyük intellektə sahib olmaq xoşbəxtliyə gedən yol demək deyil.

7. To travel hopefully is better than to arrive. Ümidlə səyahət etmək gəlib çatmaqdan daha yaxşıdır.

8. I'm a bit of a coward, and lazy, oddly enough. Mən bir az qorxaq və tənbəl, kifayət qədər qəribəyəm.

9. My father was all brain and little heart. Atam bütün beyin və kiçik qəlb idi.

10. I don't believe there is a God. If I were to believe in a god, l would believe in gods. Mən düşünmürəm ki, Allah var. Əgər mən Allaha inanmış olsaydım, mən allahlara inanardım.

11. Philosophy is an odd thing. When we use the word in everyday speech, you sometimes hear it hilariously. Fəlsəfə qəribədir. Nə vaxt ki, biz gündəlik nitqimizdə sözü istifadə edirik siz bəzən onu şən eşidirsiniz.

12. **My parents were marvelously educated people.** Valideynlərim inanılmaz dərəcədə təhsilli insanlar olub.

13. I am a lover of truth, a worshipper of freedom. Mən həqiqət aşiqi, azadlıq sitayişçisiyəm.

14. I like to think of myself at home in the armchair, writing, smoking and occasionally wandering down the shop. Mən evdə kresloda oturub yazaraq, siqaret çəkərək, bəzən isə mağazanı dolaşaraq özümü düşünməyi xoşlayıram.

15. Personally, I'd never seen a graphic novel. I knew they existed because friends of mine like Jonathan Ross collect them and some very literate and intelligent people really rate the graphic novel as a form. Şəxsən mən heç vaxt qrafik roman görməmişdim. Amma mən onların mövcud olduğunu bilirdim, çünki Conatan Ros kimi dostlarım onları toplayır, bəzi savadlı və ağıllı insanlar isə həqiqətən qrafik romanı bir forma kimi hesab edirlər**.**

16. I don't watch TV. I think it destroys the art of talking about oneself. Mən televizora baxmıram**.** Düşünürəm ki, o, insanın özü haqqında danışmaq mədəniyyətini məhv edir.

17. There is so much we can learn from TV. It's a window on the world. Bizim televizordan öyrənə biləcəyimiz çox şey var. O, dünya üzrə bir pəncərədir.

18. If ignorance is bliss, why are not there more happy people in the world? Əgər cahillik xoşbəxtlikdirsə, bəs nə üçün dünyada daha çox xoşbəxt insan yoxdur?

19. **The only reason people do not know much is because they do not care much. They are incurious. Incuriosity is the oddest and most foolish failing there is**. İnsanların çox bilməməsinin yeganə səbəbi onların çox maraq göstərməməsindədir. Onlar maraq göstərməyənlərdir. Maraq göstərməmək isə mövcud olan ən qəribə və ən ağılsız şeydir.

20. You can tickle the minds of others, you can seduce the minds of others, but do not try to own the minds of others. Siz başqalarının fikirlərini dəyişə, onları fikirlərindən azdıra bilərsiniz, amma başqalarının fikirlərinə sahiblənməyə cəhd eləməyin.

21. Stop feeling sorry for yourself and you will be happy. Üzülməyi buraxın və siz xoşbəxt olacaqsınız.

22. Education is the sum of what students teach each other between lectures and seminars. Təhsil tələbələrin mühazirə və seminarlar arası bir-birlərinə öyrətdiklərinin cəmidir.

23. People who can change and change again are so much more reliable and happier than those who can't. Təkrar dəyişməyi bacaran insanlar dəyişə bilməyənlərdən daha çox inanılası və daha çox xoşbəxt olanlardır.

24. I'm fat because I'm greedy, and if my mind is fat it's because I'm curious. Mən kökəm, çünki mən acgözəm, əgər mənim düşüncəm də böyükdürsə, demək, bu, mənim hər şeylə maraqlandığıma görədir.

25. A real education takes place, not in the lecture hall or library, but in the rooms of friends, with earnest frolic and happy disputation. Əsl təhsil mühazirə zalında və ya kitabxanada deyil, dostların otağındakı əyləncəli və şən müzakirə ilə qazanılır.

26. We are not nouns, we are verbs. I am not a thing- an actor, a writer-I am a person who does things- I write, I act and I never know what I am going to do next. I think you can be imprisoned if you think of yourself as a noun. Biz isim deyil, feilik. Mən əşya deyiləm-aktyor, yazıçı. Mən yazan, aktyorluq edən və digər bu kimi şeyləri icra edən insanam və heç vaxt növbəti dəfə nələri edəcəyimi bilmirəm. Mən düşünürəm ki, sən özünü isim kimi düşünsən, sən özünü azadlıqdan məhrum edə bilərsən.

27. **If you know someone who's depressed, please resolve never to ask them why. Depression isn't a straightforward response to a bad situation; depression just is, like the weather.** Əgər depressiyada olduğunu bildiyiniz biri varsa, ondan heç vaxt bunun səbəbini soruşmağa qərar verməyin. Depressiya pis bir vəziyyətə sadə cavab deyil, o, sadəcə hava kimi bir şeydir.

28. **It's hard to be a friend to someone who's depressed, but it is one of the kindest, noblest, and best things you will ever do.** Depresiyada olan bir insana dost olmaq çətindir, ancaq bu, sizin edə biləcəyiniz ən mərhəmətli, ən alicənab və ən yaxşı şeylərdən biridir.

29. Sticks and stones may break my bones, but words will always hurt me. Çubuqlar və daşlar sümüklərimi sındıra bilər, ancaq sözlər isə həmişə məni incidəcək.

30. If you are an adult you want something surprising, savoury, sharp, unusual, cosmopolitan, alien, challenging, complex, ambiguous, possibly even slightly disturbing and wrong. Əgər siz yetkin birisinizsə, sizin istədiyiniz şey təəccüblü, dadlı, kəskin, qeyri-adi, kosmopolit, yad, mürəkkəb, şübhəli, hətta bir az narahatedici və yanlış da ola bilər.

31. I am passionate about language, the transmission of ideas, and thinking about things. Mən dil, fikir ötürülməsi və nələrsə haqqında düşünmək mövzusunda hərarətliyəm.

32. I like horses but I'm still going to drive a car. Mən atları xoşlayıram, ancaq hələ də maşın sürməyə hazırlaşıram.

33. At my age, travel broadens the behind. Mənim yaşımda səyahət geridə genişlənməkdədir.

34. You will hear things like, «Science doesn't know everything.» Well, of course science doesn't know everything. But, because science doesn't know everything, it doesn't mean that science knows nothing. Siz "Elm hər şeyi bilmir" kimi sözlər eşidəcəksiniz. Yaxşı, əlbəttə, elm hər şeyi bilmir. Amma bu elmin heç nə bilmədiyi anlamına da gəlmir.

35. Taste every fruit of every tree in the garden at least once. It is an insult to creation not to experience it fully. Temperance is wickedness. Ən azı bir dəfə bağdakı meyvə ağacının meyvəsini dad. Onu tam şəkildə təcrübədən keçirməmək yaradılışa qarşı təhqirdir. Nəfsini saxlaya bilməmək mənəviyyatsızlıqdır.

36. It only takes a room of Americans for the English and Australians to realise how much we have in common. Yalnız amerikalıların ingilis və avstriyalı ilə ortaq yönünün olduğunu dərk etmək məna daşıyır.

37. Many people would no more think of entering journalism than the sewage business - which at least does us all some good. Çox insan çirkab biznesi öyrənməyi bizə bəzi yaxşılıqlar edən jurnalistikanı öyrənməkdən daha üstün tutur.

Çevirəni: **Pəri MİRƏLİYEVA**

Əli ASLANOĞLU

HEYRƏT

Qüdrətinə heyran oldum, İlahi!
Bu gözəli necə seçib yaratdın?
Eşq badəsin sevənlərə vermişdin,
Yoxsa bunu özün içib yaratdın??!!

Harda var belə qaş, belə gözəl göz?
Ürəyi oynadır cazibədar üz.
Acizdi vəsfində hər tərif, hər söz,
Bunu necə ölçüb-bicib yaratdın?!!

Bu qamət, bu bədən , bu işvə, bu naz
Varsa, yer üzündə azdır, azdan az!
Xaliqim, bu xilqət qurbansız olmaz, -
Axı bunu nədən keçib yaratdın?!...

GƏLMİR

Xoş taleyim məndən uzaq düşübdü,
Haylayıb çağırram, yaxına gəlmir.
Zəmanədən üz döndərib, küsübdü,
Dünyanın axdığı axına gəlmir.

Ömür yolum keçib dağdan, dərədən,
Hikmət sordum, bir söz aldım hərədən.
Yüz çeyran keçsə də bənddən-bərədən,
Tək biri bəxtimin oxuna gəlmir!

Bu dünyada çox bəladan sovuşdum,
Axır qismət- tənhalığa qovuşdum.
Bir üzüdönükdən dünən soruşdum:
Ay zalım, o günlər yuxuna gəlmir?

Dedi: tərk etməyib səni cəhalət,
Göylərdən diləyi etmisən adət.
Ağıl, dövlət. sağ can, bir də səadət
Hamısı bir yerdə çoxuna gəlmir!

GÖRÜŞ

Əbədi yer tutsa da xəyalda,
bur anlıq baş verdi realda
bu görüş.
Ruhumu ovsunladı,
varlığımı cazibəsində tutdu..
Bir anda beynim
hər şeyi unutdu!
Baxışım
bənövşə boynutək yerə dikildi,
şair ruhum da birdən- birə
ismət çuxasına büküldü.
Çatmadı cəsarəti
doyunca baxsın üzünə!
Bu mələksimanı əvəzləyən olmazdı,
baxsaydı hər gün onuna, yüzünə!..
Nələri mən görmədim, İlahi,
bu həyatda, nələri?
Bir ömrə dəyişmək olardı
bu ecazkar dəqiqələri!...
Öz-özümə təmizləndim bir anda,
Bulaq kimi duruldum.
Sevməyə ixtiyarım olmasa da,
qəlbən, ruhən vuruldum...
Vuruldum heyranlıqla
o məsumluğa,
o saflığa,
o ülviyyətə
o qabiliyyətə!!
Qəflətən oyandı
tənhalıq yuxusundan
yatmış ürəyim.
İndi sözümə baxmır
başıbatmış ürəyim!..
... Axır ki qadınlıq gördüm
qadında!
Bəlkə də mələk idi qadın adında!
Gözəllik yağışı yağırdı
ismətindən , həyasından,
ruhunun saf mayasından.
Kiməsə bənzəyirdi bu qadın...
Yadıma sala bilmirdim adın...
Birdən anamı çağırdı
köksümdə ürək!
Bəli! O idi bu!
Torpağı sanı yaşasın!
O da beləydi -
məsum, məlahətli, utancaq.
Kişi kimi cəsarətliydi ancaq.
.. Axır ki qadınlıq gördüm
qadında
anamdan sonra!...
Oyandı tənhalıq yuxusundan
yatmış ürəyim.
İndi baxmır sözümə
başıbatmış ürəyim...

MƏN SƏNİ GİZLİCƏ SEVƏCƏM ELƏ

Mən səni gizlicə sevəcəm elə...
Qovrula-qovrula,
yana-yana.
Vüsalın əlcatmaz olduğunu
bilə-bilə,
qana- qana.
Mən səni hər yerdə, hər yanda
içimdə peyda olmuş
bu məhəbbət kabusu ilə izləyəcəm,
gizli bir nəvazişlə
oxşayıb əzizləyəcəm.
Nə sən biləcəksən,
nə özgə bir kəs.
Əbədi qıfıla məhkum
bu qəfəs,
nə yazıq ki, heç zaman
açılmayacaq.
Bu, tale hökmüdür, əzizim,
qaçılmaz,
qaçılmayacaq.
Sonu nə olacaq,
Tanrı olsaydım, bilərdim.
Bəlkə də..,
özümə kənardan baxıb
qəhqəhəylə gülərdim.
Hələlik bir şeyi bilirəm:
Ey mənim ən acı sevincim,
ən şirin dərdim,
titrəyirəm,
əsirəm özgə dodağından
qopanda adın.
Ömrümə-günümə qənimsən.
Çölümdə özgənin, yadın,
içimdə isə…
özünün olduğundan
daha artıq mənimsən!
Mən səni gizlicə sevəcəm elə...
Qovrula-qovrula
yana-yana.
Vüsalın əlçatmaz olduğunu
bilə-bilə,
qana-qana!...

GÖZƏL VAR...

Yazaram, şairəm, kiməm, nə bilim?!
İllərdi söz ilə haray-həşirəm.
Gözəl var - görəndə tutulur dilim,
Gözəl var- görəndə şairləşirəm!!,,,

Gözəl var - şirindil -
sözü gözəldi,
Gözəl var - göyçəkdi,
üzü gözəldi.
Gözəl var - söz ilə təsvirə gəlməz -
Bütün varlığıyla özü gözəldi!

BUCAQ GƏZİRƏM

Daha tənhalıqdan bezmişəm, gülüm,
Yetim uşaq kimi qucaq gəzirəm
Soyuq baxışlardan donub ürəyim,
Qanımı isidən ocaq gəzirəm.

Yuz adam yığılsın, yenə də təkəm,
İmkan yox gizlində göz yaşı tökəm.
Harda daldalansın bu taleyi kəm,
Bir sakit, kimsəsiz bucaq gəzirəm.

Gecələr yuxuda nişan taxıram,
Gündüzlər yoluna xəlvət çıxıram.
Hələ də ardınca gendən baxıram ,
Qohum-qardaşından qaçaq gəzirəm.

BİLMİR

O gözlərin can yandıran odunu
Göydəki Günəş də yarada bilmir.
Bir yol işıq sacmaz bizim tərəfə,
İnsafı, mürvəti arada bilmir.

Hanı bir məlhəm ki, dərdimi sova,
Hicranı, kədəri içimdən qova?
Bir vaxt ürəyimdə salmışdı yuva,
İndi haradadı, harada , bilmir .

Ümidsiz, gümansız sehirlənmişəm,
Sanki boş kağıza möhürlənmişəm!
O qara gözlərə mehirlənmişəm,
Ya öləm, ya çatam murada, bilmir...

YOXMUŞ

Bihudə dolandım çəmənzarı mən,
İçində mən gəzən çiçəyi yoxmuş.
Nahaq yolub tokdüm çobanyastığın
Bəxtimi güldürən ləçəyi yoxmuş!!

Neçə gözəllərə sataşıb gözüm,
Sınağa çəkmişəm özümü özüm.
Desəm qəribliyə düşməsin sözüm,
Vallah sevdiyimdən göyçəyi yoxmuş!!

Kimsəsiz qalmışam çölün düzündə,
Ümid axtarıram yarın izində.
Minnətlə tutduğum elçimizin də
Yağlı dili varmış, dilçəyi yoxmuş!..

SƏN

Gör necə şirinsən, necə dadlısan,
Xoş gündə, saatda yaranmısan sən!
Solmayan çiçəksən – həmişəyaşar,
Güllərdən seçilib aranmısan sən!

Qəlbim sənindədir hər gecə-gündüz,
Gəl gir ürəyimdə balıq kimi üz!
Mənliyin çox uca, niyyətinsə düz,
Vüqarlı dağmısan, aranmısan sən?!

Baxışın mənalı, sözün ağıllı,
Dilin bal şirəli, şirin noğullu.
Qəlbin sevgi dolu minbir nağıllı-
İncilsən, Tövratsan, Quranmısan sən?!...

BİTİRƏ BİLMİRƏM

Gözəlliyi gözlərindən götürdüm,
Zərifliyi sözlərindən götürdüm,
Sevgi yolun izlərindən götürdüm
Qəlbini götürə bilmirəm, gülüm!!

Sevən yazıq hardan alsın dözümü?
İtirirəm səni görcək özümü.
Ürəyimdə saxladığım sözümü
Dilimə gətirə bilmirəm, gülüm!..

Ləziz meyvəsisən bu bağ-bostanın,
Var olsun əlləri bağban-ustanın!
Sənə həsr etdiyim sevgi dastanın
Yazıram, bitirə bilmirəm, gülüm!...

NƏRGİZ

KÖLGƏ

Kölgə çox sıxılırdı, üz-gözündən təklik tökülürdü. Ayağa qalxdı, gedib aid olduğu vücudu tapacaqdı. Belə olmazdı axı, çox darıxırdı. Sahibindən niyə, necə qopduğunu anlaya bilmirdi. Özündən çox aid olduğu vücudu düşünürdü. O adam kölgəsiz necə yaşaya bilirdi, görəsən?

Kölgə yorğun idi, rəngi öləzimişdi. Yetim idi artıq.

Qaranlıq rəngdəki bədəni qarışmışdı gecəyə, dartıb ayıra bilmirdi özünü gecədən. İtirdi kölgə. Günbəgün, saatbasaat, anbaan itirdi...

Özünü tapa bilməyənləri kim tapa bilərdi axı?.. Heç kim yaxın durmazdı ona. Kimə lazım idi itənlər, itirilənlər...

Hər səhər baş ağrısıyla oyanırdı yuxudan. Xatirələr, düşüncələr məngənəsində sıxılan beynini itirmək istəyirdi belə anlarda. Bəlkə sahibi də eyni şeyləri hiss etmişdi. Və kölgəni könüllü itirmişdi. Bilmirdi...

Bu düşüncələr kölgənin xoşuna gəlmədi, divardan tuta-tuta güc bəla ilə ayaqda durmağa çalışdı. Özünü toplamağın yollarını aramalıydı. Halsızlıqdan qəddi bükülürdü arada. Rəngi qaçırdı, ən əsası isə belə hallarda həmişə özündən qaçırdı.

Ayaqüstə dura bilmirdi. Divarın dibinə qısıldı. Gözləri yol çəkirdi. Kimi çəkirdi?

Düşündü kölgə. "Yol çəkmək" ifadəsinin ifadəsizliyini. Gözlər gözləri çəkə bilmirdisə əgər, yolu necə çəkə bilərdi axı. Bunu hansı dəli uydurmuşdu. Hamı da inanmışdı.

Yanında oturan adama gözünün ucuyla baxdı. Adamın kölgəsini qısqandı. Adamsız qalmışdı kölgə. Bu qədər cəmiyyətdə adamsız qalmaq çox çətin hissdir.

Kölgə yanında əyləşən nimdaş ruhlu adama tərəf əyildi. Başını onun çiyninə söykəmək istədi. Adam kölgəni silkinib qalxdı.

Kölgənin başı asfalta dəydi, vallah, pis dəydi. Hələ bu bəs deyilmiş kimi kölgənin xətrinə də dəydi bu.

Atılmış, bəzənsə satılmış idi artıq. Görməməzlikdən gəlinməkdən lap zəhləsi gedirdi. Axı o harda idi?...

Bildiyi tək bir şey var idi: yaman darıxırdı. Bəzən viski şüşəsində özünə tamaşa edirdi.

Solğunlaşmışdı kölgə. Ya da adamsızlaşmışdı, bilmirdi.

Amma dəyişmişdi, dəyişdirilmişdi. Sahibinə güvənmişdi, güvənini itirmişdi, itirilmişdi.

Amma yenə də onu axtarırdı gözləri. Unudurdu kölgə yavaş-yavaş, unudulurdu. Unudulmaq üşüdürdü onu.

Kölgə hiss edirdi ki, onda nəsə dəyişir. Sonra kölgə son gücünü topladı, işıq gələn bir pəncərəyə yaxınlaşdı. İçəridə idi.

Nəhayət, onu tapmışdı. Budur o. Ancaq kölgənin düşüncələri bir anda yerlə-yeksan oldu. Əriyib dodaqlarında qaldı. Heç vaxt ucadan tələffüz olunmadı. Anladı ki, atılıb. Artıq bundan əmin idi. Onun yerini də, xoşbəxtliyini də oğurlamışdılar. Özündən savayı heç nəyə aid deyildi artıq. Özünü qucaqladı bərk-bərk. Öpə bilmədi öz dodağından. Sarsıldı kölgə.

Üzünü şüşəyə söykəyib dayandı. Yavaş-yavaş dəli olduğunu düşünürdü. Saniyə-saniyə dəli olurdu.

Qar yağırdı küçəyə, həyətə, evə və kölgənin düşüncələrinə. Dəlilik yağırdı üz-gözündən.

Gerçəyi anlayan Kölgə sürünə-sürünə uzaqlaşırdı adamlıqdan, insanlığa tərəf.

NİGRUM CATTUS

Sələmdə asılan və yandırılanların səssizliyini dinləyin… Onlar sirri qorumaq üçün həyatlarından əl çəkdilər…

Polislər təpiklə qapını açdılar, evdə səs yox idi. Bir-birlərinə qaş-göz edərək ehtiyatla içəri soxuldular, otaqları yoxlamağa başladılar. Hər şey normal görünürdü.

Bu isə onları əsəbiləşdirirdi. Bu dəfə burada nəsə tapacaqlarından o qədər əmin idilər ki. Polislərdən biri mərkəzə məlumat verirdi, görünür, dəstəyin o biri tərəfindəki şəxs bu xəbərə dözə bilməmişdi. Kobud bir səs ətrafa yayılıb, evdəki ekzotik çilçırağa dəyib qayıtdı.

Çilçıraq mənasız bir ahənglə yellənməyə başladı. Polislərdən biri çilçırağı yoldaşına göstərib dedi:

- Bu ev məni yaman qorxudur...

Mərkəzdən dəstək gəlməli idi, onlara da bu işi həll etmək yuxarıdan tapşırılmışdı. Dəstək gələnədək bu qrup evdə axtarış aparmalı idi. Qızğın axtarış getməsinə baxmayaraq, heç nə tapa bilmədilər. Bura sanki yaşlı, məsum bir qadının evi idi.

Polislərdən biri gülərək dedi:

- Bəlkə qonşular yalan danışırlar? Ya da biz koruq... Bu ev gördüyüm ən normal evdi...

Çəkməcələri qarışdıran digər polis isə aqressiv bir səs tonu ilə pıçıldadı: "Elə problem evin bu qədər normal olmasıdır..."

Söhbəti ortaya atan polis, bu cümlənin məğzini anlamadı, deyəsən, qaşlarını çataraq dəhlizə çıxdı. Siqaret yandırdı, ətrafına baxmağa başladı, divara vurulmuş rəsmlər diqqətini çəkdi. Uşaq vaxtı bu cür simvollarla maraqlanar və uzun müddətli araşdırmalar aparardı. Anası və atası uşağa bu cür mövzulardan uzaq durmasını məsləhət görərdilər. Ancaq uşaq hər gecə yuxusunda böyük səhnədə sehrbazlıq oyunları göstərdiyini və insanların ona yerindəcə quruyub tamaşa etdiklərini görərdi və həmişə salonda qopan alqış səsləri ilə oyanardı. Uzun müddət qulaqlarında qəribə gizilti hiss edərdi. O bu astral səhnə təcrübələrinin təsirindən heç vaxt çıxa bilmirdi. Xatirələri onu sarsıtmışdı.

Siqareti əsəbi bir şəkildə söndürdü. Burada nə işi vardı axı? Polislik ona görə bir peşə deyildi. Atasının zövqü və istəyi idi polislik...

İçəridə onun adı səslənirdi...

– Burdayam, – dedi.

Hamı iş başında idi, idarəyə təzə gələn axtarış işçisi özündənrazı hərəkətlərlə ətrafı izləyirdi. Bu evin ab-havası ağır idi, səliqəli və hüzur verən xarici görünüşüylə üst-üstə düşməyən bu ağırlıq onun bədəninə üşütmə salırdı. Özünü çölə atmaq istəyirdi. Nəfəsi daralırdı. Evdən heç nə tapmamışdılar. Hamının üzündə narazılıq ifadəsi vardı. Ev haqqında dolaşan miflərə inanmasalar da, müdiriyyət buranı nəzarətdə saxlamağı uyğun hesab etmişdi. Heç olmasa səs-küy, söz-söhbət azalanadək... Evə nəzarət dəstəsi (təbii, bunu dəstə adlandırmaq olardısa) 5 nəfər polis əməkdaşı orada qalacaq, o birilər isə idarəyə geri dönəcəkdi. Onu da nəzarət dəstəsinin tərkibinə daxil etmişdilər. Burada qalanlar özlərinə gülürdülər, indiyədək bu cür mənasız əməliyyatları olmamışdı. Boş evə nəzarət vaxt itkisindən başqa bir şey deyildi. Qonşular isə qəribə-qəribə baxırdılar polislərə. Hətta arada biri gəlib gecə evə girməmələrini də tapşırdı. Polislər özlərini nə qədər sıxdılarsa da, axırda biri dözə bilmədi, şaqqanaq çəkib güldü. Qadın tərs-tərs baxaraq getdi.

Polislərdən biri dedi:

- Bilmirəm, bu insanlara nə olub, nə görüblər bu evdə, kim isə bunlarla yamanca oyun oynayıb.

Hamı güldü. Ancaq nədənsə hava qaranlıqlaşdıqca qayğısız gülümsəmənin yerini, aqressiv təhgnəfəslik alırdı. Evdən gələn adi səs hamını hürküdürdü. Əslində, evdən qəribə səslər gəlməyə başlamışdı. Bu hamını narahat etsə də, heç kim evə girmək istəmirdi.

Payızın soyuğu özünü ən çox axşamlar göstərirdi, külək getdikcə sərtləşirdi.

- Daha nə qədər burada axmaq-axmaq gözləyəcəyik?.. - deyən David ayağı ilə səkiyə bir təpik vurdu. Rəisə yaxın olan polis, ona sərt-sərt baxdı.

David də onun bunu rəisə xəbərləyəcəyindən çəkinib kiridi. Külək evin pəncərəsinin şüşələrinə dəydikcə yaranan xüsusi vıyıltı polislərin əsəbini pozurdu. Qapının düz önündən asılan zənglər isə dayanmadan cingildəyirdi. Polislərdən biri zəngi çıxartmaq istədi, o biri onu saxladı.

– Nə edirsən, burdakı əşyaları dağıtma deyiblər sənə? Bu, düz hərəkət deyil. Bizə bu tapşırılmayıb. – İqor əsəbi hərəkətlə zəngi açmaq istəyən polisi itələdi, toxunma, bu evdə səhv bir şeylər var. Polislər gülüşdülər. Onlardan biri:

- "Qorxursan axı.. ha-ha-ha"

İqor burada yeni idi. Polislik xəyalları göydə idi də buranın ağır aurası onda gərginlik yaratmırdı.

- Qorxmuram, ancaq bu evlə bağlı gəə miflər eştmişəm, uşaq vaxtı bu cür şeylər haqda oxuyardım.

- Nə cür şeylər haqda? – deyə rəisin dostu lağla güldü.

- Sənin ağlın yetəcək şeylər olsaydı, çoxdan izah edərdim.

Rəisin yaxını İqora tərəf gəlib, onu hədələdi:

- Sənin başına açə biləcəyim oyunlar haqqında ən balaca bir düşüncən varmı?..

İqor ona baxıb yerə tüpürdü...

Rasim İqorun qulağına pıçıldadı:

- Nə barədə oxumusan?..

- Magiya barəsində...

- Bəsdi sənin ağlın deyəsən, 5 yaşında qalıb.

Nədənsə heç kim gülmədi. Rəisin dostu pərt olmamaq üçün təkbaşına qəhqəhə çəkdi.

Araya sükut çökdü. Bu səssizlik otuz-otuz beş dəqiqə davam etdi. Külək isə əvvəlki kimi zarafatlaşırdı polislərlə.

Hələ heç nə yoxdu, kirimisiniz, – deyən İqor qəhqəhə çəkdi. Rəisin dostuna yaxınlaşan Rasim ondan soruşdu:

- Sən bilməmiş olmazsan, burada niyə qarovul çəkirik, niyə heç nə demirlər, nə gözləyirik, kimi gözləyirik axı?

Rəisin dostu özü də indi bu barədə düşünürdü, o, başını fikirli-fikirli yırğalayıb, – bilmirəm, dedi. Mənə də bu barədə heç nə deyilməyib, əslində, düzü, mən özüm də maraqlanmamışam. Bir də ki nə olur-olsun, biz ən vahiməli hadisə üçün də hazırıq. Biz normal polis deyilik axı, illərdir hazırlıq keçirik.

- Mən xaric, – deyən İqor əsəbi bir şəkildə başını yellədi, - mən heç özüm də bilmirəm, bura nə cür düşmüşəm.

Özləri də bilmədən evdən gələn səsə diksindilər. İqor qapıya yaxınlaşdı. Rasim pıçıldadı:

- İqor, hara gedirsən, ehtiyatlı olmaq lazımdı. Səni nə gözləyir, bilmirsən.

İqor ayaq saxladı. Evdən səs gəlmirdi. Yəqin, külək hansısa pəncərəni açıb, nəyisə yerə saldı. İçəri girməyə hələ ki, ehtiyac yoxdu. İqor siqareti yandırıb damağına qoydu, səkidə əyləşib fikrə qərq oldu. Nəhayət İqor dilləndi:

- Rasim, bilirsən? İndiki situasiya mənə bir hadisəni xatırlatdı.

Rasim İqorun yanıda əyləşib bir siqaret də özü yandırdı.

- Danış, bu gecə keçmək bilmir onsuz da.

- Nənəm bir əhvalat danışmışdı. Əslində nənəmin hekayəsindən öncə deyim ki, mən də bu evdəki o rəsmləri, simvolları, bu zəngləri görəndə "onlar" barəsində düşündüm. Kimlər? Cadugərlər...

Rasimin dodağı qaçdı.

İqor isə gözlərini gecənin qaranlığına dikib danışmağa başladı:

- Nənəmin dediyinə görə, o vaxtlar kənddə bir qadın var imiş, o, daxmasında tək yaşayırmış, heç kimlə oturub-durmazmış. Nənəm onun fövqəltəbii gücləri olduğunu demişdi. Həmin qadını kənddə hamı dəli adlandırsa da, heç kim tam olaraq onun dəliliyini görməmişdi.

Qadın hər dəfə ay bədirlənəndə çölə çıxar, lüt soyunar və rəqs edərmiş.

- Əla imiş ki, kaş biz də o kənddə yaşayardıq, burda belə axmaq-axmaq oturmaqdan yaxşıdır, – deyərək Rasim hiyləgərcəsinə gülümsəyib ikinci siqareti yandırdı.

İqor isə elə bil Rasimi eşitmirdi.

Nənəm deyərdi ki, o qadın çox gözəl imiş, onun bəzi gecələr lüt soyunub ayın altında rəqs etməsi kənddə söz-söhbət yaratmağa başlayıb. Onu izləməyə gələn kişilərin, hətta qadınların sayı günbəgün artırmış, amma insanlar həm də bu gözəllik qarşısında xoflanırmışlar, onun insan olmadığını düşünənlər də varmış. Ancaq bu düşüncəni kimsə onun üzünə deməzmiş. Ümumiyyətlə, kimsə onunla üz-üzə gəlməyə cürət etməzmiş. Qadın gündüzləri normal imiş, yəni hamı kimi...

Tarlaya gedər, heyvanlara baxar və çoxlu bitki toplayarmış, bağçasında həmişə gözəl rayihəli çiçəklər olarmış. Ancaq gecələr evindən qəribə səslər gələrmiş, tək yaşadığını hamı bilirmiş, bəzən səs elə güclü olarmış ki, insanlar bu səslərdən qorxarmışlar. Bir dəfə nənəm onun evinə gedibmiş, qapı açıq imiş. O isə evin ortasında bayğın halda yatırmış, nənəm onu oyadıb, yatağına aparıb. Yemək hazırlayıb onun üçün. Qadın çox xəstə imiş. O gündən dostlaşıblar. Qadın nənəmə bitkilərə baxmağın qaydalarını öyrədirmiş, onu çox sevirmiş. Bir gün nənəm yenə də onlara gedir, bişirdiyi yeməkdən dostuna da aparıbmış. Dostu isə evdə olmur. Qapı açıq içəri daxil olur. Nənəm nağıl edir ki, mən ilk dəfə idi ki, onun evində tək idim. Evə baxmaq fürsəti əlimə düşmüşdü, əslində nənəm heç vaxt bu balaca daxmanı gəzməyibmiş və maraq onu boğur, başlayır evi gəzməyə. Nənəm danışırdı ki, mən qara pərdə vasitəsilə yaradılan arakəsmələri olan bir hissəyə daxil oldum, burada masa, masanın üzərində çeşidli şamlar və müxtəlif elementlər var idi. Mən arxaya dönəndə dostum mənə baxırdı. Çox əsəbi imiş, nənəmə heç bir söz demədən qapını göstərir. Nənəm dostundan çox inciyir, hadisənin mahiyyətini anlamadığı bir yana, dostunun üzr istəməyə gəlməməsi də nənəmə pis təsir edir. O, günlərcə yeyib-içmir. Çölə çıxmır. Zaman hər şeyin dərmanıdır boş yerə deməyiblər, bir müddət sonra nənəm bu hadisəni unudur və həyatına davam etməyə başlayır.

Həyat artıq ona mənasız gəlməyə başlayır. Çünki o qadında daxili cazibə var imiş, nənəm onun yanındaykən ağrılarını-acılarını unudar, həyatı daha sevərmiş.

Bir gün gecə yarısını keçmiş qapı döyülür. Nənəm deyir ki, düzü, çox qorxdum, bilirdim ki, gələn odur. Mən onu gözləyirdim neçə vaxt idi. Qapını açdım. İçəri daxil oldu. Dəqiqələrcə susdu. Sonra başını çiynimə yasladı və ağladı, ağladı, ağladı...

İllərin qurutduğu çöllərə yetəcək qədər ağladı...

Ondan heç nə soruşmağa cəhd etmədim. Ağlamadım da, onun toxunduğu bədənim buzlaşırdı sanki. Uşaq vaxtı oxuduğum "Qar kraliçası" nağılını xatırladım, öpüşü belə buz olan qadını...

Sonra qalxdı və getdi...

Səhər evinin qapısını döydüm, məni gülərüz bir şəkildə qarşıladı. Ondakı bu təlatümlər, ruh dalğaları məni gah qayalara çırpır, gah da gözəl mənzərəli adalara qonaq edirdi. Çay dəmləmişdi, qərənfil ətri insanı bihuş edirdi. Mənə bir şey danışacağını söylədi. Mən qara pərdə və onun arxasında mühafizə olunan hər bir elementin mənasını qavramağa başlamışdım. Dostumun cadugər olması məni qorxutmurdu. Çünki onun həyat tərzinə çevrilmiş bu istedad ona ruhsal inkişafı üçün xidmət edirdi. Onun boynunda xüsusi daşlardan hazırlanmış aksessuarlar olurdu. Cadugərlik gizli bir təlim imiş. Nənəm uzun müddət onunla dost olur.

Günlərin bir gün dostu birdən yox olur. Nənəm hələ də dostunun getməsinin mifik bir mənası olduğunu düşünür... O hələ də onu gözləyir...

Gecənin səssizliyi qulaqbatırıcı idi. Arada küləyin yellədiyi zənglər çığırışırdılar. Saat on ikini çoxdan keçmişdi. Üşüyürdülər. Qar kraliçasının buzlu öpüşünü xatırladan payız küləyi az qala ruhu dondururdu.

- Bəlkə evdə gözləyək, - deyən David cavab gözləmədən evin qapısını araladı. Polislər laldinməz içəri daxil oldular.

İqorun gözləri yenə də dəhlizdəki simvollarda ilişib qalmışdı. Külək xüsusi qəzəblə evin pəncərələrini çırpdı, İqorun üzünü yalayıb keçdi.

Polislər paltarlarının yaxasını bərk-bərk tutdular. Evin içi daha soyuq idi. Bu necə mümkün ola bilərdi axı. Yorğunluqdanmı, yuxusuzluqdanmı, qorxudanmı bilmirəm, ancaq heç kim danışmaq istəmirdi elə bil.

Yuxarıdan gələn güclü səs-küy səssizliyi pozmaqla qalmadı, təlaşa səbəb oldu. David qeyri-ixtiyari pilləkənlə yuxarı qalxmağa başladı. Rəisin yaxını polisləri tələsdirsə də, özü hamıdan arxada irəliləyirdi. Bircə İqor dəhlizdəki simvollardan gözünü çəkə bilmirdi. Bədirlənmiş ayın müxtəlif zamanlarının təsvir edildiyi rəsmlərdəki sirri İqor yaxşı anlayırdı. Və İqor bu evin sahibələrinin kim olduqlarını daha yaxşı anlayırdı.

Davidin qışqırıq səsi evin divarlarına dəyib boşluğa doğru qaçırdı. İqor tələsik yuxarı qalxdı. Polislərin bərəlmiş gözləri Davidin qanlı sifətində donmuşdu. David sifətinə yayılan qanı silərək barmağı ilə açıq pəncərəni işarə etdi. Heç kimin yerindən tərpənmədiyini görən İqor pəncərəyə tərəf sıçradı. Siyah ipək pərdələri dəli kimi yellədən külək gecəyə daha çox vahimə qatırdı. İqor pəncərədən aşağı baxanda onun yaşıl gözləri ilə qarşılaşdı. Nədənsə o getmirdi. Sanki İqoru gözləyirdi. İqor onun boynunda parıldayan yaşıl daşdan gözlərini çəkə bilmirdi. İpək qara tüklü, gecədən daha tünd olan bir pişik, nəhayət ki, İqorun gözlərindən gözlərini çəkib gecəyə qarışdı…

Qəşəm NƏCƏFZADƏ

BÜTÜN XOŞBƏXTLİKLƏR BƏDBƏXTLİYİN OVCUNDADIR

(Gənc şair Əntiqə Səmənd ərin şeirləri haqqında)

Bir çiçək boyda küləkdi Əntiqə, Ağdamdan əsir. Göynən uçur, yernən gedir. Söznən qanadlanır, dilnən gedir. Bakı hərdən çox incidir Ağdam küləyini. Bakı küləyi dənizdən əsir, Ağdam küləyi dağdan. Bakı küləyi Şimaldan əsir, Ağdam küləyi Qarabağdan. Hirsli bir küləkdi Əntiqə. Bir bənövşə boyda, bir yarpaq dolusu küləkdi Əntiqə.

Odur, daxil oldu Azərbaycan Yazıçılar Birliyinə. Birinci mərtəbədə bir az əylənər, elanlara baxar, vərəqləri yellədər, bir qızla qucaqlaşar, birinə də əl edər. Sonra uçar ikinci mərtəbəyə, sağa, sola gedib burular üçüncü mərtəbəyə, orda sürəti artar, gələr "Azərbaycan" jurnalına, ordan da "Ulduz" jurnalına...

Həmişə düşünürəm, bu qızı uçuran nədir? Səbrsiz edən, yerindən oynadan nədir? Sonra gördüm əlində vərəqlər var, vərəqlərdə şeirlər var, şeirlərdə sevgi var.

Ağdamdan gələndə nə yaşı vardı, böyüdü Əntiqə.

Universitetə daxil oldu, Ağdam bilmədi.

Üç kitabı çıxdı, Ağdamın xəbər olmadı.

Sevdi, Ağdam sevinmədi, gülmədi, çünki Ağdam sevginin üzünü görmədi.

İndi neyləyək? Günah kimdədi, məndədi, yoxsa səndə? Ağdamdadı, yoxsa Bakıda?

Əntiqə uşaq idi, Ağdamsızlığın günahı kimdədi, anlamadı. Televizorda Ağdama baxdı, yenə bilmədi. Şahmar Ələkbərzadəni, Aqil Abbası, Qulu Ağsəsi oxudu, Qədir Rüstəmova qulaq asdı, Ağdamsızlığın sirrini öyrənə bilmədi ki, bilmədi. Axırda sürətlə böyüdü Əntiqə. Böyüdü ki, uçan buludların ayağından tutub getsin Ağdama. Amma buludların ayağı qırılıb düşdü Muğana. Əntiqə də ayağında. Bir bənövşənin ləçəyinə düşdü Əntiqə. Bənövşəni oxudu Əntiqə.

Gedənləri sevmək,
gələnləri qarşılamaqdan
daha gözəldir.
Qorxma, gözəlim.

Böyüdü Əntiqə, balaca yumruqlarıyla, qırmanc əsəblərilə. Redaksiyalara şeir verdi, sonra unutdu, yox, unutmadı, gözlədiyini heç vaxt dilə gətirmədi, guya yadında deyil, guya yadına düşmədi. Amma hamısı yadındaydı. Sevən də, unudan da. Düz də, əyri də. Yalançı da, doğruçu da...

Uşaq şeiri kimi dəcəldi, dolu kimi hirslidi, yağış kimi mehribandı Əntiqə. Özündən böyüyə, kiçiyə həmişə bu şeiri oxudu:

Fərz et ki, yıxılırsan,
Əlin xatirələrdən başqa,
-heç nəyə çata bilmir…
Rəbbindən dilə, nə diləyirsənsə...
İllərdi yalvarmağın qaydasını unutmusan.
Dost ol yalvarmağa,
Sən ona əmanətsən.

Başa düşdülərmi, düşmədilərmi, Əntiqənin eyninə deyil. Sözləri gülüşləri ilə qoşadı, söz ağacdı, gülüş meyvə... Əntiqənin əsəbi sözlərini döyəcləyir, döyür, döyür, sonra da Əntiqə əlini belinə qoyub ərkyana deyir:

Kədərin ölçüsü kiçik,
O, mənim əynimə deyil.

Əntiqə həmişə nəzərimdə dəniz küləyinə söykənmiş kimidir. Elə bil yayın tən ortasında külək onu silkələyir. Saçlar dağınıq, üzündə sevincdən çiliklənmiş kədər, bəzən nadinc, bəzən isə sakit olan görkəmində bir dalğınlıq... Bu şeir də onun sakit halının şeiridir:

Yordu məni elə "kaş"lar,
Ovcumdan düşdü dualar,
Bəxtim, bir az səbirli ol,
Sevincin yenidən başlar.

Əyilməyi kim sevir ki?
Hər kəs özündən ucada.
Şansını göydə axtarır
Beli bükülmüş qoca da.

Dəcəl bir qızın hikmətinə bax. Mənə elə gəlir ki, dəcəllər böyüyəndə daha müdrik olurlar. Sakit uşaqlar isə bir az yaşlandımı, başlayırlar dəymədüşər olmağa, kal heyva kimi yerində digildəməyə.

Əntiqənin aşağıdakı şeiri onun mənsub olduğu ədəbi gəncliyin epiqrafı ola bilər. Üz-gözündən nadinc gülüşü heç vaxt əskik olmayan gənc bir qızın düşüncəsinə, ağlına bax:

Ovcunu sıx,dost,
xoşbəxtlik uça bilər,
Biz mütləq deyilik, dost,
-hər şey "ola bilər"di bizdə.
Olacaqlar da "ola bilər" qədər
gözlənilməzdi…
Bütün xoşbəxtliklər
bir bədbəxtliyin ovcundadır,
-ovcunu sıx, dost.

Əntiqə hadisələrin, adamların yan-yörəsindən sürətlə keçən və mənzil başına tez çatmaq istəyən bir səsdi. Yeriyən, axan, burulan, qıvrılan bir zəngulədir. İstedadı hələ kifayət qədər durulmayıb. Hələ təcrübəsi azdı... Ancaq bu gənc şair bəzən özündən xəbərsiz elə həqiqətləri deyir və pıçıldayır ki, istər-istəməz onun düşüncəsində formalaşan yenilik hissi səni ələ alır. Aşağıdakı şeirinə baxaq:

Mən içimdən kiçilirəm,
Bölünürəm hissələrə
budaq-budaq.
Hopuram sözlərinə,
Yaz məni, dostum,
varaq-varaq.
Alnımdan yerə düşüb,
Sınıbdı alın yazım
qırıq-qırıq.

Əntiqə 1994-cü ildə Ağdamda anadan olub. Mən həmişə 1990, 1991, 1992, 1993, 1994-cü illlərin uşaqlarını kədərlə düşünürəm. Bu illərin uşaqları, xüsusən Qarabağ uşaqları öz yurd-yuvalarından ayrı düşdülər. Onlardan biri də gənc şair Əntiqədir. Mənə elə gəlir ki, bu illərin Qarabağda doğulan uşaqları daim harasa tələsirlər, qaçırlar, yüyürürlər və əsəbiləşirlər. Onlar küləklər və çiçəklər kimi hər yana səpələniblər. Bu illərin uşaqları ona görə tələsirlər ki, bir yol tapıb Qarabağa qayıtsınlar. Elə bil anaları onları həyətə oynamağa göndəribmiş, indi evlərinə qayıda bilmirlər.

Aşağıdakı şeirdə deyildiyi kimi, bəziləri bu hissləri hardan bilsinlər axı, nə bilsinlər ki, yay səhərlərində üşümək necə olur?

Sən hardan biləsən axı,
Yay səhərlərində üşüməyi?
...hələ qumsal sahildə üzmək eşqini...
Hardan biləsən axı,
atasızların ana məhəbbətini?..
Hələ xatirələr yada düşəndə
özündən gizlənmək var,
…və bir də göyün altında yaşamaq...
Bir fəsil xatirən vardı,
Bircə yağış payızda
yuyulduqca yadıma düşürdü,
gözümdən düşməyin!

Yüyürür, qaçır, tələsir, yazır, pozur Əntiqə, Bakının ortasında Ağdam axtarır.

Yuxarıda dediyim kimi, elə bil anası Əntiqəni həyətə oynamağa göndəribmiş, indi evlərinə qayıda bilmir.

Qızım, sən qayıdacaqsan, hökmən. Düş misralarının birinə, get, Ağdama gedir bu yol.

Çinarə NÜSRƏTLİ

«ŞAXTA HƏKİM»

Zərifənin məzuniyyətdən sonrakı ilk iş günü idi. Ona görə də səhər bir az da tez oyanıb bəzənib-düzəndi. Adətən rəsmi geyinsə də, bu gün bir az mülayim qiyafətdə görünmək istədi. Firuzəyi rəngli köynəyinin etiketini qoparıb əyninə keçirdi. Bir neçə dəqiqə güzgüdə özünü süzdü. Görünüşündən razı qalıb dəri gödəkçəsini geyindi, bir də güzgüyə göz atıb evdən çıxdı.

Zərifə artıq üç ildi ki, çox da iri olmayan bir müəssisədə iqtisadçı işləyirdi. Mehriban kollektivləri vardı, bir ailə kimiydilər. Dörd illik tələbə həyatından sonra bu iş həyatının yeni bir mərhələsi kimi onu həyəcanlandırsa da, narahatlığı tez keçdi. İş yoldaşlarının xoş rəftarı, qayğıkeşliyi onu kollektivə tez alışdırdı. Bir aylıq məzuniyyəti maraqlı keçsə də, işdəkilər üçün də darıxmışdı...

Şöbədə hamı yerindəydi, yalnız Cahan xanım gəlməmişdi. Zərifə iş yoldaşlarıyla hal-əhval tutub, onun masasınA işarə etdi:

- Cahan xanımdan çıxmayan iş, nə əcəb gecikir?

Şöbənin ağsaqqalı Səfər müəllim əməkdaşların susduğunu görüb, ağır səslə dilləndi:

- Sən Bakıda deyildin, yəqin, xəbərin yoxdu. Cahan xanım bir az nasazdı, xəstəxanada yatır.

Zərifə təəccübləndi:

- Aaa... Cahan xanımın heç qrip olduğunu da görməmişəm. Nə oldu ona belə?

Səfər müəllim tutuldu. Zərifə isə gözlərini ona zilləyib nigaranlıqla cavab gözləyirdi.

- Əvvəl biz də inanmırdıq, qızım, - Səfər müəllim nəhayət, dilləndi. - Cahan xanımla iyirmi səkkiz ildir bir yerdə işləyirik, elə bilirdik, buz baltasıdı. Bu xəstəlik haradan onu tapdı?

Otağa sakitlik çökdü. Zərifənin narahatlığı artdı, hiss etdi ki, ciddi bir şey var. Qorxa-qorxa soruşdu:

- Nə xəstəlikdi ki?

Səfər müəllim ilk iş günü Zərifənin qanını qaraltmaq istəmirdi. Çünki Cahan xanım şöbədəki qadınların yaşca böyüyü idi, aparıcı iqtisadçıydı. Çox həlim, istiqanlı, xeyirxah qadındı. Bütöv müəssisə onun xətrini istəyirdi.

Səfər müəllim ortaya çökmüş ağır havanı yumşaltmaq istədi.

-İnşallah, tezliklə sağalıb gələr. Indi elə aparatlar, elə dərmanlar var ki, ölünü dirildir. Həkimlər də ki Amerikada oxuyub gəlirlər.

Alayarımçıq cavabdan Zərifənin gərginliyi bir az da artdı. Xəstəliyin adını soruşmağa ürək etmədi.

- Hansı xəstəxanada yatır? - deyə soruşdu.

Səfər müəllim yaman yerdə yaxalanmışdı. Yayınmaq istəyirdi, olmadı. Xəstəxananın adı susmağının səbəbini bildirəcəkdi.

- Onkolojidə, - bu kəlmə elə bil Səfər müəllimin dilinə iynə kimi batdı.

Zərifə cavabdan diksindi, duruxub Səfər müəllimin üzünə baxdı, qeyri-ixtiyari gözlərində yaş gilələndi, boğazı qəhərləndi.

- Yəni ümidsizdi?

- Allah kərimdi, qızım, Allahdan ümid kəsilməz, - deyib Səfər müəllim dərindən ah çəkdi.

* * *

Bu axşam Zərifə həmişə evə getdiyi dayanacağa deyil, əks istiqamətə yol aldı. Dayanacağa çatanda saatına baxdı. Üşüdüyünü hiss etdi. Yaxşı ki, elə bu vaxt avtobus dayanacağa yaxınlaşdı.

Avtobusa minə-minə bir əli çantasında telefonunu gəzirdi. Boş oturacaqlar olsa da, oturmadı. Düşündü ki, görəsən, neçə dayanacaq var?

Oturacaqların yanından keçib irəli çıxdı. Sürücü papağını gözünün üstünə basıb oturmuşdu. Zərifə öz-özünə fikirləşdi: “Görəsən, bu, yolu necə görür?”

- Üzr istəyirəm!

Sürücü topa bığının altından mızıldandı:

- Nə lazımdı?

- Bağışlayın, onkologiyaya çox var?

- Bir xeyli var.

- Çatanda deyərsiniz, zəhmət olmasa?

Sürücü heç qımıldanmadan narazı səslə:

-Deyərəm, - dedi.

Zərifə geri çönəndə gördü ki, boş oturacaqlar tutulub. Əslində üzünü gizlətmək üçün oturmaq istəyirdi. Elə bilirdi ki, hamı ona baxır. Hər dayanacaqda dayandıqca açılan qapıdan içəri sovrulan soyuq hava Zərifənin üşütməsini artırdı.

«Onkologiya...» «Görəsən...» Qəfil zəng onu fasiləsiz fikirlərdən ayırdı. Cəld çantasını axtarmağa başladı. Nə qədər çalışsa da, telefonu tapmadı. Kənardan bir səs «alo», dedi. Zərifə pərt oldu. Tələsdiyindən telefonunu işdə unutmuşdu. Elə bu vaxt sürücünün gur səsi onun diqqətini çəkdi.

- Onkologiya!

Zərifəni qəfil üşütmə basdı. Bu söz anakondanı xatırladırdı, ilan soyuqluğu vururdu ondan. Ayaqları getmək istəməsə də, topa bığlı sürücünün səsinin vahiməsindən özünü avtobusdan bayıra atdı.

Avtobusdan endikdən sonra yadına düşdü ki, sürücüdən hansı istiqamətə getməyi soruşmadı. Amma fikirləşdi ki, yadına düşsəydi də, o adamdan daha heç nə soruşmazdı.

Buraları heç tanımırdı. Hansı tərəfə gedəcəyini öz-özlüyündə dəqiqləşdirməyə çalışdı. Bir ağırlıq hiss etdi. Gərginlikdən çantasından bərk-bərk yapışıb, ətrafına baxmağa başladı. Arxaya dönəndə nəhəng bir bina gördü. Buranın axtardığı yer ola biləcəyini anladı. Bina böyük aysberqə bənzəyirdi.

Canından gizilti keçdi. Dərin bir nəfəs aldı, irəli bir-iki addım atdı. Sanki kimsə beyninə süngər çəkirdi. Saat yadına düşdü. Dərsdə oturmaq istəməyən tələbə kimi gözü saatda qalmışdı. Ancaq sadəcə rəqəmlərə baxırdı. Zərifə binaya doğru addımladıqca yol daha da uzanırdı...

Nəhəng binanın qapısı tez-tez açılıb-örtülürdü. Yanından ötən gözüyaşlı insanlar, tək-tük gözə dəyən həkimlər, havaya qarışmış dərman qoxusu Zərifəni geri itələyirdi.

Xəstəxananın dəhlizi səliqəli və olduqca işıqlı idi. Zərifə duruxub ətrafına baxdı. Bir-iki addım atdı. Xatırladı ki, uşaqlıqda könlündən həkimlik də keçib. Amma iynədən qorxurdu, yaraya baxa bilmirdi.

Qeydiyyat şöbəsinə yaxınlaşdı. Dırnağının ağrıdığını hiss etdi. Əllərinə baxdı. Çantasının qulpunu bərk-bərk sıxmışdı. Barmaqlarını boşaltdı. Qeydiyyatda oturan qızlardan biri asta səslə:

- Buyurun, - dedi.

Bu soyuq binada qızın musiqili səsi sanki ona “qorxma, sakit ol”, deyirdi.

- Salam, Cahan Nəzirovanın yanına keçə bilərəm?

- Bir dəqiqə... - Qız qarşısındakı kompüterdə nə isə axtarmağa başladı. Gözünü ekrandan çəkmədən soruşdu. - Nəzirova?

- Bəli... - Yenə üşüdü. Səsi xırıldadı.

- Beşinci mərtəbə, 92-ci palata. - Zəhmət olmasa, bir cüt baxil götürün, - deyib sağ tərəfdəki qutunu göstərdi.

Zərifə cavab vermədən qızın dediklərinə əməl edib pilləkənlərə yönəldi. Pilləkənləri sayırmış kimi tək-tək çıxmağa başladı. «92 idi? Hə...» Pilləkənlərdə heç kimsənin olmaması diqqətini çəkdi. Xəstəxananın boş olması ehtimalı onu sevindirdi. Amma dərhal da ağlına lift gəldi. «Axı onlar xəstədilər, pilləkənlərdə nə işləri var?»

Qapı aralı olsa da, bir neçə dəqiqə gözlədi.

- Olar?

Çarpayıda uzanmış yaşlı qadının gözləri iri pəncərəyə zillənmişdi. Yanındakı stulda 50-55 yaşlarında, iri cüssəli bir qadın mürgüləyirdi. Çarpayının ayaq tərəfindəki açıq, səsi alınmış televizorun sanki otaqdakılardan xəbəri yox idi. Sükutdan qulaq tutulurdu. Zərifə heç kimin dinmədiyini görüb qapını bir də tıqqıldatdı.

- Cahan xanım?

Stulda mürgüləyən qadın yerində qurcalandı.

- Kimdi? Gəlin.

- Mən Cahan xanımın iş yoldaşıyam. Adım Zərifədir.

Qadın ləngər vura-vura qalxmağa cəhd göstərdi.

- Gəl, qızım, elə bildim tibb bacısısan. Keç otur.

Cahan xanımın boynundan içində göy mayeli şəffaf qutuya bənzər nə isə asılmışdı. Nə ola bilərdi?

Pəncərə tərəfə keçdi.

- Neçə gündür belədi, qızım, elə hey bayıra baxır. Nə günlərə qaldı, bacısı ölmüş, - deyən qadın ağzını tutdu. Sifəti dondu. Pultu götürüb televizoru söndürdü.

Cahanın gözü hələ də bir nöqtəyə zillənmişdi. Sanki baxışları ora mıxlanmışdı. Gözünün önündəki iri pəncərə, açıq rəngli pərdə, pəncərənin o yanındakı boz mənzərə donub qalmış, havadan asılmış rəsm əsəri kimiydi. Zərifə bir az da irəli gəlib, Cahan xanımın saralmış əllərini ovcunun içinə aldı. Göz yaşları yanaqlarından yuvarlandı.

Qapı astadan döyüldü. Gələn həkim idi. Stula yayılmış orta yaşlı qadın həkimi görüb cəld özünü yığışdırdı. Ayağa qalxdı. Zərifə cəld gözlərini sildi. Dikəldi.

- Xanım kimdir? - Həkim Zərifəyə baxmadan soruşdu.

- Bacımın iş yoldaşıdır, doktor.

Həkim xəstəyə yaxınlaşıb, diqqətlə üzünə baxdı, əlini alnına qoydu. Heç bir söz demədən qapıya yönəldi.

- Ay həkim, elə hey o pəncəyərə baxır. Bir kəlmə söz demir, donub qalıb.

Həkim havaya danışırmış kimi dedi:

- Qoy baxsın. Növbədəyəm, gəlib dəyərəm yenə. deyib çıxdı.

Zərifə mat qalmışdı. Həkimin gəlib, xəstəni «xala xətrin qalmasın» yoxlayıb getməsi onu heyrətə gətirmişdi. Bu nə cür həkimdi? Xəstəyə belə baxırlar, belə müalicə edirlər? Belə həkimin xəstəsi heç sağalar?

* * *

Bir də ayıldı ki, metrostansiyanın girişindədir. Buraları tanımırdı. Metronu necə gedib tapmışdı, yadında deyildi. Sürətli addımlarla yerin altına endi. Bura bir az isti idi, amma canından üşütmə çıxmırdı. Birdən qulağı «Azadlıq» sözünü çaldı. Ayılan kimi oldu. Ayağa qalxıb qapıya yaxınlaşdı. İş saatı çoxdan bitsə də stansiyada adam çox idi. Eskalatorla qalxmağa hövsələsi çatmadı, sürətlə pillələri qalxmağa başladı. Stansiyadan çıxanda dərin nəfəs aldı. Ilk dəfə idi ki, yerin altı ilə üstünün fərqinə varırdı. Bir də şükr etdi ki, evləri metroya yaxındır.

Anasını qapıda görəndə az qaldı boynunu qucaqlasın. Süfrə hazırdı. Zərifənin yemək yadına düşmürdü. Anasını təşvişə salmamaq üçün masanın arxasına keçdi. Anası qızının kefinin olmadığını hiss etmişdi, yeməyinin qurtarmağını gözləyirdi.

- Qızım, nigaran qaldım, işdə ləngimişdin?

- Ana, heç soruşma. Işdən necə həyəcanlı çıxmışamsa, xəbər vermək yadımdan çıxıb. Telefonum da işdə qalıb. Bizimlə işləyən Cahan xanımı tanıyırsan də, ağır xəstədi. Xəstəxanaya, ona dəyməyə getmişdim.

- Vay, Allah şəfa versin. Top kimi qadındı, nə oldu birdən?

Zərifənin gözləri doldu. Başını aşağı əydi ki, anası görməsin.

- Çox ciddi xəstəlikdi.

- Zəhrimardandı? - Anası təəssüflə soruşdu.

Zərifə astadan:

- Hə, - dedi.

Ağır gün Zərifəni çox yormuşdu. Elə bil yerinə uzanmağa da ehtiyat edirdi, tək qalmaq istəmirdi...

* * *

Zərifə qapıda dayanmışdı. Ha istəyirdi addım atsın, yerindən tərpənə bilmirdi. Çarpayıda uzanan Cahan xanım birdən dedi:

- Gəl, Zərifə, gəl!

Zərifə nə yeriyə bildi, nə də dillənə bildi. Donub qalmışdı. Bir tək gözləri işləyirdi. Cahan xanım sakitcə uzanmışdı. Sinəsi astaca qalxıb-enirdi. Zərifənin baxışları Cahan xanımın sinəsinə ilişib qalmışdı. Çox qorxurdu, elə bilirdi ki, indicə Cahan xanımın qabaran sinəsi enəcək və bir daha qalxmayacaq. Amma elə olmadı. Cahan xanım incə hərəkətlə üstündəki örtüyü qaldırdı. Ehmalca ayaqlarını çarpayıdan aşağıya aşırıb qalxdı. Qadının əynində ağ şifondan geniş paltar vardı. Enli parçanın ortasını deşib əyninə keçirmiş kimi görünürdü. Nazik paltarın altından zərif vücudu sezilirdi. Cahan xanım xəstəyə bənzəmirdi. Çox gözəlləşmişdi, hətta gəncləşmişdi. Rəqsə başlamaq istəyən balerinalar kimi ayaq barmaqlarının uclarında geniş, açıq pəncərəyə yaxınlaşdı. Döşəməyə yüngül bir təkan vurub pəncərəyə qondu. Zərifə eyməndi. Qışqırıb Cahan xanıma «dayan» demək istədi. Cahan xanım:

- Keç, qızım, bu yeri sənin üçün boşaltmışam, - deyib, üzünü bayıra tərəf çevirib qollarını geniş açdı.

Paltarının dalğalı qolları qu quşunun qanadlarına bənzəyirdi. Qadın bir neçə dəfə qanad çalıb havaya atıldı. Zərifə qışqırıb gözlərini yumdu. Gözlərini açanda pəncərədən xeyli uzaqda qu lələyinə bənzər bir şey gördü. Bunun Cahan xanım olduğunu anladı. Sevinən kimi oldu. Qadın yerə çırpılmayıb, demək ki... uçur. Dərindən nəfəs alıb geriyə döndü. Qarşısında Cahan xanımın həkimi dayanmışdı. Gülümsəyirdi.

-Xoş gəldin! – deyib, qızın düz gözlərinin içinə baxdı.

Həkimin əvvəlki soyuq görkəmindən əsər-əlamət yoxdu. Zərifəyə elə gəldi ki, oğlanın gözlərindən onun ürəyinə özünün də anlamadığı bir şey süzüldü. Izah olunmayan nə idisə, qızın

ürəyinə damdıqca ürəyinin döyüntüsü sürətlənirdi. Canına xoş bir duyğu yayıldı. Həkim əlini uzadıb Zərifəni özünə çəkdi. Ətrafa həzin musiqi yayıldı. Zərifənin ürəyindən dövrə vurub rəqs etmək keçdi. Ayaqları tərpənmədi.

Qəfildən gözlərini açdı. Yatağında idi, amma o musiqi səsi hələ də qulağında səslənirdi. Gözlərini dolandırıb ətrafa baxdı. Başında bərk ağrı hiss etdi. Başa düşdü ki, musiqi səsi telefonundan gəlir. Əl havasına telefonunu axtardı. Səhər onu oyatsın deyə telefonu işdə qaldığından çoxdan işlətmədiyi telefonunun saatını qurmuşdu. Musiqi ona həm tanış, həm də uzaqlardan yayılırmış kimi gəldi. Telefonun düyməsini basmaq istəmədi. Otağının qapısı yüngülcə döyüldü.

- Qalx, qızım, işə gecikərsən ha, qalx. Ac çıxma evdən.

Zərifə gördüyü yuxunun təsirindəydi. «Nə qəribə yuxu idi?! Deyirlər, yuxunu tərsinə yozmaq lazımdı. Yəqin, düz deyirlər, şaxta həkim yuxuda necə yumşalmışdı...» Telefonu söndürüb ayağa qalxdı...

* * *

Metro stansiyası ilə iş yerinin arası iki yüz metr olardı. Işə bağın içindən keçib gedirdi. Bu gün hava çiskindi. Xiyaban çox yağış tutmurdu, Zərifə çətiri açmaq istəmədi. Yol boyu yuxusu lent kimi bir neçə dəfə gözünün qabağından keçdi. qulaqlarında o həzin musiqi sələndi.

İdarənin binasına girdi. İş otağına gedən dəhlizdə Səfər müəllimlə rastlaşdı.

- Sabahınız xeyir, Səfər müəllim. Necəsiniz?

- Sabahın xeyir, qızım, - deyib keçib getdi.

Zərifə təəccübləndi. Dilli-dilavər Səfər müəllimin sərin-soyuq salamlaşıb keçməsini görüb Zərifə pərt oldu. «Yəqin nəsə baş verib», fikirləşdi. İş otağına girəndə hamını ayaq üstə gördü. O dəqiqə hiss etdi ki, nə isə olub. Sual dolu baxışlarla iş yoldaşlarına zilləndi. Masa qonşusu Murad:

- Xəbərin yoxdu... – dedi.

- Nədən?

- Cahan xanım...

- İntihar edib?! - Zərifə tələsik soruşdu.

Murad təəccüblə:

- İntihar niyə? Onsuz da xəstə idi. Sonu bəlli idi.

Zərifə özü də çaşıb qaldı. Niyə belə bir söz işlətdiyini bilmədi. «Doğrudan a, məgər ayağa qalxmağa taqəti vardı? Yazıq qadın, neçə gündü huşsuz kimi idi...»

Nazilə xanım söhbətə qoşuldu:

- Saat ikidə götürəcəklər. Nə gözəl insan idi. Bax, yer-göy də onun üçün ağlayır.

Zərifə qeyri-ixtiyari pəncərəyə baxdı. Yuxusunda gördüyü geniş, işıqlı pəncərəni xatırladı. Ağ geyimli, qu quşuna bənzəyən Cahan xanım gözlərinin qabağına gəldi. «Bəs deyirlər, yuxunu tərsinə yozmaq lazımdı». Ürəyi sıxıldı. Başındakı ağrı səhərkindən də kəskin idi. Bir neçə saniyə gözləri qaraldı. Keçib yerində oturdu. Otağa sükut çökdü. Heç kim danışmırdı. Nə danışaydılar axı?

* * *

Cahan xanımın yaşadığı evin qarşısında iki böyük mağar qurulmuşdu. Həyət adamla dolu idi. Cənazə evdə qoyulduğundan Zərifəgil mənzilə qalxmalı oldular. Liftin qabağında da adam çoxdu. Yas yeri binanın 11-ci mərtəbəsində olduğundan camaat dayanıb lifti gözləyirdi. Zərifə özünü yaxşı hiss etmirdi. Nəhayət, növbə onlara çatdı. Zərifə, Murad və daha üç iş yoldaşı liftə mindilər. Lift yerindən tərpənəndə Zərifənin ürəyi yerindən oynadı, nəfəsi təngidi. Qeyri-ixtiyari Muradın qolundan yapışdı. Lift dayanardayanmaz özünü bayıra atdı. O andaca huşunu itirdi.

* * *

...Gözləri pəncərəyə zillənmişdi. Pəncərədən o yana narın qar yağırdı. Bu il bir qəribə qış gəlmişdi Bakıya. Aləmi bir-birinə qatan küləklər qeybə çəkilmişdi. Bu qar da Bakı qarına bənzəmirdi. Sanki nağıllardan gəlmişdi, Şaxta baba gətirmişdi. Qalxıb pəncərəyə yaxınlaşdı. Xəstəxananın hasarından o yanda insanlar bəxtəvər-bəxtəvər o yan-bu yana gedirdilər. Xoşbəxt uşaqlar qartopu oynayırdılar. Qapı döyüldü. Zərifə sol çiynindən geriyə boylanıb «gəlin» dedi. «Şaxta həkim» qapıda göründü. Gülümsəyərək:

- Zərifə xanımın kefi necədi?

- Çox yaxşıyam, doktor. Nə gözəl qar yağır, bir şaxta babamız əksikdi.

- Zərifə xanım istəyirsə, şaxta baba da sifariş verərik.

Zərifə qımışdı. Bir vaxtlar qarşısındakı həkimə ədalətsizcəsinə «şaxta həkim» dediyi yadına düşdü.

- Nəyə gülürsən?

- Heç, bir şey yadıma düşdü. - Zərifə hələ də gülümsəyirdi.

- Nəsə gülməli bir şeymiş, bu soyuq gündə səni güldürür.

- Əslində, gülməli deyil, bir balaca haqsızlıq eləmişdim. Ilk baxışdan bir adama «Şaxta baba» demişdim.

- Aaa, bəlkə elə o Şaxta babanı dəvət edək?

Zərifə özünü saxlaya bilməyib qəhqəhə çəkdi. Həkim də ona qoşuldu. Zərifə doyunca gülüb:

- Doktor, siz nəyə gülürsünüz? - deyə soruşdu.

- Nə bilim, sən elə gözəl güldün ki, gülməmək günah olardı.

- Bir bilsəydiniz kimə gülürəm.

- Doğrusu, çox bilmək istərdim, səni belə güldürən o bəxtəvər kimdi?

- Bəlkə bir gün yeri gələr, deyərəm.

- Yaxşı, zərif qız, keç yerinə, bir baxaq görək nə var, nə yox?

- Özümü çox yaxşı hiss edirəm.

- Görürəm. Amma bir imkan ver vəzifəmizi icra edək. Bir təzyiqini yoxlayaq. Qolunu çırmala.

- Bəlkə ehtiyac yoxdu? - ürəyi sürətlə çırpınırdı. Zərifəyə elə gəldi ki, həkim təzyiqini yoxlayanda ürək çırpıntılarını da hiss edəcək.

Həkim cihazı qutusundan çıxara-çıxara:

- Qolunu çırmala, - dedi.

Həkim təzyiq ölçənin sarğısını Zərifənin qoluna keçirəndə qızın canından üşütmə keçdi.

Həkimin dodağı qaçdı...

- Hər şey qaydasındadı. Səndən razı qaldım. - Cihazı yığışdırıb, - mən gedim, sən də dincəl. Amma nə qartopu oynamalı havadı...

Şəhərin üzərinə axşam çökürdü. Qar dünənkinə nisbətən daha gur yağırdı. Şəhər lampalarının işığında qar dənələri kəpənəyə bənzəyirdi. Ağaclar elə bil nəhəng pambıq kollarıydı. «Ağ qaraya nə gözəl yaraşır. Bu qədər gözəl qış gecəsi görməmişdim. Bu gün mütləq Cavid doktordan icazə almalıyam. Beş dəqiqəlik də olsa aşağıya düşməliyəm. Harada olsa indilərdə gələr».

Gecə keçirdi. Zərifə darıxdığını hiss etdi. Qapını açıb dəhlizə çıxdı. Cavid həkimin otağına gedib icazə almağı düşündü. Elə bu vaxt gördü ki, dəhlizin başından həkim gəlir.

- Deyəsən, darıxırsan.

Qız xəfifcə gülümsəyib:

- Doktor, sizin yanınıza gəlirdim, - dedi.

- Xeyirdi?

- Xeyirdi.

- Onda əvvəlcə, gəl bir səni müayinə edim. - Otağa girdilər. - Bu gün özünü necə hiss edirsən?

- Çox yaxşıyam.

- Belə davam etsə, deyəsən, səni tezliklə evə buraxacağam.

Zərifə başını qaldırıb düz həkimin gözlərinin içinə baxdı. Sanki baxışlarıyla ona «doğru deyirsən, həkim» deyirdi.

Cavid həkim qızın baxışlarına tab gətirə bilməyib, ürəyində özünü qınadı. «Deyəsən, səhv etdim. Amma kaş ki elə olaydı».

Zərifə hiss etdi ki, həkimin kefi pozuldu.

- Bəlkə mən heç buradan getmək istəmirəm?

- Onda gərək ixtisasını dəyişib həkim olasan.

- Burada qalmağın başqa yolu yoxdur?

Cavid söhbəti yayındırmaq istədi. Çünki bu sualın cavabı yox idi.

- Yaxşı, bayaq deyirdin ki, xeyir iş var.

- Doktor, sizdən bir şey xahiş etmək istəyirəm.

-Həkimlər həmişə xəstələrinin xidmətindədilər. - Yarızarafat, yarıciddi, - Əmr et! - dedi.

Zərifə məmnuniyyətlə gülümsədi:

- Bax, özünüz dediniz ha.

- Dedim, sözümün də üstündə duraram.

- Mən qartopu oynamaq istəyirəm.

- Bu soyuqda necə qartopu oynayacaqsan? Palton yox, əlcəyin yox...

- Əmr edirəm, mənə palto, əlcək, uzunboğaz çəkmə tapın.

- Heç ağlıma gəlməzdi ki, məni belə çətinliyə salacaqsan. Nə edim, dilim-dilim olsun dilim. Gedim, görüm neynirəm.

- Sizin sərəncamınızda bir saat var.

- Baş üstə, zərif qız!

Zərifə Cavid həkimin paltosunda çox gülməli görünürdü. Paltonun ətəyi topuqlarına dəyirdi. Başını da həkimin şərfiylə bərk-bərk sarımışdı. Xəstəxananın çıxış qapısında Zərifə:

- Mən beş dəqiqəyə qayıdaram. - Həkim də onun arxasınca bayıra çıxdı. - Burada gözləməyin, üşüyərsiz.

- Hansı həkim xəstəsini nəzarətsiz buraxar? Düş qabağıma.

- Mən xəstəxananın həyətində deyil, hasardan o yanda oynamaq istəyirəm.

- Harada istəsən, orada oynayacaqsan.

- Birdən görən olar, sizə söz gələr.

- Hətta işdən çıxarsalar da, sözüm sözdü.

Zərifə düz həkimin gözlərinin içinə baxdı. O gözlərdən nə gözləyirdi? Sonra çevrilib çıxış qapısına doğru irəlilədi. Qar narın-narın yağırdı. Zərifə əyilib yerdən bir topa qar götürdü. Ovcunda sıxıb yumurladı. Əlləri buz kimi olmuşdu. Amma soyuğu hiss etmirdi. Cavid bir az aralıda dayanıb Zərifənin hər bir hərəkətini izləyirdi. Ürəyindən nələr keçirdi, bir özü bilirdi. Zərifə bu gecə çox xoşbəxt idi. Qış nağılı ifadəsini çox eşitmişdi. Belə bir əsər də oxumuşdu. Bu gün o nağılı özü yaşayırdı.

- Bəs biz qartopu oynayacaqdıq, - Cavid deyib, əyilib bir ovuc qar götürdü. Yumrulayıb qıza atdı.

Zərifə də cavabsız qalmadı. Qartopunu necə sərras atdısa, düz Cavidin sinəsinə dəydi.

- Sən lap snaypersənmiş ki, düz ürəyimdən vurdun, - deyib güldü.

Zərifə də güldü:

- Vallah, heç özüm də bilmirdim belə sərras atıcı olduğumu.

Cavid Zərifəyə yaxınlaşıb əlini uzatdı.

- Gəl, gəl, kifayətdi bu qədər. Soyuqlayarsan.

Ikisinin də əli bumbuz idi. Zərifə həkimin otağında əynindəkiləri çıxarıb Cavidə uzatdı.

- Çox təşəkkür edirəm.

- Sən get otağına, mən çay gətirəcəyəm, onda təşəkkür edərsən.

On beş dəqiqə sonra Cavid əlində iki fincan çayla otağa girdi. Zərifə yenə pəncərənin qabağındaydı.

- Sən elə həmişə ayaq üstəsən. Sənə dincəlmək lazımdı. Uzan bir az.

Zərifə gözlərini pəncərədən çəkmədən:

- Dincəlməyə vaxtım çox olacaq, - dedi.

- Gəl, otur, çay içməsək soyuqlayarıq.

Zərifə yaxınlaşıb Cavidlə üzbəüz oturdu.

- Bilirsiniz, yadıma nə düşdü?

- Nə?

- Bir yerdə bir yazı oxumuşdum. Yazırdı ki, əgər Leyli ilə Məcnun ölməsəydilər, evlənsəydilər, nə Leyli Leyli olacaqdı, nə də Məcnun Məcnun. Sizcə doğru deyirlər?

Cavidin üzü ciddiləşdi.

- Qətiyyən! Əvvəla, onlar ölümləriylə eşqlərini isbat etmişdilər. Ölümünə sevməyi bacarmış insanlar yüz il yaşasaydılar da, o eşqin odu sönməyəcəkdi.

- Mən də sizin kimi düşünürəm. Eşqə fəda olmuş insanların ünvanına o sözləri necə söyləmək olar? Bunu daş qəlbli, sevməyə qadir olmayan insanlar söyləyə bilərlər.

* * *

Bayırdan əl-ayaq çəkilmişdi, hər tərəf səssizliyə qərq olmuşdu. Zərifəyə elə gəldi ki, dünya elə bu xəstəxana palatası boydadır. Bu dünyada biz özü var, bir də o... Bütün günü yatmamışdı. Adətən içdiyi dərmanlar yuxu gətirirdi, əzgin olurdu, başının ağrısını səngitsə də, taqətini kəsirdi. Indi heç bir yorğunluq hiss etmirdi, qulaqlarında o telefondakı musiqi səslənirdi, üzündəki təbəssümə mələklər həsəd apara bilərdi. On-on beş dəqiqəlik qartopu oyunu qısametrajlı film kimi gözünün önündə dolanırdı. Içində sözlə ifadə edilməyəcək rahatlıq, məmnunluq vardı. Bir səs: «Heç həyatında bu qədər xoşbəxt oldunmu?» deyə soruşurdu. «Yox, olmadım», bunu pıçıltı ilə dedi. «Və bir daha olmayacaqsan!» Bunu kim dedi? Səs tanış gəldi, xatırlamağa cəhd etmədi. O, indi xoşbəxtdir, indi bəxtəvərdir, quş kimidir, uçmağa qanadı yoxdur... Quş kimi... Quş kimi...

Dan yeri sökülürdü. Hava dumansız, çiskinsizdi. Yer kürə şəklində deyil, düzbucaqlı olsaydı, min kilometrlik məsafə aydın görünərdi. Üfiqdə günəş qızarırdı. Elə bil üç gün dalbadal qar yağmamışdı. Yeni bir gün başlayırdı. Bir daha qar yağmayacaqdı, qar yağmasa, qartopu da olmayacaqdı. Qartopu oyunu, yoxsa... «Dünən xoşbəxt idim... Amma kimsə dedi ki, daha xoşbəxt olmayacağam. Kim dedi? Nə qədər tanış səsdi... Aaa... Cahan xanım, hə, hə, onun səsi idi. Bir daha xoşbəxt olmayacağımı haradan bilir? O bilər, o bilər...»

Zərifə çarpayısının yanındakı dolabın siyirməsini çəkdi, əlvan üzlü bir kitab çıxardı, əlini siyirmənin dərinliyində gəzdirib qələm tapdı. Çarpayıda oturub kitabı dizlərinin üstünə aldı, gözlərini kitabın üz qabığındakı miniatür rəsimləri xatırladan gənc qız və oğlan rəsminə zillədi, ərəb əlifbasını xatırladan yazını oxudu: «Leyli və Məcnun». Kitabın ilk səhifəsini açdı, qələmi alıb yazmağa başladı: «Kiminsə mənə yazığı gəlməsin, xoşbəxtəm, xoşbəxtəm, şaxta həkim...» Kitabı bağlayıb dolabın üstünə qoydu, qələmi də kitabın yanına.

Çarpayının üstündən ağ mələfəni çəkdi, ucuuca qatladı, yenidən dolabı açıb, kiçik bəzəkdüzək çantasını çıxardı. Barmağının ucuyla çantanın içini axtardı. Kiçik qayçını alıb mələfənin qatlanmış yerini yarımdairəvi şəkildə kəsdi. Mələfənin o üz-bu üzünə baxıb, başından keçirdi. Pəncərəyə yaxınlaşdı, tutacaqdan yapışıb özünə sarı çəkdi. Pəncərə taybatay açıldı.

Zərifə düz qarşıya baxdı, şəhər hələ yuxudaydı. Gözlərini uzaqlara zillədi. Qollarını geniş açdı, əyninə keçirdiyi mələfə qoşa qanada bənzəyirdi…

Üfüqdə, dan yerinin qızartısında tənha bir quş ağarırdı…

9x9

FƏRQANƏ

təqdim edir:

Əziz oxucular, “Ulduz”un qapıları istedadlı yazarların üzünə hər zaman açıq olub. Bu dəfə bölgələrdə yaşayan 9 istedadlı gənc yazara 9 sual ünvanladıq. Onları siz də tanıyın.

“Bölgələrdən səslər” ölkəmizi qarış-qarış dolaşacaq, əgər bir gün qapınız döyülsə, bilin ki, gələn “Ulduz”du.

1. Özünüzü oxucularımıza necə təqdim edərdiniz?

2. Bölgələrdən baxanda ədəbi mühitimiz necə görünür və özünüzü ədəbi mühitin içində necə hiss edirsiniz?

3. Kimləri mütaliə edirsiniz, kimlərin yaradıcılığından bəhrələnirsiniz?

4. Hansı mövzular sizi narahat edir, daha çox hansı mövzularda yazmaq istəyirsiniz?

5. Bölgələrdə yaşayan şairin ən böyük problemi nədir?

6. Ədəbiyyat uçuşdu, siz hara qədər uçmaq istəyirsiniz?

7. Özünüzə məktub yazsaydınız, hansı sözlərlə başlayardınız və yaradıcılığınızla bağlı hansı etirafı edərdiniz?

8.Azadlıq sizin üçün nədir?

9. “Ulduz”un oxucularına sözünüz...

Anar GÜLÜMSOY
Kürdəmir

1. Ədəbiyyatda özünü sınayan, arayan, ruhundan şeir eşqi doğan, yazmağa can atan, sözü haqq bilən, sözə and içən Anar Gülümsoy!

2. Hər dövrün ədəbi aləmində məddahlar, fəttahlar olduğu kimi, bu gün də bu qaçılmaz və danılmazdır. Fəttahlarımıza uğurlar.

Ənənə halını almış ədəbi təkrir çərçivələrini bu gün yırtmaq, dağıtmaq, köhnə fikir və ideologiyadan uzaqlaşmaq ümumuğurdur. Məhz özümü fəttahlarla hiss edirəm.

3. Son günlər Uldis Berzinşi (Latviya şairi), təkrarən Orxan Pamuku, Necif Fazili, Rumini oxuyuram.

4. Bəşəri problemlərin hər biri narahatçılıq yaradan ciddi mövzulardır. Yer üzünə atılan hər bomba başıma düşür, hər şəhid köksünə sancılan güllə mənim bağrımı dəlir, hər yetim uşaqla mən də yetimləşirəm, hər dilənçi qocayla mən də əl açıram.

Qaldı ki yazmağa, heç vaxt qarşıma mövzu qoyub əlimə qələm almamışam. O, ruhun, sözün işidir.

5. Şair üçün problem harda yaşamağında deyil, yaşamağa hardan başlamağı bilməməyindədir.

Mən bölgə yazarıyam, kənd «uşağıyam».

Uzandıqca uzanan yovşan qoxulu, ilğımlı boz çöllər yüklədi məni şeirlə.

Günəşin doğuşunu, batmasını seyr edə-edə böyüdüm.

Günəşin hər qürubunda Nəsiminin səsini duymaq, «huu» lanmaq, bütün darağaclarını günəşin kölgəsində görmək «...mən bu cahana sığmazam...» dan da o yanadır, «ənəlhəqqdir».

6. Bəzən qanadlarını hiss edirsən, - uça bilərəmmi - deyib qanadlarını açırsan, uçursan topa buludlardan (dərdlərindən) yuxarıda... bəli, ədəbiyyat əbədiyyətdir, uçuşum düz oradək.

7. Özü ilə şeirləşən, mehrləşən Anar Gülümsoy, sən hələ şair deyilsən.

8. Ruhən vaxtdan asılı olmamaqdır. Cismən yer üzünü addım-addım -gəzməkdir sənədsiz, sübutsuz, sədsiz, sərhədsiz.

9. «Ulduz»u oxuyun ki, ulduzunuz parlasın, uduzmazsınız.

ANA

Ana, ana,
mənə corab toxuma!
əllərinin zəhmətini
ayağıma necə geyim?
Ana, mənə papaq toxu,
ona başımın tacı deyim.

Şəfa VƏLİ
Gəncə

1. Şəfa Vəli... Mənə elə gəlir ki, bütün titullardan daha önəmli olan kəlmələr də var. Məsələn: "Anasının fəxri"... Evdə bacılarım və qardaşım məni belə çağırır...

2. Ədəbiyyatın bölgəsi olmur. Mən elə düşünürəm. Şəmil Sadiqin "Odərlər"ini oxuyub heç vaxt görmədiyim Şuşa üçün darıxıram... Qəşəm Nəcəfzadənin şeirini oxuyub bulvardakı palmaları sığallamaq keçir ürəyimdən... Hər metroya düşəndə Fərqanə Mehdiyevanın "Növbəti stansiya ayrılıq" yazısını xatırlayıram... Çobankənddə bir şair doğulub: İntiqam Yaşar... Amma bu gün Azərbaycanın hər yerində onun "Evdə yoxam" şeirini eşidə bilirəm... Şahinə Könül üçün burnumun ucu göynəyir darıxanda... İndi, siz deyin, ədəbiyyat bölgələri, inzibati ərazi vahidlərinin sərhədlərini qəbul edirmi? Hər dəfə Gəncədən üzü Qazaxa, ya da üzü Bakıya yol başlayanda neçə şeir doğulur yollarda... Bu şeirlər ədəbi aləmdə "Şəfa Vəli" imzasının varoluşudur. Ədəbiyyatın bölgəsi onun misralarında, cümlələrində, epiloqunda, proloqundadır...

3. Mütaliə etmək deyəndə nə qədər yazılan əsər varsa, hamısını nəzərdə tuta bilərəm. Düzdü, hamısını oxumuşam deyə bilmərəm, amma əlimə keçən nə varsa, gözümdən süzülməmiş qalmır. Qaldı bəhrələnmək, elə hər oxuduğumuzdan bəhrələnirik onsuz da. Xüsusi seçdiyim adamlar yoxdu. Xalq bayatılarımızdan, Artur Konan Doylun fəlsəfəsindən, çağdaş türk ədəbiyyatı nümunələrindən, anamın məsləhətlərindən də bəhrələnə bilirəm. Bir də uşaq ədəbiyyatını sevirəm. İndiyədək cəmi bir uşaq şeirim olsa da, uşaq şeirlərini oxumağı sevirəm.

4. Ürəyimin çırpıntısı nəyə köklənsə, misralara da o düzülür. Beynimdə qat-qarışıqlıq yaradan nədirsə, hekayəm o cür alınır. "Sevimli küçəsüpürən"i yazanda da, "Poçtalyona məktub"u öz-özümə söyləyəndə də dünyanın ən narahat adamı olmuşam. Heç bir əsər yazıçının rahatlığının, dərdsizliyinin məhsulu deyil. Bəxtiyar Hidayətin bir şeiri var:

Üstünə gün düşsün yeddi qıvladan,
Dilərəm, sinəndə qar qayım qala...

Sinəsində "qayım qar" olan adamlar necə xoşbəxtdir, İlahi! İnanmıram ki, Allahın taleyini sözə bağladığı insanların sinəsində qar qayım ola... Mümkünsüzdü bu! Ən narahat adamlar elə SÖZ adamlarıdır... O qədər olur ki, Taleh Mansurun bu misrasını qarşıma çıxan hər adama demək istəyirəm: "Ruhun badəsinə söz süz..."

5. Mən Göyçədə doğulmuşam... Şəmkirin dağ kəndində böyümüşəm... Gəncədə yaşayıram... Amma Gədəbəyin Çanaqçı kəndində mənim hekayəmi oxuyan adamlar var. "Çağdaş Novruzəli" hekayəsinə görə Qazaxdan redaksiyaya məktub gəlmişdi. "İdman müəllimi" hekayəsindəki qəhrəmanımın prototipi Sumqayıtda yaşayır və nəinki bu hekayəni, şeirlərimi də oxuyur. Misralarımı üzümə deyib dəfələrlə... Kitabxanada iki qız baş-başa verib pıçıldaşırdı guya: "Bu, bankın dördüncü mərtəbəsindəki qızdı..." Ötən il Dünya Gənc Türk Yazarlar Birliyinin festivalında səhnəyə çıxan kimi yerdən səslər eşidilməyə başladı:

- İnsaf et, qaytar yuxumu,
Səhər işə getməliyəm...

Çıxış üçün başqa şeiri nəzərdə tutmuşdum,

amma “Yuxu” şeirini dedim... “Azərbaycan” jurnalında şeirlərim nəşr olunub. “Ulduz” jurnalında Qəşəm Nəcəfzadə mənim haqqımda yazıb. “525-ci qəzet”də esselərim dərc olunur. Azərbaycan Yazıçılar Birliyinin və Dünya Gənc Yazarlar Birliyinin, Gənc Ədiblər Məktəbi 2-nin üzvüyəm. Məncə, insan “öz”ünü yazanda, yaşadığını, düşündüyünü olduğu kimi təqdim edəndə sərhədlər onun üçün problem olmur.

6. Xoşbəxtliyə qədər... Əgər, həqiqətən də, xoşbəxtliyin qərar tutduğu bir məkan varsa, qanadlarımı qırsalar, yenə uçmağa cəhd edərəm. “Əbədi xoşbəxtliyə” isə çoxdan əl sallamışam. Səhər Əhməd demiş, “Əlvida! Əlvida! Görüşməyənədək!”

7. Özümə məktub?... Maraqlı ideyadı... Bunu edəcəm, söz verirəm. Əgər yazsam, yəqin ki, bu sözlərlə başlayardım: “Ay Gəncə düzünün qışa qalan Laləsi...” Bir məqaləm var, orda Lalənin qadın başlanğıcı simvollarından biri olmasını yazmışam. Bilirəm, birmənalı qarşılanmır bu fikirlər, amma hər kəs öz bildiyi doğruyla yaşayır. O doğrunu onun üçün dəyişdirmək, həmin insanın hardasa inamını, güvənini sıfra bərabər düsturla hesablamaqdı. İnsanlar öz inandıqlarını qorumağa bu üzdən cəhd edir. Boşluqdan qorxurlar... Etiraf edirəm ki, mən də qorxuram inamsızlıqdan... O qədər dua edirəm ki, gözümdə böyütdüyüm insanlar öz dəyərində qalsınlar. Çünki hər itirilən inamla bir az ölür ürəklər...

8. Ürəyim istəyəndə bir Levent Dörter şeirini dinləmək... Ya da əlimə qələmi alandan sonra dünyadan qopmaq... Təəssüf edirəm ki, bu azadlıqdan çox vaxt məhrum qalıram. Adətən, “qələmlə-kağızla eşələnənlər” normal adam kimi qəbul olunmur. Zamanla “həzm olunur” bu insanlar cəmiyyət tərəfindən. Odur ki, yaradıcı insan özünü daha çox çərçivəyə salır, nəinki adi insanlar. Təsəvvür edin, mətbəxdə bişirdiyim xörəyi yarımçıq qoyub qəzet dalınca köşkə qaçdığım zamanlar olub.

9. “Ulduz” oxucularına sözüm həmişə var. Çünki oxumaq əsla vaxt itkisi olmayıb, deyil, olmayacaq da. “Ulduz”u oxusunlar. Oxusunlar ki, Azərbaycan ədəbiyyatının çağdaş dönəmindəki gənc imzaları tanısınlar. Yoxsa küçədə-bacada o qədər eşidirik ki, “əşşi, indi yazan var?!”. Yazan var, əzizlərim, oxuyan da az deyil... Kimsə oxumursa, bu şeirin günahı deyil ki?! Var olsun “Ulduz”umuz!

* * *

Hər səs gələn tərəfin
Yolçusu sevilməz ki.
Payız boyda qəhərin
Sarısı silinməz ki.

Saçlarını yolmağa
Başlayıbdı ağaclar.
Bu mövsüm Xan bağında
Oturmağa ürək var?

Yaxşı ki, yolun düşmür
Bu aralar Gəncəyə.
Baxışımdan üşüyüb
Küsərsən gəlməyinə...

Gərək mən də tez qaçım.
Bakı, Qazax... ya səbr!
Durum qapını açım:
- bu sənsən, oktyabr?

Elnur ABDIYEV
Neftçala

1. Özünə dönəndə özgələşən, özündən dönəndə özünü tapan yolçu.

2. Bölgədən baxanda ilk baxışda ədəbi mühit bölgəsayağı görünür. Amma diqqətlə baxanda yalnız baxdığını, hələ də nələrisə görə bilmədiyini görürsən. Bu gün Azərbaycan ədəbi mühiti sağlam köklərə söykənən, ruhu ilə bu torpağa bağlı olan insanların ortamıdır. Mən hələ özümü bu ədəbi mühitin içində hiss etmirəm. Kimlərsə məni bu mühitin içində hiss edirlərsə, demək, içimdə nəsə var.

3. Mütaliə insanın həyatda qazandığı ən qiymətli varıdır deyərdim. Mütaliə etdiyim isimlər arasında klassiklərin hamısı, çağdaşlardan Salam, Fərqanə, Aqşin, Şəhriyar, Tərlan. Düna ədəbiyyatında ən çox ünsiyyətdə olduğum yazarlar Şekspir, Cek London, Bomarşe, Mopassan, Lope de Veqa, Jorj Sand, Pablo Neruda. Bəhrələndiklərim: Pablo Neruda, Bəxtiyar Vahabzadə, Tərlan Əbilov.

4. Ümumiyyətlə, söz elə bir silahdır ki, istənilən çatışmazlıq mövzudur, yəni hədəfdir. Bir söz adamı kimi onu deyim ki, ədəbiyyatda zaman-zaman bütün mövzulara toxunulub. Amma hər dəfə baxanda toxunulan mövzularda toxunulmazlıq hiss olunmur. Bu gün tam mənada deyə bilərəm ki, toxunulmayan mövzu Qarabağ münaqişəsidir. Daha çox bu mövzuda yazmaq istərdim.

5. Bölgələrdə yaşayan şairin ən böyük problemi bölgələrdə yaşamasıdır. Mərkəzlə mütəmadi əlaqə saxlaya bilməyən şairlər bölgələrdə ruh-ruh bölünürlər ki, bu da bölgəsayağı faciədir.

6. Əlbəttə ki, ədəbiyyat uçuşdur. Uçuş zolağımız insan qəlbi. Mən qəlblərdə ümidlərin doğrulduğu, sevgilərin yoğrulduğu nöqtəyə qədər uçmaq istərdim.

7. Özümdən bir az gileylənər, özümə “heyif bu ömürdən” deyərdim. Etiraf edərdim ki, bəzən yaşaya-yaşaya yaş oymuşam və bunu peşmançılığı bu gün də, sabah da kölgə kimi mənimlə addımlayacaq.

8. Azadlıq mənim üçün ruhun sərbəstliyidir. Ruhum azaddırsa,ismim cismimə təzad deyil. Poeziyada azadlıq qəlibə sığmamaq, şablondan uzaq, kölgəyə sığınmamaqdır.

9. Əziz «Ulduz»sevərlər, hər kəsin bir bəxt ulduzu olur. Sizə arzum budur ki, daim ulduzunuz öz parlaqlığı ilə ruhunuzu oxşasın.

* * *

Gecənin səssizliyinin ağ səhifəsinə
ilk mən yazıram səs yazımı,
sənə yazdığım şeirlə, gələcək!
Göy üzünün ulduz dolu,
tabaq sinəsinə,
baxdıqca gözləyirəm,
bir gün,
mənim də ulduzum gələcək.
Ulduzlar içində axın yoxdur,
mənə mənim ulduzumdan yaxın yoxdur.
Mənim ulduzum sən,
hələ mən yox ikən
cızıldı alnımda adın.
İndi alın yazımı köçürürəm,
gözlərimə gözlərindən səmanın.
Gecənin səssizlik səliqəsini
darayır baxışlarım,
min ulduz içində
ulduzunu arayır baxışlarım!
Göyün sinəsi yanır par-par,
göydən göz vurur,
gözlərimə ulduzlar.

Tural ADIŞİRİN
Şəki

1. Mən Tural Adışirin (Adışirinov Tural Kamil oğlu) Şəki rayonunun Oxud kəndində anadan olmuşam. Hələ məktəb illərindən ədəbiyyata böyük həvəsim olub. Yadıma gəlir, birinci sinifdə oxuyanda Azərbaycan radiosu vasitəsiylə Şəkinin qocaman şairlərindən olan Yaqub Mahirin "Nənə və nəvə" şeirini söyləmişdim. Ədəbiyyata marağı məndə atam yaradıb, uşaqlığım, demək olar ki, saysız-hesabsız kitablar arasında keçib. Özüm ali təhsilli pedaqoqam. Müəllimlər İnstitutunun Şəki filialının Filologiya fakültəsini fərqlənməylə bitirmişəm.

Ədəbiyyat mənim üçün həyatdı. Uca Tanrı da insanı "OL" sözündən yaradıb. Sözü hər zaman müqəddəs bilmişəm, ulu sözə hər zaman bağlı olmuşam. İlk şeirimi XI sinifdə oxuyarkən yazmışam. İlk dəfə respublika səviyyəsində "Bölgələrdən səslər" almanaxında (2012) və bu il "Ədəbiyyat" qəzetinin yanvar buraxılışında çap edilmişəm.

Dərs dediyim Suçma kənd məktəbində də şagirdlərə sevə-sevə ədəbiyyatımızı təbliğ edirəm. Onlarda şeiriyyətə qarşı maraq, istək oyatmağa çalışıram.

2. Azərbaycan ədəbi mühiti özünəməxsusluğu və mövzu rəngarəngliyi ilə hər zaman oxucunu heyrətləndirməyi bacarıb. Azərbaycan ədəbi mühitinin ayrılmaz tərkib hissəsi olan Şəki ədəbi mühiti də öz çəkisi və ədəbiyyatımıza bəxş etdiyi fikir öncülləri ilə seçilir. Bu, bir gənc yazar kimi, bir Azərbaycan vətəndaşı kimi mənim fəxrimdir. Filologiya üzrə fəlsəfə doktoru Kamil Adışirinov Şəki ədəbi mühiti ilə bağlı tədqiqat işi aparıb və illərin zəhməti olan "XX əsr Şəki ədəbi mühiti" kitabını ərsəyə gətirmişdir. Bu kitab ciddi bir ədəbi hadisə sayıla bilər. Çünki, bu Salman Mümtazdan sonra Şəkinin ədəbiyyat tarixinin ikinci dəfə yazılmasıdır.

Əlbəttə! Şəkidə Vaqif Aslanın yanında olmaq ədəbi mühitin qapısından içəri girməkdi. Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) layihələrində mütəmadi yer alıram, Birliyin 2014-cü ildən üzvüyəm. Ötən il nəşr olunan «Bölgələrdən səslər-2» antologiyasının 4 tərtibçisindən biri olmuşam. Tanınmış tənqidçi Vaqif Yusiflinin haqqında ürəkaçan rəyi, ölkənin aparıcı qəzet və jurnallarında dərc edilməyim bunlar hamısı mənim üçün münbit mühitə zəmin hazırlayan amillərdi. Və mən əminəm ki, bu gün Azərbaycan ədəbi mühitində öz üslubum var! Ədəbi mühitə nə qədər bağlı olduğumu, əlbəttə, zaman göstərəcək.

3. Mənim üçün mütaliədə ünvan önəmli deyil. Yaxşı söz, əsl poeziya həmişə məni özünə çəkib. Yaradıcılığını sevərək oxuduğum imzalar da var. Əli Kərimin, Əliağa Kürçaylının, Musa Yaqubun, Esmira Məhiqızının, Ayaz Arabaçının, Ramiz Qusarçaylının, İbrahim İlyaslının şeirlərini maraqla oxuyuram. Hər biri ədəbiyyatımızda, poeziyamızda parlaq imza sahibləridi. Gənclərimizin yaradıcılığının çoxuyla tanışam. Sevinirəm ki, çağdaş poeziyada öz imzasıyla seçilən gənclər yetişir. Bu xüsusda Ruslan Dost Əlinin, Elməddin Nicatın, İntiqam Yaşarın, Taleh Mansurun, Mətləb Ağanın şeirlərini sevərək oxuyur və izləyirəm. Elmi yaradıcılıqda məqalələri ilə Şəfa Vəli, Gülnar Səma mənim diqqətimi xüsusi cəlb edir.

4. Narahat olmaq... bu söz hər bir qələm sahibinin daimi yaşamında başlıca önəm daşıyır. Və bizi - söz adamlarını həyatın özü narahat edir. Həyat anlamını necə izah etmək olar ki?! Bu anlama insanın mənəvi, fiziki, hətta, psixoloji yaşantıları daxildirsə, indi görün bir yazarı, bir şairi narahat edənlərin siyahısını tutmaq olarmı?!

İstərdim bəşəri, insanı düşündürən mövzulardan çox yazılsın.Yazıçı, şair üçün mövzu hər zaman var. O mövzunu qəlibə salıb şeir formasında çatdırmaq lazımdı.

5. Mən hər zaman orta və yaşlı nəsil yazarlardan diqqət görmüşəm. Əkbər Qoşalının, Ayaz Arabaçının, Fərqanə Mehdiyevanın həssaslıqla yaradıcılığıma yanaşması məni sevindirib. Bu gün Tural Adışirin imzasını Gədəbəydə, Qazaxda, Gəncədə tanıyan, həvəslə iki bənd şeirini gözləyən varsa, nə xoş mənə!

Mən özüm gənc olmağıma baxmayaraq, öz dəstəyimi gənc yazarlara da göstərirəm. Ədəbi gəncliyin çoxu tanıyır, "Gənc yazarlar ədəbiyyatı" dərgisinin 4 ildi redaktoruyam. Bu dərgini yeni nəsil gənc yazarların təbliği, ədəbi aləmdə tanınması üçün Ucarlı gənc yazar dostum Elçin Aslangillə tərtib etmişik. Dərginin baş redaktoru Elçin Aslangilin özüdü. Çağdaş poeziyamızda elə bir gənc yazar yoxdur ki, burda yayımlanmasın. Biz gənclər də bir-birimizə dəstəyik.

6. Ədəbiyyatın yamacından baxıb dünyanı olduğu kimi görə biləcək qədər uçmaq istəyirəm. Axı, ədəbiyyatın zirvəsi heç vaxt gözlə görülməyib. Nə keçmişdə, nə indi, nə də sabah buna ümid etmək olmaz...

7. İnsanın daxili "mən"i ilə söhbəti həmişə maraqlı alınır. Başqasına deyə bilmədiyini öz daxili aləminlə danışmaqla təskinlik tapırsan.

Hər bir şairin şeirləri onun etirafıdı. Kimdənsə nəyisə gizlədə bilərsən, amma, şeirdən əsla! Məmməd Araz gözəl deyib:

-Anadan, bacıdan gizlətdiyimi, Kağızdan, qələmdən gizlətməmişəm...

8. Azadlıq bir şair üçün bütün yaşantılarını olduğu kimi qələmə almaqdı. Ama, gərək o azadlığın da qədrini biləsən. Qoruyasan...

Əsl AZADLIQ – öz məhdudiyyətlərini özünün seçməyindir. Hər kəs azad ola bilər, sadəcə özünü və sərhədlərini tanımalıdır.

9. "Ulduz" oxucularına sözüm odur ki, elə «Ulduz»u oxumaqda davam etsinlər. Mən çox imzaların ilk qaranquş şeirlərini bu jurnaldan oxuyuram. Baharı hiss etmək, qaranquş misralarla mütəəssir olmaq Azərbaycan ədəbiyyatının sabahına olan ümiddi. Ümid-gözəldi axı...

Sözün qədrini bilən oxucuya salam olsun!

* * *

qapına gələcək xoşbəxtlik bu yaz,
axtar o ünvanı gəz ürəyimdə.
dərdimi bir kəsə açа bilmirəm,
qaralıb, pas atıb söz ürəyimdə.
yoxdur bu həsrətə dözməyə halım,
qalmayıb başımda huşum, kamalım,
yanıram oduna düşüb, a zalım,
atəş bəbəyimdə, köz ürəyimdə.

bu dəli könlümdür səndən pay uman,
əgər sevirsənsə od tut, alovlan,
baxışın üstümə səpilən zaman,
elə bil gül açır yaz ürəyimdə

düşmüşəm eşq adlı ağır dərdə mən,
çəkmişəm pis gözə qara pərdə mən,
gəzmərəm nə kənddə, nə şəhərdə mən,
səni axtararam öz ürəyimdə.



Ruslan ƏLƏKBƏRLİ
Mingəçevir

1. 1994-cü ildə qədim Bərdə torpağında dünyaya göz açsam da, özümü ata-baba torpağım olan Kəlbəcərdə doğulub, böyümüş kimi hiss edirəm. Hazırda Mingəçevir şəhərində yaşayıram. Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) IV kurs tələbəsi, AYB-nin Mingəçevir filialının üzvü və həmin filialın nəzdində fəaliyyət göstərən "Mingəçevir qönçələri" adlı uşaq ədəbi birliyinin sədr müaviniyəm.

2. Ədəbi mühitimiz illər öncə bir müddət durğunluq keçirsə də, bu gün öz axarıyla davam edir. Özümə gəldikdə isə hələ ki, yazıram, ədəbi mühitə qoşulmaq üçün zamana ehtiyac var.

3. Qələmə alınan şeir ürəyimə yatırsa, istənilən şairin şeirlərini oxuyub mütaliə edirəm. Həm oxuyub, həm də yaradıcılığından bəhrələndiyim ustad şairlər var: Hüseyn Arif, Səməd Vurgun, Bəxtiyar Vahabzadə, Ramiz Rövşən, Nəriman Həsənzadə, İsmayıl İmanzadə və s.

4. Yazdığım şeirlə narahatlığımı, duyğularımı büruzə verə bildiyim tək mövzu hazırda sevgidir. Elə bu səbəbdən də, şeirlərimin böyük bir hissəsi sevgiyə həsr olunub.

5. Şairlərin yazdığı şeirləri ilk olaraq oxucu ilə görüşdürən ədəbi qəzet və jurnallar bölgələrdə ya yoxdu, ya da çox azdı. Belə olan halda hər kəs paytaxta üz tutur. Ancaq hər kəs ilk cəhdində yer məhdudiyyətindən çap oluna bilmir. Paytaxtda yerləşən mətbu orqanların bəziləri paytaxtdan kənarda da ədəbi mühitin olduğunu ya unudur, ya da xatırlamaq istəmirlər. Mənim xahişim odur ki, sizin bizləri xatırladığınız kimi, onlar da filial sədrləriylə əlaqə saxlayıb mümkün olduqca bölgələrdə yaşayan yazarları yada salsınlar və bu problem öz həllini tapsın.

6. Gözüm heç vaxt yüksəklərdə olmayıb. Qismətimdə hara kimi uçmaq varsa, ora kimi uçacam.

7. Yazdığım məktubu oxuya bilməyəcəyini bilsəm də, yəqin ki, bu sözlərlə başlayardım: "Salam, 13 yaşlı dostum Ruslan!". Edəcəyim etiraf isə 13 yaşımda məni şeir yazmağa vadar edən səbəbkarın adı olardı.

8. Azadlıq göyərçinin qanad açıb səmaya qalxması kimidi. Hər kəs bu dünyada müvəqqəti



məhbusdur. Əsl azadlığımız ruhumuz səmaya qalxdığı zaman başlayacaq.

9. "Ulduz" jurnalı var olduqca ədəbi mühit də var olacaq. Hər kəsə uğurlar. "Ulduz"unuz heç zaman sönməsin!..

* * *

Yaşa həyatını əvvəlki kimi,
Elə bil mən deyə biri olmayıb.
Nə tanış olmuşuq, nə də sevgili,
Bu ölən sevgimiz «diri» olmayıb.

Üzülmə, üzülmək nəyi dəyişir,
Zamanı çəkəsi təhərimiz yox.
Bu olub bitəni yuxu da sanma,
Daha açılası səhərimiz yox.

Demək ki, seçimi düzgün etmədik,
Nə sən mənimsənmiş, nə də mən sənin.
Könlünə, sevginə tən ola bildim,
Mən ola bilmədim ömrünə tənin.

Unut da deyirəm, sanki asanmış,
Heç özüm unuda bilirəmmi ki?
Göz yaşım quruyub gözümdə qalır,
Ürəkdən sevinib gülürəmmi ki?

Neyləyək, bəxtimiz belə gətirdi,
Biz ki istəmirdik ayrı qalmağı.
Sevgi mələkləri vərdiş eləyib
Ən gözəl sevgiyə hicran salmağı.

Tural SAHAB
Gədəbəy

1. Şeirlər, hekayələr və köşə yazıları yazan sadə bir kənd müəllimi. Ən böyük arzusu öz istədiyi kimi yaşamaq, dünya var olduqca onu xatırladacaq əsərlər yazmaq istəyən romantik bir realist.

2. Kəndimizdən Bakıya yox - göy üzünə- ulduzlara, sonsuz boşluğa baxıram mən. Fikrimcə, ədəbi mühit gerçək yazarın düşmənidir. Sənət təkliyi, yalnızlığı sevir. Onun üçün nə ədəbi mühitə baxır, nə də özümü onun içində görməyə çalışıram.

3. Son zamanlarda kitablardan daha çox insanları, təbiəti oxuyuram. Yəni Tanrını oxuyur, onun yaradıcılığından bəhrələnirəm. Ancaq yazaram deyən hər kəsi də bacardığım qədər izləməyə çalışıram.

4. Məni ən çox narahat edən məsələlər çökməkdə olan ailə dəyərləri, gənclərin ideologiya boşluğunda olmasıdır. Və bacardığım qədər bunlardan yazıram. Bir də bütün millimənəvi dəyərlərimizin " mentalitet" adı altında hücumlara məruz qalması məni çox üzür.

5. İnsanlardan və kitablardan uzaq olmaq.

6. Ədəbiyyat - yazmaq, yaşamaqdı mənim üçün. Ölənə qədər, cənnətə qədər uçmaq istəyirəm. Dünya adına isə ən böyük hədəfim ədəbiyyat üzrə Nobel mükafatını nə üçün rədd etdiyim barədə bütün dünya mətbuatının yazmasıdır.

7. Yazdığım bütün yazılar özümə məktubdu. Və son zamanlar bütün yazılarımı..." onun adı ilə.." başlayıram. Etiraf kimi çox paxıl olduğumu deyərdim, məsələn, bir gənc yazar hansısa uğur qazananda qibtə edirəm.

8. Üç rəngli bayrağın kölgəsində yaşamaq...

9. Gədəbəyin ucqar bir dağ kəndində Tural Sahab adlı bir yazar var. Uşaqlarınız onsuz da onu oxuyacaq, çalışın, siz də oxuyun.

SEVGİLİ NAĞILI

Yenə görüşdük
Şeirə dönən bir sevginin ilk hecasında…
Mənim baxışlarım,
Sənin gözlərinin qarasından
Ulduzlardan danışdın,
torpağı dinlədim.
Sən göy qurşağı idin,
mən qarışqa.
Gör hardan - hara iməklədim
Balaca bir Uşaqdım
nağıllara inanan,
Ana laylasında
Gül tarlasına yuvarlanan…
Sonra sən gəldin,
Nağıllar şeirə döndü.
O balaca uşaq
O gül tarlasında öldü…

Furqan SADİQ
İsmayıllı

1. Bütün təqdimatların sadə olmasının tərəfdarıyam. Sadəcə Furqan.

2. İnternet portallarının varlığı bölgələrdən ədəbi mühitə qoşulmağa şərait yaradır. Ədəbiyyat saytları olmasaydı, inanmıram ki, bölgədə yaşaya-yaşaya ölkənin ədəbi mühitini görmək mümkün olardı. Sualın ikinci tərəfinə gəldikdə isə, tənqidçilərimizin təhlillərində adımı görmədiyimə görə özümü ədəbi mühitdə yox sayıram.

3. Son vaxtlar türk poeziyası ilə maraqlanıram.

4. Məni narahat edən pozğunluğun ədəbiyyatda geniş yayılmasıdır. "Ədəbiyyat" sözünün kökü ədəbiyyatdan yox olub.

5. Bölgədə yaşayan şair internetdən istifadə edə bilmirsə, özünü öldürsə də, ölkə ədəbi mühitinə qoşula bilməyəcək. Fikrimcə, internetdən istifadə edə bilən bölgə şairi istədiyi şəkildə əsərlərini mətbuatda çap etdirə bilər.

6. Elə bir hədəfim yoxdu və olmayacaq. Hazırda budağa qonmuşam.

7. Bu sualı cavabsız qoyacam.

8. Azadlıq bir stəkan çaydı. Yanında şirniyyatı olsa, daha yaxşı olar.

9. "Ulduz"un oxucularından üzr istəyirəm.

ETMƏDİYİM DUALAR

sağ əlim qaşınır,
nəyəsə yozurlar.

sol əlim qaşınır,
yozurlar yenə.

daha bilmirlər ki,
etmədiyim dualardı,
qaşındırır ovcumu...

Vüsal OĞUZ
Oğuz

1. Vüsal Oğuz - yazmaq istəyən biri. Özüm haqqında onu deyə bilərəm ki, 10 yaşımdan ilk şerlərimi yazmağa başlamışam (1987). Müxtəlif almanaxlarda, dövrü mətbuatda çap edilmişəm. Türkiyədə işıq üzü görmüş Türk Dünyası Şairlərinin Antologiyasında yer almışam. 2006-cı ildə ilk şerlər kitabım işıq üzü görüb. Hazırda ikinci kitabımı çapa hazırlayıram. Mütəmadi olaraq şerlərim və tarixi araşdırma yazılarım dərc olunur.

2. Şükürlər olsun ki, bugünkü ədəbi mühitə qoşulmaq imkanı 90-cı illərdə olduğundan daha rahatdır. Amma bu gün də ədəbi mühitdə boşluq var və bu boşluq get-gedə artır. Ilk olaraq, real ədəbi tənqid yox dərəcəsindədir. Çox təəssüf ki, bölgələrdə fəaliyyət göstərən ədəbi dərnəklər və yaxud AYB-nin filiallarının fəaliyyəti zəifdir.

Özümü ədəbi mühitdə hiss edirəm. -mütaliəmlə, ara-sıra yazılarımla, fəaliyyətimlə. Amma bölgə yazarı kimi bir qədər kənardayam. Söz yox ki, burda özümün də günahım var...

3. Maraqlandığım şair və yazıçıları izləyirəm. Son vaxtlar Cəlil Cavanşir, Aqşin Yenisey, Ayaz Arabaçı, Qan Turalı, Qismət Rüstəmov, Şəhriyar Del Gerani, Çingiz Abdullayev, Kamal Abdulla və adını çəkmədiyim bir çoxlarını. Gənc yazarlardan Ruslan Dost Əli, Şəfa Vəliyeva, Tural Adışirinın yazıları xoşuma gəlir. Xarici ədəbiyyat da əlimə keçdikcə (nəsr) mütaliə edirəm.

4. Bəşəri mövzular, Qarabağ və ailə-məişət mövzuları narahat edir. Bu mövzularda sanballı əsərlər istərdim yaransın. Maraqlıdır ki, 4 il davam edən Böyük Vətən müharibəsi haqqında maraqlı və layiqli əsərlər yaradan Azərbaycan ədəbiyyatı Qarabağ savaşından bəhs edən sanballı əsər ortaya qoya bilmədi. Özümə gəldikdə isə ən çox tarixi və günümüzün reallıqlarını əks etdirən mövzularda yazmaq istərdim. Son vaxtlar bir-iki hekayə yazmışam Qarabağ savaşının ağrıları ilə bağlı. Gələcəkdə bu mövzuda fərqli bir şey yazmaq istərdim.

5. Bölgələrdə yaşayan şairin ən böyük problemi ədəbi dərnəklər və toplantılarda iştirak edə bilməməkdi. Hər hansı təqdimat, toplantı və ya ədəbi bir məclisə uzaq bir bölgədən gəlmək, qoşulmaq çətin və bəzən də mümkünsüzdü. Bölgələrdə fəaliiyət göstərən AYB-nin filialları hələlik bu sahədə ciddi işlər görə bilmir. Ədəbi dərnəklər isə lazımi səviyyədə qura bilmir öz işini. Bölgə yazarı üçün tanınma və çap olunma kimi problemlər də öz yerində qalır. Bir sözlə, bölgə şairi bölgə ədəbiyyatını yaradır. Amma unutmaq olmaz ki, bu gün ədəbi mühitdə tanınan imzaların böyük əksəriyyəti bir vaxtlar bölgə mühitindən yaxasını qurtara bilənlərdir, məncə, bu sahəyə diqqət və qayğı ayrılmalıdır.

6. Əlim qələm tutan günə qədər (klaviaturada yazmağı saymıram.) Məncə, hər bir yazarın Şairin hədəfində olduğu məqam olmalıdır. Ədəbi mühiti səma hesab etsək, məncə, hər bir şair o məqama kimi uçmaq istəyəcək. Mən də hamı kimi ....

7. Özümə məktub yazsaydım, ilk sözüm belə olardı: Çoxdandır görsənmirsən.

Yaradıcılığımla bağlı etiraf ediləsi fikirlərim çoxdur. Bir müddət ədəbiyyatdan, şeirdən tamam uzaqlaşdım. Bunu indi də özümə bağışlaya bilmirəm. Gənclik illərində ən çox sevgi şeirlərinə yer verirdim. İndi oxuduqca bəzən özümə də qəribə gəlir ki, nədən başqa mövzuda yazmırdım. Yarımçıq qalan bir neçə yazım var. İnşallah, onları da tamamlayıb oxucuların ixtiyarına

verəcəm. Amma onu da etiraf edim ki, istədiyim əsəri hələ də yaza bilməmişəm. Bəlkə də heç vaxt yaza bilməyəcəm.

8. Azadlıq anlayışı bir qədər geniş məhfumdur - İstədiyin qıza sevgi şeri yaza bilirsənsə, azadsan. O şeirində sevgini etiraf edə bilirsənsə, azadsan. Səni anlayanlar varsa, səni duyan varsa, azadsan. Qəlbindəkiləri heç kim oxuya bilmirsə və sən qorxusuz fikirləşə bilirsənsə, azadsan.

9. "Ulduz" oxucularına sözüm - "Ulduz"u oxuyun. Tam səmimi olaraq qəbul edin bu fikirlərimi: son vaxtlar ədəbiyyat sahəsində "Ulduz" jurnalı xüsusi ilə seçilir. Həm tərtibat baxımından, həm də mövzu rəngarəngliyi baxımından. Xüsusi ilə gənclərə, bölgə yazar və şairlərinə yer ayırdığına görə "Ulduz" birincidir. Buna görə Qulu müəllimə və "Ulduz"un ərsəyə gəlməsində əməyi keçən hər kəsə minətdarlığımı bildirirəm. Tanrı sizə yar olsun. "Ulduz"un ulduzu daim parlasın...

* * *

Son vaxtlar baxmıram daha
hava haqqında olan məlumatlara.
Hər gün bir yalan:
Yağış yağacaq,
külək əsəcək,
ya da
gün çıxacaq.
Ya da danışacaqlar
elan olunmamış davadan...
Düzünü deyimmi:
sən gedən gündən
sənsizlik yağır havadan.
Bir az da ayrılıq tökülür
saralan yarpaqlara.
Əslində, nə var ki sevməyə,
unuda bilsən....
Istədiyin gün də
çıxıb gedəsən uzaqlara..
O qızı da verələr ərə.
Sən də gedəsən
hava haqqında məlumat verilməyən yerə.

Məhsəti MUSA
Ağcabədi

1. Özümü təqdim etməyə, əslində, böyük ehtiyac var. Çünki imzam elə imza deyil ki, adım çəkilən kmi hamı tanısın. Amma istərdim ki, məni sadəcə Məhsəti Musa kimi tanıya bilsinlər.

2. İndiki dövrdə bölgə-paytaxt mühitinin fərqi kəskin şəkildə deyil. Hər yerdə internet var, ədəbiyyat saytlarında bir çoxlarının yazısı dərc olunur, sosial şəbəkələr isə yaradıcı insanların birbaşa ünsiyyətinə imkan verir. Bu da onların bir-birinə olan iradlarını, tənqidlərini, təkliflərini özünə bildirməsinə şərait yaradır. Yəni paytaxtdakı hansısa ədəbi birlikdə, məclisdə olmadan da yetişmək, irəliləmək mümkündür.

3. Mütaliədə öz zövqüm mənim üçün əsasdır. Oxuduğum hər bir əsərdə mübarizə, ucalıq, mənəvi yüksəliş, ülvilik, paklıq, böyük insanlıq axtarıram.

4. Dünyanın hazırkı durumu, bəşəri mövzular məni narahat edən mövzudur. Günümüzün problemləri fonunda bu mövzuya biganə qalmaq mümkün deyil.

5. Bölgələrdə yaşayan şairlərin əsas problemlərindən biri normal əlaqə problemidir. Doğrudur, yuxarıda qeyd etdim ki, internet xeyli dərəcədə bu problemin həllinə kömək edir, amma bunu hamıya şamil etmək olmaz.

6. Cılız hisslərlə, qan-qan deməklə gözəl ədəbiyyat yaratmaq olmaz. Mən ədəbiyyatda uçmağı bacarmadım. O ali hissləri yaşamağıma, bütün varlığımla vəcdə gəlib dünyanı qucaqlamağa, kainatı içimdən keçirməyə qadir olduğumu hiss etməyimə baxmayaraq, istedadımın və qələmin gücü yetmədi ki, o məqamı ədəbiyyat vasitəsilə təsvir edim. Bəzən buna görə çox təəssüflənirəm. Bəzən də başqalarının yazılarında görəndə sevinirəm. Onu mən deyə bilmədim, nə yaxşı ki, yazan oldu - deyə...

7. Özümlə söhbətim olur. Bunun içində özümə üsyan, özümə tənqid və s. də yer alır. Amma özümə məktub yazmaq haqqında heç vaxt düşünməmişəm.

8. Azadlıq mənim üçün hər şeydir. Macar şairi Şandor Petefenin sevdiyim bir şeiri var:

Məhəbbətim üçün mən
Canımdan da keçərəm.
Fəqət azadlıq üçün
Keçərəm məhəbbətdən.

İstər milli, istər mənəvi, istər ruhi... İstənilən halda azadlıq mənim həyatımın əsas hissəsidir.

9. "Ulduz" uzun illərin dərgisidir. Hər zaman gənclərin nəbzini tutmağa çalışıb. Bunu bacardığı dövr də olub, bacarmadığı da. Amma əsas olan odur ki, hələ də yaşayır və bir çox tanınmış şair və yazarların ilk addımı məhz "Ulduz"dan keçib. Bu gün bir-birindən maraqlı layihələrlə oxucuların görüşünə gələn "Ulduz"un bütün yaradıcı heyətinə uğurlar, oxucularına isə gözəl zövq arzulayıram.

* * *

(Egey dənizində boğulan 3 yaşlı suriyalı uşaq Aylan Kurdinin simasında müharibənin qurbanına çevrilən bütün körpələrə…)

Qırmızı köynəyi
sevə-sevə almışdılar sənə...
Çox yaraşmışdı…
Gözəl günlərdə,
şad günlərdə geyinəsən deyə
saxlamışdı anan…
Amma səni zülmün əlindən qaçıranda
rənginə baxmadı….
Ya bəlkə də
qarşıdakı qırmızı günlər arzusuyla
həmin köynəyi geyindirdi sənə…
Çox yaraşmışdı…
Hətta o qədər çox ki,
əcəl də yan keçə bilmədi səndən…
Ananın şirin nağıllarına inanıb
"Gözəl yerlər"ə
"Gəzməyə" getmişdin…
Sən nə bilirdin ki,
didərgin düşmək deyirlər buna…
Öz yuvanda yerin olmadığı kimi
sular da qəbul etmədi səni…
Bu dünyada sənə ən sadiq olan
totuş ayaqlarındakı
balaca ayaqqabıların oldu…
Onlar da yaraşmışdı sənə
fotolarındakı saf gülüşün kimi…
Sənə yaraşmayan

bircə ölümün oldu, yavrum!
Dünyanın gözlərinə
əksi düşən ölümün…
Nə düşündün o anda?
Oyandınmı nağıllardan?
Tüpürə bildinmi
dünyanın gerçək üzünə?
Balaca ürəyin partlayanda
Anan keçdimi xəyalından?
Axtardınmı
səni xilas edəcək əllərini?
Və öldümü
son ümidin də?
Bu nə"yatışdır"?
Bu nə sakitlikdir?
Bu yaşda
belə səssiz ölüm qarşılayarlarmı, yavrum?
Bütün sevgisizliklərə şahid olan
körpə gülüm!
Üşüyürsənmi oralarda?
Budur, körpə qızım
məni səsləyir,
məni gözləyir
İndi yedirəcəyəm, içirəcəyəm,
sonra şirin-şirin layla çalacağam ona…
Sənə də layla çalımmı, yavrum?
Eşitmək istəyəcəksənmi məni?
İnana biləcəksənmi -
Səni xilas edə bilməyən
Bu dünyanın adamına?
İnana biləcəksənmi ?
İnana biləcəksənmi ???

VAHİDİN
GƏNCLİK ŞEİRLƏRİ

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, qəzəldə Füzuli yadigarı kimi tanınan, yaddaşlarda iz qoyan, sağlığında olduğu kimi vəfatından sonra da ürəkləri fəth edən Əliağa Vahidin əsərləri müxtəlif dövrlərdə həm dövrü mətbuatda, həm də kitab şəklində dəfələrlə nəşr edilmişdir. Şairin yaradıcılığı filoloq alimlər tərəfindən tədqiq edilmiş, Məmməd Nuru oğlu və Lalə Əlizadə onun haqqında monoqrafiyalar yazmışlar.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda C-347/9300 şifrəli qovluqda saxlanılan, görkəmli tədqiqatçı Əliabbas Müznibin 30-cu illərdə toplayıb tərtib etdiyi, karandaşla, qara və bənövşəyi mürəkkəblə yazılmış, boz cildə tutulmuş, 294 vərəq həcmli əlyazma kitabına Əliağa Vahidin 251 əsəri daxil edilmişdir. Buradakı əsərlərin yazılma tarixləri 1914-1934-cü illər arasındadır. Şairin ilk gənclik şeirləri belə öz bədii dəyərinə, siqlətinə görə diqqəti çəkir. "İqbal" qəzetinin 4 may 1914-cü il tarixli 643-cü sayında çap olunmuş "Müxəmməs"i oxuyanda 19 yaşlı gəncin bu tarixə kimi daha nələr yazdığını təxmin etmək olar. "Olmadım bir ləhzə, yarəb, bu vətən mülkündə şad, Səbrim əksildi, günü-gündən qəmim oldu ziyad" misraları ilə sözə başlayan şair şeirdə etimad etdiyi adamların bivəfalığından şikayətlənərək fələyin əlindən dad edir. Özünü rəhmsiz çərxin əlində bir şikar kimi görür və onun iqbalının şamını söndürdüyünü, ona daim zülm verdiyini, qəmlərə artıq tab gətirə bilmədiyini qeyd edir:

Dərdü qəmdir bəstərim eşq içrə hər gün həmdəmim,
Bir müalic tapmadım, ta eyləsin dəfi-qəmim.
Buteyi-dərdü qəm içrə yandı, məhv oldu tənim,
Böyləmi keçsin, rəvadırmı, həbibim, aləmim?
Bəs deyilmi çərxi-dun eylər mənə bunca inad.

Gəldi könlüm təngə, Vahid, qüsseyi-dövrandən,
Yoxdu bir kimsə, xəbər tutsun da mən nalandən.
Bədtər oldu xaneyi-dünya mənə zindandən,
Səbrü aramım kəsildi naləvü əfğandən,
Qüssəvü dərdü bəladən olmadım bir ləhzə şad.



"Məzəli"nin 5 sentyabr 1915-ci il tarixli 35-ci sayında çap olunmuş bir satirik şeirində artıq başqa Vahidi görürük. Cahil atanın dilindən oğula verilən nəsihəti oxuyanda Mirzə Ələkbər Sabirin "Oxutmuram, əl çəkin" satirasındakı savadsız, nadan atanı xatırlayırıq. Zəmanədə elmdən bir səmər olmadığını, elmin bir kimsəni xoşbəxt edə bilməyəcəyini, dərs oxumağın hədər olduğunu oğluna başa salmağa çalışan ata deyir:

Burax təriqi-məktəbi, yüyürmə rahi-sənətə,
Bu qədri salma başını bəlavü dərdü möhnətə.
Məcazdə dolanginən, baxan hanı həqiqətə,
Həmişə talib olginən cahanda qətlü qarətə.

Ata oğluna zalım olmağı, fəqirlərə daim zülm etməyi, adam öldürməklə şöhrət qazanmağı məsləhət görür və deyir ki: fikrini elmə verənlərə, millət qəminə görə yuxusunu haram edənlərə, millətin dərdini çəkənlərə kimsə qiymət verməz, belə işlərə baş qoşma, hətta "Qəm etmə, olsa da əgər əsir qeyrə millətin".

Vahidin 1919-cu ildə qələmə aldığı "Bir əsgərin hissiyyatı" adlı şeirdə daha başqa bir şair görürük. Artıq çar dövrü keçib, Azərbaycan Demokratik Cümhuriyyəti yaradılıb. Zəmanədən şikayət edən, nadanlığı, cəhaləti tənqid edən Vahid "Qeyrətli kişi qan axıdar ruyi-zəminə, Qoymaz girə ədanı o, hərgiz vətəninə" yazır və şüar kimi səslənən bu beyt şeirin hər bəndində təkrarlanır. Şeirdə vətənpərvərlik duyğuları tərənnüm olunur, gənclər qəhrəmanlığa, vətən qeyrəti çəkməyə çağırılır:

Hifzi-vətən artıqdı bizə madərimizdən,
Haydır, keçəlim şövqilə canü sərimizdən,
Əda qanını silməyəlim xəncərimizdən.
Qeyrətli kişi qan axıdar ruyi-zəminə,
Qoymaz girə ədanı o, hərgiz vətəninə.

Şair insanları himmət etməyə, qarşıda durub qan tökməyə hazır cəlladları məhv etməyə, bu yolda bütün var-dövləti sərf etməyə, həm dillə, həm silahla düşmənləri məhv etməyə səsləyir, sonda "Ölkə hamısı ölməyə şövqilə mühəyya" deyərək azəri oğullarının vətən yolunda bir nəfər kimi ölümə hazır olduqlarını bildirir.

Vahidin 1920-ci ildə yazdığı şeirlərində artıq inqilab havası duyulur. Şair "Bədri-kamil olarız, biz yenə olsaq da hilal" misrasilə başlayan qəzəlində yazır:

Övci-qeyrətdə ucaldıqca ədalət günəşi,
Payimal olmarız hərgiz bu qədr sayəmisal.

Zülm məhv olmasa, rahət yaşamaz növi-bəşər,
Zülmü məhv etməyə cəhd eyləyəlim hər məhü sal.

Söyləməzmiydim ədalət günəşi parlayacaq,
Şimdi saçmış, gəliniz, eyləyəlim istiqbal.

Şair bu şeirdə kasıbların haqqını tapdalayanların ədalət məhkəməsində cavab verməli olacaqlarına, dünya xalqının inqilab ilə tərəqqi əldə edəcəyinə inanır, şərəf və izzətin zəhmətlə qeyd edir və insanlara üz tutaraq fikrini belə tamamlayır:

İstəsən aləmə fateh kimi qalib gələsən,
İnqilabın, çalış, al bayrağın ancaq, ələ al.

Vahidin 1921-ci ildə "Azərbaycan füqərası" qəzetində dərc edilmiş şeirlərində hürriyyətə çağırış nidaları eşidilir. Qəzetin 28 oktyabr tarixli sayında "Əlacımız" adlı şeirdə yazır:

Nə Xızra bağlıdır, nə Məsihə əlacımız,
Zəhmətlə hasil olmalıdır ehtiyacımız.

Qılsaq kədərdən ayineyi-qəlbi saf əgər,
Haşa ki, səngi-tənilə sınsın zücacımız.

Bazari-rəzmə çəksəm əgər can mətaini,
Şəmşiri-abidar ilə artar rəvacımız.

Göründüyü kimi, peyğəmbərlərə pənah aparan insanların, hər şeyin yuxarıdan hazır gələcəyini düşünən kütlənin maariflənməsinə çalışan şair onları doğru yola dəvət edir, ehtiyacdan qurtulmağın yolunu zəhmətdə görür və onlara bildirir ki, tənə daşlarından xilas olmaq üçün ürək aynamızdakı kədəri silməliyik. Daha sonra yazır ki, biz hürriyyət ilə dirilik tapmışıq, əsarət altına düşməyi qəbul edə bilmərik. Əgər biz ədalət işığı ilə nurlansaq, zülmət buludlarını bir anda məhv edə bilərik. Düşmən sözünə inanıb qəflətə düşməyək ki, rəzillər, alçaqlar ilə bizim birliyimiz mümkün deyil. Zalımların ömrünün kökünü kəsməsək, cahanda sevinc, fərəh tapa bilmərik. Biz kasıbların fədasıyıq, zülmkar şahları yıxanlarıq, əgər nicat istəsək, gərək daim əsgər olaq, bundan başqa əlacımız yoxdur.

Həmin qəzetin 1921-ci il, 24 noyabr tarixli sayında gedən "Hürriyyət tərənəsi" adlı şeir də bu şeirlə səsləşir. İctimai-siyasi məzmunda yazılmış hər iki şeir qəzəl janrındadır.

Artardı zülmü zillət içində əzabımız,
Göstərməsəydi mehri-rüxün inqilabımız.

Məzlumə zülm edən yetəcəkdir cəzasına,
İştə budur ədulərə qəti cəvabımız.

Bədxahi-xəlq olan görəcək öz qiyamətin,
Vəqta quruldu ədlilə yövmül-hesabımız.

Bilməzmi eyşü nuşilə sərməst olan dəni,
Fəqr ölkəsində xuni-dil olmuş şərabımız.

İnqilab günəşi doğmasaydı, zülm içində əzablarımız gün-gündən artardı. Yoxsullara zülm edənlər bir gün cəzalanacaq, xalqın bədxahları hesab günündə mütləq ədalət divanı qarşısında cavab verəcəklər. Şair sual edir ki, məgər eyş-işrət içində kef çəkib məst olan alçaqlar bilmirlərmi ki, bizim şərabımız ürək qanımızdır? Sonra günəşimiz nurunu cahana saçsa, zülmət buludlarını birdəfəlik məhv edəcək, deyə inamla fikrini belə davam etdirir:

Qılsaq xilas acizi zənciri-zülmdən,
Yüz dəfə Kəbədən olur artıq səvabımız.

Aydın ürəkli şəxslərin aşinasıyız,
Çirkinlər ilə olmaz, əvət, intisabımız.

Şeytan fikirli növi-bəşər canın almağa
Parlaq səmayi-ədldə tiri-şəhabımız.

Ölsək də xoşdur həqqü ədalət yolunda biz,
Düşmən min olsa, zərrəcə yox iztirabımız.

"Azərbaycan füqərası"nın 25 noyabr 1921-ci il tarixli sayında çap olunmuş digər bir qəzəldə də hürriyyət sədası eşidilir. Şair yazır ki, əgər biz yer üzərində rahat yaşamaq istəyiriksə, gərək əsrin məzlumlarını zülmdən qurtaraq. Əgər hörmət, izzət sahibi olmaq istəyiriksə, bu yolda canımızı fəda etməkdən belə çəkinməməliyik. Azadəlik elə bir binadır ki, cahan mülkündə ondan gözəl məqam yoxdur. Başqa çarə yoxdur, nicat istəyiriksə, məqsədimiz uğrunda lazım gəlsə, ölməliyik. Düşmənlərdən intiqam almalı, qaniçənləri birdəfəlik məhv etməliyik.

Bil kim, xərabəzarə dönər, aqibət, yəqin,
Hər məmləkətdə olmaz isə ədlü intizam.

Fəzlü kəmalə cəhd edüb səy qılmalı,
İllərcə qalmışız, yetişir elmsiz, əvam.

Parlar şüayi-elmi-məarif bir əsrdir,
Bilmərrə məhv olmalıdır zülməti-zülam.

Elmilə hakim olmalıyız cümlə aləmə,
Bunca yetər kim, olmuşuz hər nakəsə qulam.

Qəzetin 29 noyabr tarixli sayındakı "Məqsud yetişməksə əgər fəzlü kəmalə, Səy etməliyiz elmə, dönərsək də hilalə" mətləli "Əməl tərənəsi" adlı qəzəldə isə şair göstərir ki, elmsiz insan tərəqqi edə bilməz, necə ki, bitkiyə su verilməzsə, onun bəhrəsi olmaz. Dünya məzlumlarının halını nəzərə almaq lazımdır. Bütün insanlar bitərbiyəlikdən dərdə, bəlaya düçar olurlar. Kasıb, yoxsul insanların mənafeyinə çalışmaq lazımdır. Azğınlara həqiqət yolunu göstərmək və bu barədə məqalələr yazmaq gərəkdir, çünki artıq yetər.

Etməzmi kifayət, sitəmü cövri-ədudən
Əbnayi-zəman yetmədə hər gündə zəvalə.

Cəhd etməli azadəlik uğrunda həmişə,
Təbdil edəlim hicr qəmin eyşi-vüsalə.

Şair dövrünün insanlarına daim oyaq olmağı, vəziyyəti qeyrətlə dəyərləndirməyi tövsiyə edərək, hürriyyəti məhv etməyə çalışan, azadlıqsevən insanlara zülm edən düşmənə qarşı vuruşa çağırır.

Əsrin iyirminci illərində yenidən Vahidi satiraya qayıdan görürük. Onun "Kommunist" qəzetinin 8 temmuz, 1924-cü il tarixli sayında çap olunmuş "Sür dərəyə" adlı satirik şeiri din xadimlərinin, daha doğrusu, dindən istifadə edərək özlərinə gün-güzəran qazananların ifşasına həsr olunub. Əsər müxəmməs formasında yazılıb.

Molla göstərdiyi yolla yürü, dönmə geriyə,
Ağa ki əmr elədi sür dərəyə, sür dərəyə.

Desə ərbabi-qələm, cəhd qıl, elm eylə hüsul,
Yəni bielm olan əbnayi-bəşərdən nə vüsul?
Baxma onlar nə desə, molla sözün eylə qəbul,
Hər zaman olsa, gərək mollanın əmri yürüyə.
Ağa ki əmr elədi sür dərəyə, sür dərəyə.

Şair əsas hədəf kimi İran mühitini götürür, məhərrəm ayında müftəxor mollaların bazarının açıldığını qeyd edir. İran şəbgərdanlarından söz açır və biz tərəfdə olan mollanı da ona qatır.

"Molla Nəsrəddin" məcmuəsinin 14 mart, 1925-ci il tarixli sayında gedən "Göz açmağa bir ləhzə naloq vermədi fürsət" misrasıyla başlayan "Bayram tərənəsi" isə var-dövləti əlindən çıxan varlının dilindən təəssüf dolu satirik şeirdir.

Keçmişdə mənim kimi kimin vardı cəlali?
Şanı, şərəfi, hörməti, həm dövlətü mali.
Bayramda düzəldərdim hər il məclisi-ali,
Əhvalıma şimdi yanıram keçmişə nisbət.
Əfsus ki, bu il olmadı bayram mənə qismət.

Məmlüvv idi süfrəm üləmadən, nücəbadən,
Gündüz-gecə sərgərm idik hər zövqü səfadən.
Görməzdik əsər məclisimizdə füqəradən,
Hər məclisim əyan idi, həp sahibi-sərvət.
Əfsus, bu il olmadı bayram mənə qismət.

Bu şeirdə söhbət Novruz bayramından gedir. Amma şairin məqsədi "Gəlsəydi kasıb məclisə, hülqumun üzərdim, Dövlətli gələn vəqtdə edərdim ona hörmət." deyən varlının kasıba olan münasibətini ifşa etməkdir. Artıq zaman dəyişib, bir zaman varlılar bayram edirdi, kasıblar məlul-məlul baxırdı, indisə varlıların vəziyyəti bayram etməyə imkan vermir. Digər tərəfdən də bir çox insanların "Novruz"u dini bayram kimi qeyd etməsindən şəklənən sovet məmurları da bayramı qadağan etmişlər və şair ikitərəfli tənqid yolu tutaraq sonda buna da işarə edir və yazır:

Amma görürəm şimdi elə dinsiz adam var,
Hətta bu gözəl bayramı da eyləmiş inkar.
Cəmşiddən illərcə qalıb yəni bu asar,
Bayram deyə, bizlər də buna etmişik adət.
Əfsus, bu il olmadı bayram mənə qismət.

Göründüyü kimi, Vahid istər çar dövrü olsun, istər demokratiya dövrü, istərsə də sovet dövrü, hər üç zaman kəsiyində dövrün yaxşı cəhətlərini tərənnüm edib, eybəcərlikləri tənqid etmişdir.

Yuxarıda haqqında danışdığımız şeirlərin bəziləri Vahidin nəşr olunmuş kitablarına düşməyib. Böyük həcmli sitatlar verməkdə məqsədimiz onları oxuculara çatdırmaqdır. Bu mənada şairin 15 oktyabr 1925 tarixli "Tofiq Fikrətə bənzətmə" adlı qeyri-mətbu şeiri də maraq doğurur. Məsnəvi formasında qələmə alınmış bu şeirdə gələcəyə, elmin, maarifin çiçəklənməsinə, həqiqətin qələbəsinə böyük inam var. Həmin şeiri bütövlükdə verməyi məqsədəuyğun hesab etdik:

Bir yerdə ki hala ucalurkən bəşəriyyət,
Vəhşiliyi pamal ediyorkən mədəniyyət.

Saçmış şəfəqin gün kimi dünyalara ürfan,
Zülmətdən uzaqlaşmadadır aləmi-insan.

Elmin, hünərin rütbəsi bir payəyə çatmış,
Əbnayi-bəşər göylərə hətta əl uzatmış.

Diqqətlə düşündükcə bu gün dövri-zəmanı,
Həp başqa görürsən bütün övzayi-cahanı.

Məktəb deyə hər kimsədə bir zövq nümayan,
Sənət deyə hər kimsədə bir çöhreyi-xəndan.

Vəqta bütün ətrafı tutub elmilə ürfan,
Bəhrü bərü hər dəmdə dolaşmaq olur asan.

Hər bir kəsə lazımdı həqiqətdə çalışsın,
Olduqca gərək elmilə ürfanə alışsın.

Yalnız nə ki bu yolda çalışsın gərək ərlər,
Onlarla qadınlar da çalışsınlar bərabər.

Zira, qurucu böylə qurub tərzi-həyatı,
Bizdən də həyatın budur ancaq tələbatı.

Əliabbas Müznibin min bir əziyyətlə topladığı, illərlə Əlyazmalar İnstitutunun xəzinəsində oxucu mütaliəsinə həsrət qalan şeirlərin kitab şəklində oxuculara çatdırılmasının gərəkliliyini düşünüb Əliağa Vahidin 120 illik yubileyi münasibətilə həmin əlyazma kitabını transliterasiya edib nəşrə hazırladıq. Həmin əlyazmadakı bəzi şeirlər haqqında "Ulduz" jurnalının oxucularını məlumatlandırmaq istədik. Təbii ki, Vahidin gənclik şeirləri bununla bitmir. Bir çox tarixsiz şeirlərin də məzmununa görə şairin gənc qələminin məhsulu olduğu qənaətinə gəlmək olur. Sadəcə bu kiçik yazımızda yalnız bu qədər bəhs edə bildik. Ümid edirik ki, kitab tezliklə oxucuların ixtiyarına veriləcək.

Sona XƏYAL

AVTOBUS SƏRGÜZƏŞTİ

həyat hekayəsi

Mətanət ULU ŞİRVANLI

"Azərbaycan" Dövlət Nəşriyyatı binasının yanından "20 Yanvar" stansiyasına istiqamət alan 96 nömrəli sərnişin avtobusu hava şarı kimi şişmişdi, ağır-ağır irəliləyirdi. Növbəti dayanacaqda özünü yaşlı, cılız qadından qabaq avtobusa təpən cavan kişi tez-tələsik yoğun gövdəsini qapıya yaxın boş oturacağa atıb yerini rahatladı. Yaşlı qadın başını bulayaraq onun başı üstündə dayandı. Avtobus fısıldayıb yerindən tərpəndi. Bir neçə metr getmişdi ki, arxa sıralardan qiyyə eşidildi. Bir qadın əti kəsilirmiş kimi bağırdı. Sərnişinlər tələşla arxaya boylandılar. Bəziləri qorxularını canlarından atmaq üçün "bismillah" edib əllərini başlarına çəkdilər. Bağırtının arxasınca söyüş eşidildi. Bağıran qadın kimisə gah söyür, gah da məzəmmət edirdi:

- Bəsdi, kəs səsini! Hər şeyin öz vaxtı, vədəsi var...

Avtobus sürücüsü narahatlıqla güzgüdən arxa oturacağa boylanıb - nə səs-küydür orada? - deyə soruşdu.

Bağıran qadından:

- Adə, sənə nə var? Öz işinlə məşğul ol! -

Cavabını alan sürücü ayağını qaza basdı. Bir azdan konduktor əvəzi kişinin yoğun səsi eşidildi:

- "İnşaatçılar metrosu".

Qapı açılan kimi basabas düşdü. Özünü şikəstliyə vuran cavan oğlan ayağını avtobusun trapına qoyar-qoymaz ağlayıb-sıtqamağa başladı:

- Uşağım acından ölür, Allah xatirinə, çörək pulu verin. - Əlini şikəst adamlar kimi, sərnişinlərə uzadaraq ona verilən qəpikləri çirkli pencəyinin cibinə tökdü. Fağır hala saldığı üzünü pul verməyənlərin üzlərinə dikərək yenidən zarımağa başladı. Sərnişinlərdən bəziləri narazılıqla gileyləndi. Sürücünün yoğun səsi avtobusu bürüdü:

-Adə, siz nə həyasız məxluqlarsız, yığdın, düş rədd ol da... - Mühərriki işə saldı. - Bir sürüdür qırılmışlar. Birini qovursan, o biri gəlir. - Üzünü həmin oğlana tutdu: - Bu avtobusa bir də minmə, eşitdin?!

Dilənçi donquldanıb gümrahlıqla özünü maşından yerə atdı.

Arxa oturacaqdan yenidən qiyyə qalxdı. Arxasınca da cingiltili gülüş səsi ucaldı. Sərnişinlər maraq dolu baxışlarını arxaya zilləyib səs-küy salanın kimliyini axtardılar. Bayaq bağıran qadından - yana durun görüm! - əmrini alanlar silkələnərək arxa oturacaqdan aralandılar. Sonuncu cərgə göründü. Axırıncı oturacaqların boş olmasına baxmayaraq, sərnişinlər ayaq üstə durmuşdular. Ayaqlarını geniş aralayıb arxa oturacaqda əyləşən qadının ətrafında boş qalmış oturacaqlara baxıb gülümsədi. Qalib sərkərdə kimi başını qaldırıb özünü dartdı. Biri sellofon torbasını, biri şam ağacını ayaqları arasına alıb daha iki böyük torbanı da sağ və sol tərəflərə yerləşdirdi. Kiməsə məsləhət verirmiş kimi əl-qolunu silkələməyə başladı. Elə bil dəli dərdi başına güc gəlmişdi, səsini atmışdı.

Avtobus ağır güc altındaymış kimi zarıya-zarıya irəliləyirdi. Daşıdığı dəli və ağıllı sərnişinləri müəyyənləşdirilməmiş dayanacaqlarda mindirib, düşürdə-düşürdə yolları biçirdi. Ön sırada əyləşən orta yaşlı, kənd qiyafəli qadın qəflətən əllərini dizlərinə çırparaq: - Vay, səni qanına bələnəsən, - deyə bağırdı. Bağırtının arxasınca əyləci basılan avtobusun təkərinin altından çıxan uğultu ətrafı bürüdü. Sərnişinlərdən bəziləri əyləşdiyi yerdən sürüşüb yerə düşdülər, avtobusun çoxdan yuyulmayan döşəməsini paltarlarıyla təmizlədilər. Ayaq üstə duran, cılız qadın yerə çırpılan yüngül top kimi avtobusun qapısı ağzına düşdü. Əyninə bahalı, qara şuba geyinmiş qadın: - E...e...e, bu nədi belə? Lap biyabırçılıqdır! Üst-başım nə günə düşdü, a kişi, dəlisən, nəsən? Bir az ehtiyatlı ol da, yük daşımırsız axı, - deyə gileyləndi.

Sürücü əsəbiliklə:

- Əşşi, dəli olacağam da. Sərnişin dəli, özünü maşının altına təpən dəli. Cavan oğlandı, canından bezib elə bil. Allah kəssin belə işi. Bir tikə qalıb ürəyimiz.

Əllərini dizlərinə şappıldadan qadın hələ deyinirdi: - Canı ölmüş, nə təhər də özünü maşının altına dürtür e.

Avtobusdakı gərginlik ötməmişdi ki, salonu yenidən qəhqəhə bürüdü.

Sürücü:

- Budey, belələrin daşıyırıq da. Düşüb rədd olanda da qara qəpik də verməyəcək, - dedi.

Avtobus növbəti dayanacağa yaxınlaşdı. Taybatay açılan qapı ağzında görsənən keçəl kişinin avtobusa minmək fikri yox idi. Lakin o, bir ayağını avtobusun trapına qoyub parıldayan daz başını sürücüyə sarı uzatdı, narazılıqla: - Nətərsən? Bu gün bir şey olub? - deyə soruşdu.

Sürücü könülsüz: Belə də..., - dedi. - Sərnişinlərə elə gəldi ki, keçəl kişi sürücünün tanışı, yaxud sürücü yoldaşlarındandır. - Sən öl, mən bu gün bir qəpik qazanmamışam, - deyən kişi qəflətən əlini sürücüyə uzadıb: - Sən Allah, bir çörək pulu ver də... – dedi.

Kişinin sözü ağzından qutarmamış:

- Rədd ol ə, buradan, - deyən sürücü əsəbiliklə ayağını qaza basdı. Avtobus adam çalmaq istəyən ilan kimi fısıldadı. Əsəbiliklə yükünü çəkə-çəkə 1 nömrəli Tibb Texnikumuna yaxınlaşdı. Arxadan kişi səsi eşidildi:

- Burada saxla. Saxla. Saxla, demirəm, sənə?!

- Əşi, imkan ver maşını bir kənara çəkim də...

Kişi - arxa qapını aç, - desə də irəli keçib, ön qapıdan yerə endi. Yola düşən maşın təzə hərəkətə gəlmişdi ki, arxa oturacaqda əyləşən sərnişinlər: - Ay, ay uşaq...uşaq... - deyə bağırdılar. Arxa qapı ağzında qalan cavan gəlin bərk-bərk qapını yumruqladı.

Sürücü əyləci sıxdı. Açılan arxa qapıdan güllə kimi yerə atılan gəlin bir göz qırpımında yoxa çıxdı. Bunu görən sürücü tələşla soruşdu: - Nədi, yenə nə oldu?

Sərnişinlərdən kimsə: - Əşşi, diqqətli olun də. Gəlin düşmək üçün uşağını yerə qoymuşdu ki, siz maşını tərpətdiz. Maşın uşağı tapdalaya bilər axı, - dedi.

Sərnişinlər avtobusun pəncərəsindən uşağını bağrına basan gəlinin həyəcanlı anlarını da nəzərdən qaçırtmadılar. Arxa oturacağı zəbt edən qadın pəncərədən ağlayan uşağa baxıb, növbəti qəhqəhəsiylə avtobusu doldurdu. Sürücü acıqla dəli qadına baxıb:

- Maşından kişi düşdü. Mən haradan bilim ki, qadın da düşmək istəyəcək, - deyib əsəbiliklə qapısı açıq qalmış maşını hərəkətə gətirdi. Elə bu zaman hərəkətdə olan avtobusun açıq qapısı yanında əl-qol ölçə-ölçə qaçan gəlin göründü. Sürücünü söyüb-söylənən gəlin əlini maşına tərəf uzadaraq səsini qaldırdı: - İt oğlu, it. Götür pulunu da.

Sürəti artıran sürücü: - Əşşi, rədd ol yaxamdan. Az qala məni zibilə salacaqdın, - dedi. Gərilən əsəblərini "20 Yanvar" dayanacağına toplaşan insanların üstünə tökürmüş kimi uzun-uzadı siqnal verərək dayanacaqda dayanmadan ötüb keçdi. Avtobusa qəsd edirmiş kimi uzun dairəni dövrə vurmaq üçün maşını mələtdi. "Şamaxinka" deyilən dayanacaqda saxladı. Güzgüdən arxa oturacağa baxaraq dəli qadına çımxırdı: - Az, gəl düş, rədd ol... Yeni il bayramıdır, get yolkanı bəzə.

Qadın kefini pozmadan yeni qəhqəhəsilə sərnişinlərin kefini durultdu. - Düşmürəm, - dedi və yerini bir daha rahatladı.

- Həmişə burada düşürdün axı sən?! Düş, itil, - beynim-başım səsindən dincəlsin!

Qadın: - Əşi, sənə nə var, harada düşəcəyəm, sur arabanı da. Belə mən qonaq gedirəm, sənə nə?! - deyib güldü.

Sürücü sürəti artıraraq yeni tikilən avtovağzala getmək üçün magistral yola çıxmağa tələsdi. Elə bu an avtobusun mühərriki tüstüləməyə başladı. Əlləri qapqara hisə batmış sürücü artıq bir neçə dəqiqə olardı ki, mühərriklə əlləşirdi. Maşının təmirinin tezliklə başa gəlməyəcəyini anlayıb sərnişinlərə:

- Düşüb gedə bilərsiz. Maşın xarab oldu, - dedi. Üz-gözlərini turşudan sərnişinlər narazılıqla avtobusu tərk etsələr də, dəli qadın yerindən tərpənmədi. Sürücü üzünü qadına tutub: -Ay arvad, düş aşağı, - dedi.

Dəli qadın sellofon torbalarını darta-darta avtobusdan düşdü. Cır-cındırla dolu yükünü və şam ağacını yol kənarına yerləşdirəndən sonra sürücünün yanına qayıtdı. Ona əhəmiyyət verməyən sürücüyə: - A şofer, bu camaatı niyə yarı yolda tökdün, hə, - dedi?

Sürücü özündən çıxdı: - Korsan, görmürsən maşın xarab oldu?

- Kor özünsən! Tfu sənin cəmdəyinə, indi mən bu böyüklükdə şam ağacını piyada necə aparacam, - deyib yolu adlamağa tələsdi. Elə bu andaca qarşıdan gələn minik maşını ilə toqquşdu.

Toplaşanlar dəli arvadın halına acıdı:

- Vay, yazıq arvad...

Sonra da öz sellofonundan çıxan çirkli paltardan biri ilə onun üzünü və şam ağacını örtdülər.

SƏN HƏMİŞƏ BİZİMLƏSƏN, "BOY ÇİÇƏYİ"...

Yaddaşa yazılan günlərdən birini yaşadıq – Şuşa Dövlət Musiqili Dram Teatrı ilə. Xalq yazıçısı İlyas Əfəndiyevin məşhur "Boy çiçəyi" ("Sən həmişə mənimləsən") tamaşası ilə. İstedadlı, zəhmətsevər kollektivin bizlərə təqdim etdiyi yaddaqalan həyat səhnələri ilə. Elə tamaşadan əvvəl başlayıb ta bu günə qədər davam edən söhbətimiz də maraqlı oldu: tələbə-teatrşünas Əli Hacılı ilə.

Əli Hacılı: Deyirlər, teatra gələn yoxdu, azdı, demək olar, bütün yerlər tutulub...

Hicran Hüseynova: Bu, təxminən 8-10 il əvvəl idi. Çox sevindirici haldı ki, bu gün tamaşaçı problemi yoxdu. Yadındadı, keçən teatr mövsümündə də belə idi. Tamaşalara 2-3 gün qalmış biletlər satılıb qurtarırdı. Bilirsən, bu uğurun səbəbi nədir? Birinci növbədə fədakarlıq, sənətə olan təmənnasız, böyük sevgi. O böyük sevgi olmasa, belə gözəl tamaşalar da görünməz olardı bu gün, internetin meydan suladığı, adamların "sosiallaşdığı" indiki mobil zamanda... *(qarderoba yaxınlaşırıq)*

Hicran Hüseynova: Səncə, niyə Stanislavski deyir ki, teatr asılqandan başlayır?

Əli Hacılı: Hə, bu məşhur fikri xatırlayıram, oxumuşam, amma ilk dəfə anamdan eşitmişəm *(güür)*. Məncə, o deməkdir ki, bu mədəniyyət ocağının aurası elə asılqandan başlayaraq hiss olunur.

Hicran Hüseynova: Əlbəttə. Teatr başqa aləmdi. Bilirsən, səhnəmizin nə qədər fədailəri olub. Teatrla yaşayan, nəfəs alan tanınmış rejissorlar, aktyorlar, aktrisalar, geyim üzrə rəssamlar, musiqi tərtibatçıları...

Əli Hacılı: Bilirəm, deyəcəksən ki, teatr sinkretik sənətdir.

Hicran Hüseynova: Düzdü, sinkretik sənətdi. Amma teatrın əsas uğuru tamaşaya qoyulan əsərin aktuallığından, bədii keyfiyyətlərindən birbaşa asılıdır. Nə qədər güclü kollektiv olur-olsun, repertuar düzgün seçilməyibsə, dramaturqun demək istədiyi tamaşaçının ürəyindən xəbər vermirsə, bugünlə səsləşmirsə, heç bir müsbət nəticədən söhbət gedə bilməz.

Əli Hacılı: Məncə, düzgün seçim ediblər. İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesi həmişə müasirdir.

Hicran Hüseynova: Hə, həm qədimdi, həm də müasir. Təsəvvür edirsən, bu tamaşa 1964-cü ildən səhnədədir. Sən onun televiziya versiyasına baxmısan, hə?

Əli Hacılı: Hə. Çox xoşuma gəlmişdi, hələ eksplikasiya üçün də hazırlıq vaxtı bu tamaşanı seçmişdim.

Hicran Hüseynova: Bugünkü tamaşa isə modern üslubda hazırlanıb. Bax, aktyorlar səhnədə yox, bizim bir-iki metrliyimizdə oynayır. Buna meydan tamaşası da deyirlər. Loğman Kərimov (tamaşanın rejissoru) yaxşı bir söz dedi. Dedi ki, belədə aktyor yalan oynaya bilmir. Bu, çox böyük üstünlükdü.

Əli Hacılı: Həm də aktyorları daha yaxından hiss edirsən, arada sərhəd olmur...

Bu yaxınlarda Xalq artisti Amaliya Pənahovanın da tamaşayla bağlı xatirələrinə qulaq asdım. Bilirsən də, o, Nargilə rolunun ilk ifaçısı olub. Deyirdi ki, tamaşaya "Sən həmişə mənimləsən" adını rejissor Tofiq Kazımov verib. Pyesin ilk adı "Boy çiçəyi"dir.

Hicran Hüseynova: Deməli, ilkin ada qayıdıblar. Şuşa teatrının da tarixi qədimdi axı. 1874-cü ilə gedib çıxır. İndi isə qaçqın teatrıdır. Qəribə səslənir...

Əli Hacılı: İfadə kədərlidir. Amma əsas odur ki, bu teatr yaşayır, onun yaşaması fəaliyyətidir, necə çağırırlar-çağırsınlar, nə fərqi. Gör nə qədər əsəri səhnələşdiriblər, bizim dramaturqlardan,

dünya ədəbiyyatından... *(press-relizə baxır)*

Hicran Hüseynova: Əsas kəmiyyət yox, keyfiyyətdir...

Əli Hacılı: Düzdür, amma keyfiyyət də var axı. Elə bu tamaşadan danışaq. Hər şey göz qabağındadır: aktyor oyunu, rejissor işi, musiqi tərtibatı,..

Hicran Hüseynova: Musiqi parçaları son dərəcə yüksək zövqlə seçilmişdi. Bu, heç də adi bir missiya deyil. Musiqi tərtibatçısı dram əsərini də, musiqini də eyni dərəcədə həssaslıqla duyan və tamaşaçıya bütün gözəlliyi, estetikasıyla çatdıran biri olmalıdır. Tamaşada da belə idi. Əməkdar artist Azad Məmmədovu (musiqi tərtibatçısı) şəxsən tanımıram, amma əsərin ideyasıyla bu dərəcədə yaxından səsləşən elitar bir musiqi seçimi ilə onu özümə o qədər yaxın hesab etdim ki... Təsəvvür edirsən, iki gün əvvəl T.Albinoninin (italyan bəstəkarı) burda səslənən həmin bu "Adagio G Minor" əsərini facebookda paylaşmışdım. Belə bir başlıq da yazmışdım: havanın ovqatında. O gün o çiskinli, qaşqabaqlı havanın ovqatında idi G Minor, bu gün isə "Boy çiçəyi"nin...

Əli Hacılı: Musiqi tərtibatı çox yaxşı idi. Bildiyimiz kimi, musiqi tamaşanın ayrılmaz hissəsidir. Məncə, bütün musiqilər zövqlə seçilmişdi, amma "Küçələrə su səpmişəm", xalq mahnısı kimi gözəl olsa da, tamaşanın ahəngi ilə üst-üstə düşmürdü. Çünki orda ovqat başqa idi. Məsələn, neçə il əvvəl Rasim Ocaqovun çəkdiyi "Təhminə" filmində bu mahnı öz yerində idi. Bu tamaşada isə, məncə, başqa kədərli, nisgilli xalq mahnısından istifadə etmək olardı. Məsələn, "Aman təklik əlindən"

Aman təklik əlindən,
Bidad təklik əlindən,
Baş götürüb gedərəm,
İnan, təklik əlindən...

Hicran Hüseynova: Pyesdə isə, dəqiq yadımdadır, "Qaragilə" xalq mahnısından istifadə olunub, özü də "Rəşidin ifasında səslənir" qeydi ilə. Eh, gör nə vaxt oxumuşam, səkkizinci, doqquzuncu sinifdə olanda...

Əli Hacılı: ...Bir az da əsərin qəhrəmanlarından danışaq. Məncə, bu səhnə əsərinin əsas qəhrəmanı Həsənzadə obrazıdır. Bu obrazı Azərbaycan teatrında ilk dəfə Əli Zeynalov yaradıb, tərəf müqabili, Nargilə rolunun gözəl ifaçısı, Xalq artisti Amaliya Pənahova ilə. Bu barədə də Amaliya xanım danışdı, biz tələbə yoldaşlarımızla birgə tamaşadan parçalar izlədik. Heyif ki, pyes Azərbaycan Televiziyasının fondunda bütöv şəkildə saxlanmayıb. Televiziya versiyasına isə bütövlükdə baxmışam. Orda

Həsənzadəni Xalq artisti Rasim Balayev canlandırıb, Nargiləni isə hazırda Türkiyədə yaşayan Məlahət Abbasova. Hər ikisi gözəl ifası ilə yadda qalıb. Doğrudan da, Həsənzadə öz insanlığı, ləyaqəti, təmkini ilə bütöv şəxsiyyətdir. Bu böyük şəxsiyyəti müxtəlif situasiyalarda canlandırmaq da aktyordan ustalıq tələb edir. Məncə, Nazir Rüstəmov da Əli Zeynalov və Rasim Balayev kimi, gözəl oynadı. "Möhtəşəm!" deyərdim.

Hicran Hüseynova: Razıyam, Nazir Rüstəmovu bir az da yaxından tanıyıram. Bizim daimi müəlliflərimizdəndir, istedadlı aktyor olmaqla yanaşı, həm də incə ruhlu şairdir. Həsənzadəni də parlaq bir surət kimi yaratdı, səsinin ahəngindən tutmuş, üzünün ifadəsinə, hərəkətlərinə qədər hər şey təbii, səmimi idi.

Əli Hacılı: Elə bil Həsənzadə onun boyuna biçilib.

Hicran Hüseynova: Elədir. Çox gənc olmasına baxmayaraq, Zəhra Salayeva (Nargilə) da ifası ilə ondan geri qalmırdı. Gözəl oynadı. Amma bir iradım da var, qoy deyim: son vida səhnəsində bir ömür atasızlıq yaşayıb ata kimi, dost kimi, sevgili kimi – bu hisslər qarışıb, çulğaşıb sanki – sığındığı Həsənzadəni biryolluq itirdiyini anlayan Nargilə bu dəhşəti bir az adi, bir az soyuqqanlı, sanki elə belə olmalıymış kimi qarşılayır. Heç qapını açıb onu görəndə belə təəccüblənmir.

Başqa bir qüsuru isə yardımçı obrazların olmamasında görürəm, Nargiləni gizli-gizli sevən oğlanın, sarışın rəfiqəsinin...

Əli Hacılı: Məncə, bu obrazların ixtisara salınması heç hiss olunmurdu; tamaşa gözəl şəkildə qurulmuşdu. Düzdü, yardımçı obrazlar tamaşanı dolğunlaşdırır, amma burda oynayan dörd nəfərin peşəkarlığı boşluq yaranmasına imkan vermədi.

Hicran Hüseynova: Yox, bu, təkcə dolğunluq üçün deyil. Yardımçı obrazlar yardımçı mövzunun açılmasına xidmət edir. Bir var əsas mövzu, bir də var yardımçı mövzu. Bu tamaşada əsas mövzu işlənib, yardımçı kənarda qalıb. Düzdü, bəzi ştrixlərlə, məsələn, Nargilənin anası Nəzakətin (Püstəxanım Zeynalovanın) monoloqu – bir kəlmə ilə qeyd edim ki, bu xanım da ona tapşırılan obrazı uğurla yaratmışdı – daxili düşüncələri, həyəcanı ilə məhz müəllifin vermək istədiyi kütlə psixologiyası pislənir, tamaşaçıya mənfi planda çatdırılır. Amma yenə də, məncə, əsas mövzudan



kənara çıxılmayıb. Mərkəzdə Nargilə-Həsənzadə qütbləşməsi dayansa da, əsərin ideyası daha dərindir. "Boy çiçəyi" təkcə məhəbbət əfsanəsi deyil axı (qısa bir haşiyə çıxım ki, qəhrəmanların dilindən səslənən Ağa Laçınlının sevgi şeirləri də çox gözəl idi), bu, həyata yenicə atılan gənc bir qızın cəmiyyətlə, geniş mənada dünya ilə savaşda tək qalması, hər şeydən əvvəl mənəvi dayaq axtarmasıdır... Amma onun həmişə həyatından gileylənən sarışın rəfiqəsi də, demək olar, eyni durumdadır. Müəllif burda nələrdən bəhs etmir ki? İlyas Əfəndiyevin bu pyesi mövzu və ideyasına görə hansı rakursdan baxırıqsa-baxaq, həmişə təzədir, maraqlıdır və kifayət qədər əhəmiyyətlidir. Mən əsərin adındakı rəmzi məna daşıyan "boy çiçəyi" ifadəsini pyesin uğurlu taleyi ilə müqayisə edərdim. Həsənzadə deyir: "Bu elə bir çiçəkdir ki, quruyandan sonra da ətrini itirmir". "Boy çiçəyi" və ümumilikdə İlyas Əfəndiyev yaradıcılığı da belədir; illər keçsə də, ətrini – bədii təsir gücünü itirmir, yetər ki, hiss edə bilək.

Zərəngiz DƏMİRÇİ QAYALI

KƏNDİM

Bir yanın Qarasu, bir yanın Avey,
Axarlı - baxarlı, çinarlı kəndim!
Damcılı bulağın cənnətdəki mey,
Yarpızlı, lilparlı, pencərli kəndim!

Qoynunda xəzinə, dürr Avey dağı,
Damcılı bulağın gözəl yığnağı,
Alimlər, şairlər, pirlər oylağı,
İgidlər yetirən tutarlı kəndim!

"Bəynişan" deyildi oğullarına,
"Çırağban" deyildi sonsuz varına,
Oğulların bənzər səf dağlarına,
Zirvəli, arxalı, sipərli kəndim!

Qazax mahalında Daş Salahlılar,
Oğlu da, qızı da yaşar bəxtiyar,
Tükənməz sərvəti, sonsuz varı var,
Gələcəyi nurlu, baharlı kəndim!

Könüllər söz deyər gözəl hüsnünə,
Mən şükür edirəm bu xoşbəxt günə,
Düşmənini salar tərsə, düyünə,
Qayalı, yarğanlı, səngərli kəndim!

Mirzə Səməd, Paşa nəğmələr qoşdu,
Mehrin, məhəbbətin çoxaldı, coşdu,
Baharın eşqini sanki içmişdi
Qoşmadan, nəğmədən tumarlı kəndim!

Aşığın çağlasın elin toyunda,
Şəfam Damcılının bulaq suyunda,
Zərəngiz dil açdı ana qoynunda,
Sözüm laylasından ovxarlı, kəndim!

İNCİMƏSİN

Bir ciftcə quşum var mənim,
Çox iti huşum var mənim,
Əlimdə işim var mənim,
Dünya məndən inciməsin.

Bu qaragöz- uşaq deyil,
Pöhrə verməz, budaq deyil,
Qəlb dolu köz-ocaq deyil,
Dünya məndən inciməsin.

Qəmin çəkib, aşırmışam,
Hövsələmi daşırmışam,
Halvasını bişirmişəm,
Dünya məndən inciməsin!

Zərəngiz, yolun haraymış?
Bəxtin qurulu saraymış?
Adı elə biçarəymiş?
Dünya məndən inciməsin!

DOĞMA YURDUM

Əziz sirdaş kimi, yaxın dost kimi
qolunu boynuma saldı bu yerlər
Osman Sarıvəlli

Dörd yanı bağçalı-bağlı,
Doğma yurdu sevmişəm mən!
Qalalı, səngərli, dağlı,
Doğma yurdu sevmişəm mən!

Göyləri durna qatarlı,
Şənliyi yazlı, baharlı,
Oğlu, qızı etibarlı,
Doğma yurdu sevmişəm mən!

Kürün nəğməli suları,
Aveyin tükənməz varı,
Sazdı, sözdü yadigarı,
Doğma yurdu sevmişəm mən!

Damcılı zümzüməsi var,
Qədim İncə dərəsi var,
Xanlıqlar mənzərəsi var,
Doğma yurdu sevmişəm mən!

Vidadi, Vaqif qibləsi,
Sənətdə Vurğun zirvəsi,
Hüseyn, Mirvarid nəfəsi,
Doğma yurdu sevmişəm mən!

Hacı Əfəndi pirinə gəl,
Ağamalı, Akif yerinə gəl,
Osmanın sözlərinə gəl,
Doğma yurdu sevmişəm mən!

Zərəngizin eli Qazax!
Yuvası, mənzili Qazax!
Hamıya sevgili Qazax!
Doğma yurdu sevmişəm mən!

"ULDUZ"UN HİCRAN ADLI ULDUZU

Mina RƏŞİD

...Onun imzasını illərdi tanıyıram. 2004-cü ildə çıxan və yeganə kitabı olan "Yaşıl eskiz"lə bağlı yazı da yazmışdım. Hicran Hüseynovanın pritçaları, hekayələri, şeirləri və müxtəlif tipli yazıları qısa, konkret, fərqli olmaqla, həm də düşündürücüdü. Onun baş qəhrəmanı çox vaxt istedadlı, mənən zəngin olsa da, cəmiyyətdə tənhadı. Çünki xorda oxuya bilmir...

Hicran kosmopolit insandı. Düşünür ki, dünya bizim evimizdi. Amma bu böyük evimizin işığını söndürməyə çalışır qəlbi kor olanlar... Tanıdığım yeganə müəllifdi ki, kitabı "Allahın adıyla" açılır. O, insanları çox sevir və hamıya münasibəti təmənnasızdı. Dəyərmi, dəyməzmi kimi sualları özünə vermir. Ondan ki, belə doğulub, yaxşılıqdan zövq alır. Elə buna görə də qəlbimdə ayrıca yeri var bu müəllifin...

Vəfası, zəhməti, cəfası ilə 15 ildir ki, "Ulduz" jurnalının ulduzuna çevrilib Hicran. Hələ tələbə olarkən ondan gələcək arzusunu soruşanda əksəriyyət televiziyaya maraqlı olsa da, o, "Ulduz" jurnalının adını çəkib. "Nədən?", "Niyə?", deyir, heç özüm də bilmirəm. Elə tale də onu "Ulduz"una qovuşdurub.

Həmişə düşünürəm ki, nədən bu cür yazıları olan belə istedadlı müəllif qəzetlərdə, saytlarda, müxtəlif mətbuat orqanlarında tez-tez çıxış etmir. Deyir, illərdi ki, özünü bir ana kimi arxa plana çəkib, uşaqlarına, necə deyərlər, həyat dərsi keçir. "Hərdən mənə deyirlər ki, tənbələm, amma küçədə, avtobusda, dayanacaqda... belə uşaqlara nəsə öyrətməyə çalışıram. Onlara məktəbdə tədris edilməyən mahnıları öyrətmişəm, folkloru, Azərbaycan dilini sevdirmişəm. Çalışmışam ki, həyatı başa düşsünlər, ziyalı kimi yetişsinlər. Estetik tərbiyələriylə xüsusi məşğul olmuşam. Belə də tənbəl insan olarmı?.." Heç belə cavabı da kimsədən eşitməmişdim. Zəhmətin əlində qalmasın, deyirəm. Xanımlar özünü arxa planda görmək istəmir axı, özü də belə istedadlı biri ola... Görünür, Hicran Hüseynova qəhrəmanı kimi adət edib yoxluq üstə saray ucaltmağa. "Adam olduğu yeri bəzəyir, yer adamı bəzəmir", demə, əbəs yerə söyləmirmiş bunu...

O, oxucu gözünü yağır etməsə də, tanınmış və sevilən müəllifdi. Adı həssas oxucuya çox doğmadı. Vaxt olub ki, bu xanımın bircə yazısına görə "Ulduz" jurnalını aldığıma sevinmişəm. O qədər yazılar, cild-cild kitablar var ki, içində bircə məna tapa bilmirsən.

Bu yaxınlarda Hicranın "Qaçqınçılıq" adlı hekayəsini oxudum. "...Belə söz yoxdu leksikonumuzda – qaçqınçılıq. Amma, deyəsən, var, Elmira xala yaradıb. Hər bir insan uzun ömrü boyu nəsə yaradır axı... Qəribəydi, o, qaçqınçılıqdan elə maraqla danışırdı ki,.. Çoxlarından çox hörmət gördüm..." və

"Bəzən də adamlar qarşısındakının zəifləyəcəyi vaxtı gözləyir, məhz təsəlli vermək anında səxavətli, hörmətcil olurlar." Amma

"...Asfalt əzmişdi sısqa cücərtiləri, həyat əzmişdi Elmira xalanı. Sısqa cücərtilər başını dikəldib gülürdü günəşə, eynən Elmira xala həyata-qaçqınçılığa gülən kimi..."

Yurdundan-evindən didərgin düşən, uşağı əlil arabasında, həkimə verməyə pul tapmayan ananı kimsə belə təsvir etmişdimi? O, həyatın real anını özünəməxsus şəkildə, incəliklə qələmə alır. Yazılarını kobud sözlərlə, uzun-uzadı eybəcər bənzətmələrlə yükləmir. Onun əsərlərinə boğazdan yuxarı sevgi, pafos, mənasız qışqırtı yaddı. Ona görə də oxucunu tutub saxlayır, qəlbini dindirir və ən əsası düşündürür...

Doğum günün mübarək olsun, "Ulduz"un parlaq ulduzu, sevimli müəllif! Gözlərinin nuru, qəlbinin sözü və bir də özünü fəda etdiyin balalarınla xoşbəxt olasan...

DEBÜT

LOVĞA QAPI

Xanım MEHDİXANLI

Yolun kənarındakı qapı sexində qızğın iş gedirdi. Ustalar, fəhlələr bütün günü müxtəlif həyət qapıları düzəldir, vitrinə yığırdılar. Bu qapılardan birinin üzərində xüsusi əmək sərf edib hazırlamışdılar. Buna görə də ölçüsünə, bəzəyinə görə digərlərindən seçilən yaşıl qapı bütün günü lovğalanırdı. lovğalanmağının başqa səbəbi də elə onu hazırlayan ustası olmuşdu. Qapı hazır olandan sonra qonşu sexdəki ustaları çağırıb onlara bu qapını o qədər tərifləmişdi ki, insafən, həmin ustalar da qapının naxışlarını gözəl sənət kimi dəyərləndirmişdilər. Sexin sahibi də bu səbəbdən ustanın sözləri ilə desək, bu gözəl sənət əsəri olan yaşıl qapını hamısından baha qiymətə satışa qoymuşdu. Bütün bunları özlüyündə götür-qoy edən yaşıl qapı qərara gəlmişdi ki, necə olur-olsun o, buradakı, hətta bu tərəflərdə olan sexlərdəki qapıların hamısından gözəl və bahalıdırsa, mütləq bahalı villası olan həyətin qapısı olmalıdır. Sexə qapı almağa gələn bahalı avtomobil sahiblərini görəndə o biri qapıların yanında lovğalanırdı. Artıq sahibimi tapdım, lakin bu minvalla üç ay vitrində qalandan sonra günlərin bir günü yaşıl (bundan sonra lovğa adlandıracağıq) qapını bahalı son modelli avtomobil sahibi alıb dəniz kənarındakı üçmərtəbəli villası olan həyətinə qoydurdu. Böyük hovuzlu, müxtəlif ölkələrdən gətirilmiş ağacları olan bağ-bağçalı kirəmit döşənmiş həyəti görəndə lovğa qapı daha da fərəhləndi, lakin onu narahat edən bir iş vardı, o da onun bu cür yerdə yerləşməsindən sexdəki qapıların xəbərdar olmaması idi.

Səhərlər sahibi işə gedəndə onun bahalı avtomobili üçün taybatay açılanda çox fərəhlənirdi, amma lovğalanmağa bir qapı da yoxdur deyə təəssüflə düşünürdü. Əslində üzbəüz qapı qonşusu vardı, lakin bu rəngi getmiş, köhnə, cəftələri cırıldayan qapını özünə həmsöhbət etmək, bu yaşıl, lovğa qapıya heç yaraşarmı, - deyə düşünürdü. Köhnə qapının sahibi hər gün avtomobilini həyətdən çıxaranda, bu qapını zorla açanda, lovğa qapı yuxarıdan aşağı bu güclə açılan qapıya baxır, fikirləşirdi ki, görən, nə zamana qədər mən özümə yaraşmayan qonşu ilə üz-üzə qalacağam.

Günlər keçdikcə lovğa qapı darıxmağa başladı. Düzdür, hər səhər sahibini yola salıb axşamlar qarşılayanda həftə sonları həyətə gələn qonaqların bahalı avtomobilləri üçün açılıb-bağlananda gözaltı qonşusuna baxıb fərəhlənirdi, lakin bu hərdən olurdu. Günlər keçdikcə, saatlarla boş-bekar qaldıqca qonşusu köhnə qapıya həsədlə baxırdı.

Köhnə qapının sahibinin üç övladı vardı. Hər gün dərsə gedib-gəlirdilər, onların dostları tez-tez gəlirdi, köhnə qapı onları həvəslə qəbul edir, həyətdə futbol oynayan uşaqların topu hərdən köhnə qapıya dəyib onu silkələyirdi, bu həyətə gələn qonaqlar üçün tez-tez açılıb-örtülən qapının, bir sözlə iş-gücü başından aşırdı.

Bütün bunları həsrətlə seyr edən lovğa qapı daha əvvəlki kimi öz gözəlliyi ilə öyünmür, günlər keçdikcə kədəri artırdı.

Günlərin birində onlara gələn qonaqlardan biri sahibinə dedi:

Artıq belə qapılar dəbdən düşüb, niyə bunu dəyişmirsən?

Qapı təşvişlə sahibinin cavabını gözlədi. O isə dedi:

Yayda dəyişib yenisini alacağam.

Bunu eşidən qapı özlüyündə düşündü, axı nəyə görə onu bəyənmirlər ? O ki hələ təzədir, gözəldir, qonşusu kimi köhnə deyil.

Yayın əvvəllərində həyətə ustalar gəlib onu yerindən çıxardıb ondan daha böyük bahalı qapını qoydular. Lovğa qapı ilk dəfə idi özündən sanballı qapını görüb pərt oldu. Onu yenidən sexə apardılar. Ustalar bir müddət ona baxıb qərara gəldilər ki, onu bir qədər sadələşdirib daha ucuz qiymətə satsınlar. Lovğa qapı bunları eşidəndə sevindiyindən kövrəldi. Düzdü kövrəldiyini o biri qapılardan gizlətdi, amma özlüyündə deyirdi ki, kaş məni kasıb, çoxuşaqlı bir ailə alıb aparaydı, o köhnə qapı kimi iş-gücdən başım ayılmayaydı və beləliklə lovğa qapı artıq sexə gələn bahalı avtomobil sahiblərini deyil, sadə müştərilərini gözlədi...

HÖRÜMÇƏK ZAMAN

Elşad ƏRŞADOĞLU

Elşad Ərşadoğlu 29 iyul 1986-cı ildə Füzuli rayonunun Yağlıvənd kəndində anadan olub.

Bakı Dövlət Universitetinin Filologiya fakültəsində 2004-2008-ci illərdə bakalavr, 2009-2011-ci illərdə magistratura təhsili alıb.

15 ildən çoxdur ki, bədii yaradıcılıqla məşğul olur. İlk şeiri 2002-ci ildə nəşr olunub. AYB-nin ədəbi orqanlarında – "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat" qəzetində, həmçinin "525-ci qəzet", "Ədalət" və digər qəzet, jurnal və almanaxlarda, ədəbiyyat internet portallarında şeirləri ilə müntəzəm şəkildə çıxış edir.

2007-ci ildə "Yarsan mənim ürəyimi...", 2010-cu ildə "Kələfin ucu", 2014-cü ildə isə "Eşqə doğru" adlı şeir kitabları çap olunub.

2010-cu ildə Azərbaycan Yazıçılar Birliyinin Mədəniyyət və Turizm Nazirliyi ilə birgə layihəsi olan Gənc Ədiblər Məktəbinin məzunu olub. 2009-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2014-cü ildən isə birliyin idarə heyətinin üzvü və Gənclər Şurasının sədridir.

2011-ci ildə Prezident təqaüdünə layiq görülüb. 2013-cü ildə Gənclər və İdman Nazirliyi tərəfindən ədəbiyyat sahəsindəki xidmətlərimə görə "Gənclər mükafatı" ilə təltif olunub.

İÇİNDƏ ÇÜRÜYÜB GEDİR ADAMLAR

Nə ana bətnidir, nə də ki qəbir,
O dünya başqadır, daha gözəldir,
Ondandır ağlaya-ağlaya gəlir,
Dünyadan kiriyib gedir adamlar.

Çox da ki Əzrail canını almır,
Ölüb gedənlərin sayına salmır,
Heç çoxu ömrünün sonuna qalmır,
İçində çürüyüb gedir adamlar.

Ax, bu dil tökənlər, xeyrin güdənlər,
Ağılsız kəllələr, cansız bədənlər...
İnsafınız olsun, tərif edənlər,
Görmürsüz əriyib gedir adamlar?

İçini-çölünü başqa eləyib,
Bütün ömrü boyu "keşgə" eləyib,
Yaşamır, ruhuna qoşqu eləyib,
Bədənin sürüyüb gedir adamlar...

BELƏ SEVMƏZLƏR ADAMI

İnsafın olsun, a zalım!
Adamın adama yazığı gələr,
Yayın bu istisində
Adamı belə sevməzlər,
Belə sevməzlər adamı.
Qarşıdan da payız gəlir...
Bu sevgi havalandırar,
Dəli eləyər adamı.
Sevgi də ömür kimidi,
Hüdudu var, sərhədi var.
Dünyanın sonu deyil ki,
Ürəyi bir dincəldərlər,
Sevməyin də bir həddi var.
Hər gecə tamam unudub,
Hər səhər təzədən sevib
Sevgini tər saxlayarlar.
İmam üçün ağlayanda
Yezidi də unutmazlar,
Qəzəbə də, nifrətə də
Bir azca yer saxlayarlar.

Elə ancaq sevgi görsə,
Bəs həsrətin, bəs hicranın
Dadın hardan bilər adam?
Sənin xəbərin yoxdu e,
Səadətdən xəstə düşər,
Xoşbəxtlikdən ölər adam...
Bir az düşər-düşməzi var,
Sevgi sevməz hər adamı...
Adamı belə sevməzlər,
Belə sevməzlər adamı,
Yayın bu istisində...

ARZULARIN DOĞAN ADAM

Harada dursa, görünməz,
Özünü yorsa, görünməz,
Gözə də girsə, görünməz,
Başqa ömürlərdən uzaq,
Öz ömrünə sığan adam.

Tək özünün üzün görər,
Qaşın görər, gözün görər,
Hara baxsa, özün görər,
Güzgülərə baxan kimi
Bu həyata baxan adam.

İçdən çıxar, çölü bilməz,
Sağı bilməz, solu bilməz,
Gedəcəyi yolu bilməz,
Səbri üzündən özündən
Yerli-yersiz çıxan adam.

Arzusu ölər, qırılar,
Yanıb içində qor olar,
Arzularıyla bir ölər,
Arzuların ürəyində
Bircə-bircə doğan adam...

YAŞAMAQ DA BİR ADƏTDİR

Hamı, hər şey gəlir, gedir,
Ömrümüzü yolur gedir.
Yaxşı-pis məhv olur, gedir,
Qalan boş şeydi, boş şeydi.

Ömür icarə verilir,
Verən Haqq, alan bəndədir,
Hər bir hüquq verəndədir,
Alan boş şeydi, boş şeydi.

Yaşamaq da bir adətdi,
Həyat vardan ibarətdi,
Var nə varsa, həqiqətdi,
Yalan boş şeydi, boş şeydi.

Çəkdiyi hər ah böyüdür,
Saldığı tamah böyüdür,
İnsanı günah böyüdür,
Qalan boş şeydi, boş şeydi.

Ustası, xamı uduzur,
Arzunu, kamı uduzur,
Savaşda hamı uduzur,
Fərqi yox, qələbə-filan
Çalan boş şeydi, boş şeydi...

BİR KİŞİ VAR İDİ...

Babamın xatirəsinə...

Bir kişi var idi,
nəhəng bir Kişi..
Orta,
ali təhsilini
yalnız həyat məktəbində alan kişi...
Bəzən taleyinə meydan oxuyan,
Bəzən "olacağa çarə yox" deyib
Bulud kimi dolan kişi..
Oğul dərdi,
torpaq dərdi çəkə-çəkə
solan kişi...
Kövrək kişi,
həlim kişi,
qəmgin kişi,
gərgin kişi...
Dastan, nağıl, bayatılı sinəsi
Akademiyanın
Folklor İnstitutu qədər
zəngin kişi...

Bir kişi var idi,
nəhəng bir kişi...
Həyatı taleyin sərt silləsiydi...
Dünyada nə qədər əzab-ətiyyət var,
hamısı əlindən keçmişdi onun,
Əlləri zəhmətin xəritəsiydi...
Həyatın hər çürə üzün görmüşdü,
Keçmişin ən dərin qaranlığında
hələ uşaq ikən
iki qardaş bir bacı
ata-analarıyla birgə
xoşbəxtliklərini də itirmişdilər...
Elə qocalmışdı ki...
Bir vaxt Dünya savaşında
faşistlərə əsir düşməyən kişinin
bədənini qırışlar
əsir götürmüşdülər...

Bir kişi var idi,
nəhəng bir kişi...
Həyat verənim olmasa da
Həyatımın təyini olan kişi.
Sinəsindəki folklar adlı xəzinəni
uşaqlıqdan ruhuma
misra-misra hopduran,
içirən kişi...
Ovcunun içində saxlayıb məni,
öz zəhmətkeş əllərilə
arzudan-arzuya qanadlandıran,
uğurdan-uğura köçürən kişi...
Həyatımdan qırmızı xətt kimi
gəlib keçən kişi.
Ölümü öldürüb ölümsüzləşən,
Şirin xatirəyə çevrilib tamam
yaddaşıma,
ruhuma,
ürəyimə köçən kişi...
Ürəyimdə məskən salıb,
yaddaşımda yaşayır,
əməli-sözü tən kişi,
Mənə yaşamağı öyrədən kişi...

Bir kişi var idi,
nəhəng bir kişi...

TELLƏRİNDƏ ÇİÇƏKLƏYƏR ƏLLƏRİM

Yenə bahar gəlib, ay ömrüm-günüm,
Gün vurar, əriyər yenə dərd-sərim.
Nəfəsimdə yanaqların allanar,
Tellərində çiçəkləyər əllərim...

Payızda saralıb ölən təbiət
Yamyaşıl doğular yenə hər bahar.
Adamların çölündə gül-çiçəklər,
İçlərində sevgi bitirər bahar.

Qış yuxusu buxarlanar torpağın,
Nə zaman ki, ay üzündən gün çıxar.
Qarışqanın qayğıları cücərər,
Kəpənəyin gül yuxusu çin çıxar.

Baharın ən gözəl nəğməkarları...
Təbiət nəğməsin xoşlar onların,
Keçər iş başına cırcıramalar,
Solo konsertləri başlar onların.

Böcəklər yuxlayan tər çiçəklərə,
Müştəri gözüylə baxar arılar.
Hər gülün üstünə neçəsi düşər,
Səlib yürüşünə çıxar arılar...

Biz də təbiətin bir parçasıyıq,
Onun ahənginə qarışmışıq biz.
Bu yaz çiçək açar, payız bar verər
Keçən bahar muçurlayan sevgimiz...

Yenə bahar gəlib, ay ömrüm-günüm,
Gün vurar, əriyər yenə dərd-sərim.
Nəfəsimdə yanaqların allanar,
Tellərində çiçəkləyər əllərim...

HÖRÜMÇƏK ZAMAN

Tutmur beş dəqiqə bir yerdə qərar,
Gəzir bu dünyanı hey diyar-diyar.
Verən əli yoxdu, alan əli var,
Almağa öyrəşib bu külək zaman.

Sulayır gün boyu tər sifətimi,
Cadar-cadar olmuş yer sifətimi.
Qırışlar bürüyür sir-sifətimi,
Üzümdə tor qurur hörümçək zaman

Yeyir, dost tanımır, düşmən tanımır,
Qarışqatək darışıbdır canıma.
Hopub iliyimə, hopub qanıma,
Məni məhv eyləyir bu xərçəng zaman.

Haradı ünvanı, kim bilir yerin?
Ha yalvar, ha yaxar, eşitməz birin.
Neçə sifəti var bu hiyləgərin:
Qışda qar, baharda gül-çiçək zaman.

Dincəlmir, axşamı, səhəri yoxdu,
Qəlbində bir sözlük kədəri yoxdu.
Hələ ki kefdədi, xəbəri yoxdu,
Mən öləndə mənnən öləcək zaman...

AZALA-AZALA YOX OLUR ADAM

Başqasının içində yaransa da,
öz içində doğulur adam...

Yaşayır...
Havası çatmır,
həm istidən,
həm soyuqdan,
vardan,
yoxdan,
sevgidən,
sevgisizlikdən,
kədərdən,
sevincdən...
bir sözlə,
içdən-içdən
əzab çəkir,
boğulur adam..
Ancaq
ən pis,
dostların,
yaxınların sevgisindən yıxılır adam.
Elə yıxılır ki,
çilik-çilik olub
öz içinə dağılır adam.
Sonra da
qırıntılarını
yığıb toplamağa çalışır
öz içindən.
Neyləsə də,
bir qırıntısı da olsa kəm gəlir
hər dəfə.
Hər dəfə bir qırıntı,
bir hissə azalır,
çıxılır adam.
Hər dəfə bir az kiçilir,
sıxılır adam...
Azala-azala,
nəhayət,
bir gün tükənir öz içində...
Beləcə,
yox olur adam...

QƏRİBƏ QIŞ

Bu qış qəribə qışdı...
Bu qış havalardan əvvəl
adamlar soyudu...
Adamlardakı sevgilər,
istəklər,
xətir-hörmətlər,
haqq-salamlar soyudu...
Sonra
adamların soyuqluğundan
küçələr,
yollar,
həyətlər,
evlər,
damlar soyudu...
Bu qış qəribə qışdır,
bu qışı adamlar yaratdılar...

DİLLƏR

Çalış,
rus dilində danışmağı,
alman dilində düşünməyi,
ingilis dilində yaşamağı,
Azərbaycan dilində sevməyi,
ərəb dilində ölməyi öyrən...

Çünki
rus dilində danışmaq,
alman dilində düşünmək,
ingilis dilində yaşamaq,
Azərbaycan dilində sevmək,
ərəb dilində ölmək gözəldir, dost!...

CANIMA ÇƏKMİŞƏM SƏNİ

Tanrının verdiyi mələk,
Mənimsən ruhdan cismədək.
Elə bilməginən ki, tək
Yanıma çəkmişəm səni.

Yaşayıb ömür misalı,
Gizləyib bir sirr misalı,
Qoxlayıb ətir misalı,
Canıma çəkmişəm səni.

Sən elə Mənmişsən demə...
Mənimlə varsan, qəm yemə.
Ömrümdə hər dəqiqəmə,
Anıma çəkmişəm səni.

Ömürdü, hələ gedirəm,
Hey ölə-ölə gedirəm.
Sondan əvvələ gedirəm,
Sonuma çəkmişəm səni...

AYRILIQ – ÖLÜMÜN MƏSTƏR FORMASI

İnsan bu dünyada yaşamır, lələ,
İnsan ölməməyin dadın çıxardır.
O da Yaradandır, yaradanlığın,
Kişinin canından qadın çıxardır.

Ağ saç kölgə salmaz üz ağlığına,
İllərin, zəhmətin gücünə çıxır.
Nəsə, görmədiyi günlərin rəngi,
Get-gedə adamın saçına çıxır.

Ayrılıq ölümün məstər forması,
Ölmək yaşamağın hələ yarısıdı.
Qırış filan nədir? Adamın çölün,
İçinin yanğısı, odu qarsıdır.

Niyə yaranır bu minnər, milyonlar,
Sonda yarandığı BİRə dönürsə?
Yaşamaq deyilən nisyəçilikdi,
Hamı öz gəldiyi yerə dönürsə.

Ən şəfalı həkim Zaman həkimdi,
Bütün ağrıların dərmanı vaxtdır.
Tamaşa ordadır, səhnə ordadır,
Bu ömür ölümdə bir antrakdır...

İÇİMDƏ BİR İŞIQ ÖLÜB

Hələ dəyməmişəm, kalam,
Hələ öz nəfsimə qulam.
Ömrü sökməklə məşğulam,
Hörmürəm, Allah, hörmürəm.

Böyümüşəm, uşaq ölüb,
Saflığı qarışıq ölüb.
İçimdə bir işıq ölüb,
Görmürəm, Allah, görmürəm.

Bir canım var, ildən-ilə
Sevib qoruyuram hələ.
Səndən aldım, Əzrailə
Vermirəm, Allah, vermirəm...

GÖZƏ GƏLİR

Ha ölçürəm, nəsə çölüm
İçərimdən qısa gəlir.
Qəm də məndən əl çəkmir ki,
Köhnə gedir, təzə gəlir.

Dərdlərim var, dağdan
Hamısı da kövrək, fağır.
Gizləsəm, qəlbimi sıxır,
Deyirəm də gözə gəlir.

Ana, könlüm sözə möhtac,
Gözüm toxdur, ürəyim ac.
Bir yaxşı can süfrəsi aç,
Bu gün ölüm bizə gəlir.

YEKƏ DƏRDİM

Məndən əvvəl kimlər çəkib,
Salıb bu kökə dərdimi?
Day qoymaram bundan sonra
Hər yetən çəkə dərdimi.

Həə... deyirəm, nəfləndirim,
İçizdirib kefləndirim,
Sevincimlə evləndirim,
Çoxaldım, bəlkə, dərdimi?!

Sevindirim işıq kimi,
Xoşbəxt edim aşiq kimi,
Bütün günü uşaq kimi
Ağlayan yekə dərdimi.

Dərd olmasın day heç kimə,
Sevinc gətirsin içimə.
Ha beləcə, sevincimə
Eləyim nökər dərdimi...

İŞIQ

Nə olsun dünyaya gecə gəlmisən,
İşığı sönməyə qoyma içində.
O işıq yaşadır səni, bilmirsən,
İşığı sönməyə qoyma içində.

Bu nağıl dünyada itlərin səsi
Çətin doğru yola çəkə bir kəsi.
Bürüyüb hər yanı it hürüşməsi,
İşığı sönməyə qoyma içində.

Çox da işıq qaranlıqda doğulur,
Elə zülmətdə də bir gün yox olur.
Deyirlər zülmətə qurd-quş yığılır,
İşığı sönməyə qoyma içində.

Özün öz içində itərsən birdən,
Özünə xəyanət edərsən birdən,
Azıb başqa yerə gedərsən birdən,
İşığı sönməyə qoyma içində.

Taleyin asılıb tək o işıqdan,
Həyatına işıq çək o işıqdan,
Özünə ev-eşik tik o işıqdan,
İşığı sönməyə qoyma içində -
Allahı ölməyə qoyma içində...

O QIZIN SAÇI GÖYNƏYİR

Yeməkdən acı həsrəti,
İçimin içi göynəyir.
Canım acıdan inləyir,
Canımda acı göynəyir.

İçində bu işin-gücün,
Bu gəl-gedin, köçhaköçün,
Darıxıram özüm üçün
Burnumun ucu göynəyir.

Kimsə yolumu gözləyir,
Susaraq məni səsləyir...
Mənim əllərim sızlayır,
O qızın saçı göynəyir...